**NAZİM CƏFƏROV**

# MİLLİ – İCTİMAİ FİKİR TARİXİMİZDƏN

## 14– FEVRAL, 1917

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**

**BAKI – 1993**

**BBK 9 (C.42)**
**C 77**

Rəyçi tarix elmləri namizədi
*Nəsib Nəsibzadə*

Redaktoru
*Sədaqət Cabbarova*
Rəssamı
*Kirman Abdinov*

**Cəfərov N.**
C 77 Milli – ictimai fikir tariximizdən (1914- fevral 1917) B.: Azərnəşr, 1993. 80 səh.

Kitabda qaldırılan məsələlərə indiyədək elmi ədəbiyyatda istənilən səviyyədə yer verilməmişdir. Burada M.Ə.Rəsulzadə, Y.Vəzirov, Ö.Faiq və o dövrün bir çox görkəmli şəxsiyyətlərinin ictimai – siyasi görüşləri araşdırılır. Ümumiyyətlə, 1914 – 1917-ci illərdə Azərbaycan ictimai fikrində hökm sürən ayrı – ayrı cərəyanlar bütün rəngarəngliyi və ziddiyyəti ilə əsərdə öz əksini tapmışdır.

**C 0301040200 – 116 22 – 93** **BBK 9 (C. 42)**
**M – 651 (07) - 93**

**ISBN 5 – 552 – 01323 – 9** **Azərnəşr, 1993.**

# Ö N  S Ö Z

Birinci dünya müharibəsi illərində Azərbaycanda ictimai-siyasi mühit ziddiyyətli idi. Çarizmin 1905-1907-ci illərdə xalq kütlələrinin inqilabi çıxışlarından sonra islahatlar keçirəcəyi, xalqa demokratik azadlıqlar verəcəyi barədə elan etmiş olduğu vədlər kağız üzərində qaldı. Bundan başqa, müharibə əhalinin güzəranını daha da pisləşdirdi. Əhalinin əksəriyyəti yarıac, yarıtox dolanır, ərzaq qıtlığı və bahalıq getdikcə fəlakətli hal alırdı.

Azərbaycanda yerli camaat yalnız maddi çətinliklərlə üzləşmir, həm də çarizmin müstəmləkəçilik siyasəti nəticəsində təqiblərə, milli və dini ayrı-seçkiliyə məruz qalırdı. Bu cür mürəkkəb və ziddiyyətli şərait Azərbaycanda milli-ictimai fikrin fəallaşmasına güclü təsir göstərirdi. Azərbaycan ziyalılarında milliazadlıq ideyaları formalaşır, onların çarizmin müstəmləkəçilik siyasətinə qarşı etirazları gündən-günə güclənirdi.

Azərbaycan ziyalıları ilk növbədə qarşılarına xalqın gözünü açmaq, onda milli mənlik şüurunu formalaşdırmaq məqsədini qoymuşdular. Onlar çarizmin güzəştlərindən istifadə edərək qəzetlər və jurnallar çap etməyə, zəhmətkeş kütlələrin savadını artırmağa, dünyagörüşünü genişləndirməyə çalışırdılar. Mətbuatın bu işdə müstəsna əhəmiyyəti vardı və xalqın ictimai həyatında böyük rol oynayırdı. Mətbuat hər şeydən əvvəl o dövrdə ictimai rəyi formalaşdıran yeganə kütləvi informasiya vasitəsi idi. Məlum olduğu kimi Azərbaycan mətbuatının əsasını Həsən bəy Zərdabi hələ 1875-ci ildə qoymuşdu. Lakin çarizm azərbaycanlıların, daha dəqiq ifadə ilə desək, Qafqaz türklərinin oyanmasından, maariflənməsindən qorxuya düşmüş və müxtəlif yollara əl ataraq Həsən bəy Zərdabinin açdığı "Əkinçi" qəzetini tezliklə qapatmışdı. Nəhayət, 1905-ci ildə, Rusiya-Yaponiya müharibəsində çarizm məğlubiyyətə uğrayandan sonra azərbaycanlılar mətbuat üzü görmüşdülər. Mütləqiyyətin zəifləməsi, ictimai-siyasi həyatdakı bəzi güzəştlər mətbuatın gur inkişafına səbəb olmuşdu.

Azərbaycan Respublikası Siyasi partiyalar və ictimai hərəkatlar Mərkəzi Dövlət Arxivində, Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmalar İnstitutunun və M. F. Axundov adına Dövlət Kitabxanasının arxivlərində çalışarkən, tədqiq etdiyimiz dövrdə Azərbaycanda çıxmış aşağıdakı qəzet və jurnalların saylarına rast gəldik: "Açıq söz", "İqbal", "Yeni iqbal", "Bəsirət" qəzetləri, "Dirilik", "Şəlalə", "Qurtuluş", "Babayi-Əmir", "Molla Nəsrəddin", "Ləklək" jurnalları. Yeri gəlmişkən qeyd edək ki, təqdim etdiyimiz siyahını tam hesab etmək fikrindən uzağıq.

Adını sadaladığımız mətbu orqanlarını öz fikirlərini oxucuya çatdırmaq tərzinə görə iki qrupa ayırmaq olar: ciddi və məzhəkəçi. Yusif Vəzirov (Yusif Vəzir Çəmənzəminli) birinciləri tikən, ikinciləri isə dağıdan mətbuat adlandırırdı. O, bu iki mətbuat orqanı arasındakı nisbətin bərabər olmasına xüsusi əhəmiyyət verirdi. Əks halda mətbuatdan kömək ummaq faydasız olardı.

"Molla Nəsrəddin", "Babayi - Əmir" və "Ləklək" məzhəkə jurnalları idi.

Onlar səhifələrində əsas etibarilə maarif məsələsini qaldırırdılar. Bundan başqa qadın hüquqları uğrunda da ardıcıl mübarizə aparırdılar. Qadınlara həqarətlə baxanları satira atəşinə tuturdular. "Molla Nəsrəddin" məcmuəsi qaldırdığı məsələləri daha kəskin qoyurdu. Bir qayda olaraq mövcud problemlərin kökünü cəhalətdə, nadanlıqda, savadsızlıqda axtarırdı. Bununla belə, jurnal çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı da müxtəlif üsul və vasitələrlə öz etirazını bildirirdi. "Babayi - Əmir" və "Lələk" jurnalları isə nisbətən mötədil mövqe tutur, çox vaxt maarif məsələlərindəki çatışmazlıq və nöqsanları tənqid etməklə kifayətlənirdilər.

"Açıq söz" qəzeti, "Dirilik" və "Qurtuluş" jurnalları isə millətçilik – türkçülük xətti tutmuşdular. "Açıq söz" qəzeti o illərdə gizli fəaliyyət göstərən "Müsavat" partiyasının orqanı idi və bu təşkilatın ideyalarını yayırdı. "Açıq söz" qəzetinin 1915-ci il 2 oktyabr tarixli 1-ci sayında Məhəmməd Əmin Rəsulzadənin "Tutduğumuz yol" məqaləsi buna sübutdur. Məqalədəki fikirlərlə "Müsavat" partiyasının ideologiyası arasında bir uyğunluq vardı. 1911-ci ildə yaranmış "Müsavat" partiyasının ideologiyasında 1913- 1914 –cü illərdə kəskin dönüş əmələ gəlmişdi. Partiya əvvəllər daha çox təbliğ etdiyi islamçılıqdan millətçiliyə və türkçülüyə keçmişdi. Bu kəskin dönüşə M.Ə.Rəsulzadə səbəb olmuşdu. "Dirilik" məcmuəsinin ilk on sayında millətçilik ideyaları geniş şəkildə təbliğ olunmuşdu. M.Ə.Rəsulzadə bu saylarda özünün məşhur "Milli dirilik" silsilə məqalələrini çap etdirmişdi. O, bu məqalələrdə milli dirçəliş konsepsiyasının əsaslarını işləmiş və milli istiqlal fikrini irəli sürmüşdü. Sonralar məcmuənin kəsəri azalmış və M.Ə.Rəsulzadənin adı məcmuənin səhifələrində görünməmişdi. Çox güman ki, buna səbəb senzor olmuşdu.

"İqbal" və "Yeni iqbal" qəzetlərində də millətçilik, türkçülük ideyası təbliğ olunurdu. Qəzetlərin səhifələrində M.Ə.Rəsulzadənin, Ö.Faiqin, Y.Vəzirovun və başqalarının milli ruhlu məqalələri çap olunurdu.

Türkcənin osmanlı şivəsilə çıxan "Şəlalə" məcmuəsi bir sıra cəhətinə görə böyük maraq doğurur. "Şəlalə" məcmuəsi sırf elmi, fəlsəfi bir məcmuə idi. Səhifələrində əsasən elmi və fəlsəfi – dini məqalələr çap etdirirdi. Türkcənin osmanlı şivəsini yorulmadan təbliğ edirdi. Bir növ məşhur "Füyüzat" məcmuəsinin ənənəsini davam etdirirdi. Çünki dili, üslubu və təqib etdiyi məsləkləri arasında bir ümumilik, oxşarlıq hökm sürürdü.

Gərgin axtarışdan sonra "Bəsirət" qəzetinin tədqiq etdiyimiz dövrə aid cəmi 1-2 sayını əldə etdik. Bununla belə, qəzetin 1917-ci və 1920 –ci illərdə çıxan sayları belə bir fikir yürütməyə əsas verir ki, bir sıra tərəddüd və ziddiyyətlərinə baxmayaraq, "Bəsirət" qəzeti daha çox bolşeviklərin mövqeyinə tərəfdar çıxmışdır.

Birinci dünya müharibəsi illərində Azərbaycan ziyalılarını ən çox məşğul edən problem sosial tərəqqi problemi idi. Sosial tərəqqi problemi xüsusi şəraitdə milli tərəqqi problemi ilə qovuşurdu. Azərbaycan xalqı çarizmin əsarəti altında inləyən məhkum millət olduğuna görə qarşıda duran başlıca vəzifə, təbii ki,

yeridilən müstəmləkəçilik siyasətinin ağır nəticələrinin təsirini mümkün qədər azaltmaq, xalqın soykökünə qayıtmaq, onun milli ruhunu qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarət idi.

M.Ə.Rəsulzadə milli tərəqqini sosial tərəqqinin əsası hesab edirdi. Başqa sözlə desək, bu və ya digər xalq sosial sahədə azadlıq əldə etməzdən əvvəl özü azad olmalı, milli istiqlala çatmalıdır. Ona görə ki, məhkum xalq, məhkum millət heç bir zaman sosial azadlığa, demokratiyaya nail ola bilməz. Səbəb də budur ki, məhkum millətin ixtiyarı heç vaxt özündə olmur. Onun taleyini digər hakim millətin nümayəndəsi həll edir. Hakim millətin nümayəndəsi isə təbiidir ki, bu zaman mənsub olduğu millətin mənafeyini əsas tutur. Beləliklə, millilik, milli istiqlal M.Ə.Rəsulzadənin nəzəri baxışlarının özəyini təşkil edir. Yeri gəlmişkən qeyd edək ki, dünya müsəlmanlarını vahid islam bayrağı altında birləşdirib onları müstəmləkəçiliyə qarşı mübarizəyə səsləyən görkəmli dini və siyasi xadim Şeyx Cəmaləddin Əfqaninin (1838 - 1887) fikirləri M.Ə.Rəsulzadənin nəzəri baxışlarına ciddi şəkildə təsir etmişdir. Digər ziyalılar – Y.Vəzirov, Ö.Faiq və başqaları millətin maariflənməsi, savadlanması üçün əllərindən gələni edirdilər. Bəri başdan onu deyək ki, yuxarıda adlarını sadaladığımız şəxslərin dünyagörüşündə sonralar baş vermiş müəyyən dəyişikliklər tədqiqatda öz əksini tapmamışdır. Biz bu şəxslərin ancaq məhdud dövrdə, 1914 – fevral 1917-ci illərdə formalaşan fikirlərini əsas götürmüşük.

Tədqiq edilən dövrdə ictimai fikrin formalaşmasında müəyyən rol oynamış bolşeviklər sosial tərəqqini sinfi mübarizə ilə, ictimai inqilablarla əlaqələndirirdilər. Onlar bir qayda olaraq milliliyin əleyhinə çıxır, cəmiyyətdəki münaqişələrin, ziddiyətlərin kökünü cəmiyyətin maddi həyatındakı ziddiyətlə, yəni məhsuldar qüvvələrin inkişafı ilə, istehsal münasibətlərinin inkişafındakı uyğunsuzluq ilə izah edirdilər. Onların fikrincə, əgər məhsuldar qüvvələr sürətlə inkişaf edirsə, hər an, hər dəqiqə təkmilləşirsə, istehsal münasibətləri yubanır və nəticədə məhsuldar qüvvələrin inkişafının qarşısını alır. Odur ki, ictimai inqilablar baş verir və bu inqilabların sayəsində istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafına uyğunlaşır.

Mirzə Bala Məmmədzadənin Berlində nəşr olunmuş “Milli Azərbaycan hərəkatı” (1938) əsərinə istinadən demək olar ki, XX əsrin əvvəllərində Azərbaycanda üç ictimai-siyasi cərəyan var idi: mühafizəkar, liberal və inqilabçı. Mühafizəkarlara, əsasən, din xadimləri aid edilir. Çarizm din xadimlərinin əli ilə milli demokratik hərəkatı boğmağa çalışır, din xadimlərini tovlayıb millətçilərin üzərinə qaldırırdı. Digər tərəfdən din xadimlərinin özlərinin millətçilərə qarşı amansız mövqe tutmaları bu siyasəti həyata keçirməyə xeyli dərəcədə kömək edirdi. Onların fikrincə, milli hərəkat islam dünyasının parçalanmasına səbəb olurdu. Liberallara gəlincə, Azərbaycan liberalları rus liberalları ilə əlbir hərəkət edirdilər. Rus liberalları Azərbaycanın muxtariyyətini tanımaq istəməyəndə onlardan ayrılmışdılar. Azərbaycan liberallarına görkəmli ictimai və dövlət xadimi

Əlimərdan bəy Topçubaşov başçılıq edirdi. Liberallar mövcud quruluşa qarşı mötədil mövqe tutmuşdular. Mövcud qayda-qanundan kənara çıxmırdılar. 1917-ci ildən sonra rus liberallarının Azərbaycan xalqına qarşı qərəzkar mövqeyinə etiraz əlaməti kimi onlarla əlaqələrini kəsmiş və müsavatçılara qoşulmuşdular.

İnqilabçılar əsasən gənclərdən ibarət idi. Onlar Azərbaycan xalqının azadlığı uğrunda dönmədən mübarizə aparırdılar. Azərbaycan inqilabçıları və yaxud Mirzə Bala Məmmədzadənin təbirilə desək, Azərbaycan istiqlalçıları öncə rus istiqlalçıları ilə birgə çıxış edirdilər. Sonra onların arasında parçalanma baş verdi. M. Ə. Rəsulzadə başda olmaqla bir çox vətənpərvər onlardan ayrıldı. Rus inqilabçılarından onları fərqləndirən əsas cəhət bu idi ki, onlar milliliyi, milli istiqlalı ön plana çəkirdilər. Rus inqilabçıları isə milliliyə əhəmiyyət verməyib sinfiliyi, sinfi mübarizəni özlərinə başlıca məqsəd sayırdılar.

Yuxarıda gördüyümüz kimi, sosial tərəqqi probleminə Azərbaycanda ayrı-ayrı partiyalar və təşkilatlar müxtəlif cür yanaşırdılar. Bizim fikrimizcə, sosial tərəqqi problemindən danışarkən daha çox konkretliyə istinad etmək lazımdır. Başqa sözlə desək, sosial tərəqqidən mücərrəd şəkildə danışmaq düzgün olmazdı. Sosial tərəqqi ayrı-ayrı xalqların həyatındakı müsbət dəyişikliklərin şüurdakı əksidir. Xalqı isə tarixən iki qrupa ayırmaq olar: məhkum və hakim. İstiqlaliyyət əldə edib sərbəst yaşamaq hüququ qazanmış xalqlarda sosial tərəqqi prosesi də azad və demokratik ruhda gedir. Məhkum xalqlarda isə ictimai hadisələrin təbii axarı pozulur. Yəni hakim xalq məhkum xalqın iradəsini zorlayıb öz mənafeyinə uyğunlaşdırır və nəticədə məhkum xalqın inkişafı süni yolla yubadılır.

Bizə elə gəlir ki, Azərbaycan xalqı göstərilən dövrdə məhkum xalqlar sırasına daxil idi və çarizmin amansız müstəmləkəçilik zülmünə məruz qalır, milli hüquqları daim tapdalanırdı. Belə bir şəraitdə xalqımızda milli mənlik şüurunu oyadıb onu öz milli hüquqları uğrunda fəal mübarizəyə cəlb etmək daha vacib bir vəzifə kimi qarşıda dururdu. Öz millətini azad və müstəqil görmək istəyən Azərbaycan ziyalıları məhz belə hərəkət edir və bu yolda qarşılarına çıxan hər çür müstəmləkəçilik maneələrini qətiyyətlə dəf etməyə çalışırdılar.

İndiyə qədər sosial tərəqqiyə həsr olunmuş kitab, kitabça və məqalələrdə daha çox bolşeviklərin mövqeyində duran xadimlərin fikirləri işıqlandırılmış və yerli-yersiz təriflənmişdir. Sosial tərəqqiyə milli mənafedən yanaşmış bir çox Azərbaycan ziyalısının bu gün ilə həmahəng səsləşən qiymətli fikirləri isə yasaq edilmiş, imkan düşdükcə onlara "millətçi" damğası vurulmaqla yabançı baxışlar kimi xalqdan gizlədilmişdir. Yaxud ən yaxşı halda bu fikirlər yalnız xalqa zidd "əksinqilabi" mövqeləri "sübuta" yetirmək üçün iqtibas kimi verilib. 70 il ərzində təşəkkül tapmış belə qeyri-normal vəziyyətin aradan qaldırılması üçün kiçicik də olsa səy göstərmək naminə biz indiyədək qadağaya məruz qalmış müəlliflərin fikirlərinə daha çox müraciət etməyi düzgün saymışıq. Sosial tərəqqi hər şeydən əvvəl millətlərin azad və xoşbəxt yaşamasıdır. Hər bir millət inamla bu məqsədə doğru getməlidir.

# I FƏSİL

# SOSİAL AZADLIQ PROBLEMİ

Yuxarıda deyildiyi kimi, bəzi Azərbaycan ziyalıları ilk növbədə azlıqda qalan xalqları əsarətdə saxlayan mövcud siyasi quruluşu devirmək deyil, onu bir qədər mülayimləşdirmək tələbi ilə çıxış edirdilər, çünki çarizm ictimai inkişafın qarşısını alır, demokratik hərəkatı boğur, millətlər arasına təfriqə salırdı. Çarizm azadfikirli adamları xüsusi amansızlıqla təqib edirdi. Rusiyada tərəqqi ancaq müstəbid rejimin məhvi, onun demokratik siyasi quruluşla əvəz edilməsi yolu ilə mümkün idi. Bütün xalqların başlıca düşməni mövcud siyasi quruluş, çar hakimiyyəti idi.

Təbii ki, Azərbaycanda birinci dünya müharibəsi illərində sosial azadlıq problemi haqqında başqa cür düşünənlər də vardı. Onlar bu problemə müxtəlif səmtlərdən yanaşırdılar. Azərbaycan xalqının düşdüyü çıxılmaz siyasi vəziyyətlə əlaqədar olaraq sosial tərəqqi problemi, onların fikrincə, yuxarıda deyildiyi kimi, milli tərəqqi problemi ilə qovuşub vəhdət təşkil edirdi.

Bir çox Azərbaycan ziyalıları çarizmin mətbuat sahəsindəki güzəştlərindən faydalanaraq millətin tərəqqisinə kömək edən amillərdən birinin sosial azadlıq olduğunu bildirirdilər. "Azadlıq" kəlməsi mütləqiyyət quruluşunun düşməni olduğuna görə çar məmurları ondan yenə də oddan qorxan kimi qorxurdular. Bu barədə "Müsabiqə" məqaləsində ("Dirilik" məcmuəsi, 1915, № 12) yazılmışdı: "Halbuki, 9 – 10 il bundan irəliyə qədər hürriyyətin mənən nə olduğunu yanə dursun, bir kağız üstündə yazılmış kəlməsini də görən yox idi".

İndisə "Dirilik" məcmuəsi cəsarətə gəlib hətta aşağıdakı misraları dərc edə bilərdi:

"Dağılması bizə ol məbədin səadətdir,
Təkəllüm olmaz içində kəlami-hürriyyət.
Xərab olub da dağılsın binadən, allahım!
O kişvər ki, yox onda nizami-hürriyyət".

**("Dirilik" məcmuəsi, 1915, № 12).**

Lakin bu azadlıqlar əvvəla aldadıcı idi, çünki səhifələrində milli istiqlal və milli tərəqqi ilə bağlı kəskin, dolğun məqalələr dərc edən "Dirilik" məcmuəsi on altıncı sayından sonra cərimələnmiş və sonra onun səhifələrindən milli qayəli məqalələr tamamilə yoxa çıxmışdır. Əgər on altıncı sayadək M. Ə. Rəsulzadə mütəmadi olaraq "Dirilik" məcmuəsində çap olunurdusa, on altıncı nömrədən sonra bu məcmuənin səhifələrində M. Ə. Rəsulzadənin imzasına rast gəlmirik. Bu baxımdan 1915-ci ildə "Açıq söz" qəzetinin yeddinci sayındakı bir məlumat diqqəti cəlb edir: "Qafqaz əsgəri dairəsinin baş rəisi Bakıda nəşr olunan iki həftəlik

“Dirilik” məcmuəsinin iyunun əvvəlində 16-cı sayında “Rus imperatoru Pyotr Kəbirin vəsiyyətnaməsi” sərlövhəsilə nəşr etdiyi məqaləsini 1914-cü ildə avqustun 21-də verilmiş qərardadi-icbariyyə müğayir görüb məcmuənin müdirini 200 manat cərimə etmiş. Müdir cəriməni verə bilmədiyi halda 6 gün həbsə oturulmalıdır” (“*Açıq söz*” *qəzeti, 1915, № 7*).

M. Ə. Rəsulzadənin fikrincə, çarizmi bəzi güzəştlərə getməyə Rusiya – Yaponiya müharibəsi vadar etmişdir. Müharibə, necə deyərlər, mütləqiyyət quruluşunun çürük əsaslarını laxlatmışdır. Siyasi quruluş aldığı zərbədən sağalanacan, özünü ələ alanacan müəyyən vaxt keçməli idi, əks təqdirdə xalqın narazılığı artıb hökmdarı taxt-tacdan sala bilərdi. Əlbəttə, M. Ə. Rəsulzadə o dövrdə fikirlərini açıq şərh etməmişdi, sadəcə olaraq mətləbi üstüörtülü şəkildə anlatmağa çalışmışdı. O yazırdı: “Tam bundan on il əvvəl bu günkü bir gün idi. Bətənimiz Rusiya keçirməkdə olduğu böyük imtahanların kiçik bir mislini keçirmiş və xarici düşmənlə çəkişdikdən sonra daxili bəzən islahat əsasının elanını lazım görmüşdü” (“*Açıq söz*” *qəzeti, 1915, № 13*).

Ümumiyyətlə, Məhəmməd Əmin Rəsulzadə 1914-1917-ci illərdə olduqca məhsuldar işləmiş, ictimai həyatın bu və ya digər sahəsinə aid çoxlu məqalə yazmışdır. Tədqiq etdiyimiz dövrdə mətbuat səhifələrində onun imzasına dolğunluğu, qaldırdığı məsələnin kəskinliyi və vacibliyi ilə seçilirdi. Baxışlarındakı ardıcıllıq, bütövlük və dərin mühakimə dərhal nəzərə çarpırdı. M. Ə. Rəsulzadə XX əsrin millətlər əsri olduğunu deyir və milli tərəqqiyə, milli dirçəlişə hər şeydən çox diqqət yetirirdi. “Açıq söz” qəzetində çap olunmuş məqaləsində yazırdı: “Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti-əsrimizin milliyyət əsri olduğunu isbat etdi” (“*Açıq söz*” *qəzeti, 1915, №* `).

Digər məqaləsində isə həmin fikrini inkişaf etdirərək Azərbaycan xalqının həyatına müncər etmişdir. Cəhalətdə və qəflətdə yatan xalqın müqəddəratını milli ruhlu gəncliyin nə qədər müsbət təsir göstərəcəyini söyləmişdir: “Zəmanəmiz milliyət əsridir. Milli bir ruh və məslək sahibi olan gənclik cəhalətdə və qəflətdə yaşayan millətimizin xilaskar qurdurur” (*“Qurtuluş” məcmuəsi, 1915 № 1*).

Deyildiyi kimi birinci dünya müharibəsi illərində Azərbaycanda əhalinin vəziyyəti acınacaqlı idi, camaat yoxsulluq içində yaşayırdı. Kəndlilərin vəziyyəti xüsusilə dözülməz idi. Kəndlilər sanki unudulmuşdu. Hamı diqqətini Bakıya, Bakının neftinə vermiş, Azərbaycanın digər yerləri isə yaddan çıxmışdı. Lakin o dövrdə Azərbaycan kəndlilərinin həyatı ilə, məişəti ilə maraqlanan mütərəqqi fikirli adamlar da tapılırdı. Onlardan birisi – Hüseyn Mirzə Camalov “Xalqa doğru” məqaləsində kəndlilərin acınacaqlı həyatını görüb yazırdı: “Əgər cənub və şimali Qafqaziyanın bir çox köylərini (kəndlərini) dolaşarsan, qəlbə toxunacaq lövhələrə təsadüf edəcəyik. Yoxsulluq ədəbi-intizam, möhtac qocalar, ixtiyarlar, tənbəl və cahil cavanlar, məhsuldar torpaqlar, ayaqyalın, əlində dəyənək qoyun, qaramal gözətçiləri cocuqlar, uşaqlar görəcəyiz...” (“*Açıq söz*” *qəzeti, 1916, № 85*).

Azərbaycanın bir sıra qabaqcıl ziyalıları xalqını bu cür dözülməz şəraitdən

qurtarmaq üçün çarələr arayıb axtarırdılar. Onlar, şübhəsiz ki, radikal tədbirlər görülməsini tələb edən bolşeviklərə nisbətən daha liberal mötədil mövqe tuturdular. Onlardan bəziləri xalqın səadətini sosial azadlıqda, milli istiqlalda görürdü, lakin bolşeviklər kimi hamını mövcud quruluşu devirməyə səsləmirdilər. Onlar fikirlərini zəmanəyə uyğunlaşdırıb müəyyən həddən kənara çıxmırdılar. Başqa sözlə desək, çarizmin müstəmləkəçi hakimiyyət orqanları ilə birbaşa münaqişəyə girmək istəmirdilər.

Ömər Faiq Nemanzadə çarizmin milli ayrı-seçkilik siyasətinə qarşı, milli azlıqların mənafeyi əleyhinə yönəldilmiş böyük dövlətçilik siyasətinə qarşı özünün haqq səsini ucaldırdı. O, “Milli məsələlərimizin vəqtimi?” adlı silsilə məqalələrində xalqı üçün, milləti üçün vacib məsələləri bütün kəskinliyi ilə qaldırırdı. Ziyalıları, xalqın elmi-bilikli şəxslərini haqq işi uğrunda mübarizədən çəkinməməyə çağırırdı, mövcud çətinlikləri, müşkülləri ört-basdır etmək əvəzinə aşkarlaşdırmağa dəvət edirdi.

Ömər Faiq yazırdı: “Bəli, biz Rusiya türklərinin də özümüzə görə ictimai, siyasi arzularımız var. Bu arzuları böyük və qəbul olunmayacaq bir şey sanmayınız. Biz artıq bir zad istəmiyoruz! İstədigimiz budur ki, bizə də insanlıq hüququ verilsin. Biz də Rusiyanın hüquqlu təbəəsi cərgəsinə keçəlim. Ögey övlad yerində tutulmulayım. Hökumətin ümumi qanunlarından din və millət edilsin(”*Açıq söz*” *qəzeti, 1915, № 31*).

Yuxarıda göründüyü kimi, hörmətli şair fikirlərini bir qədər cilovlayır: milli istiqlaldan deyil, milli istiqlala gedən yolun ilk pilləsindən söhbət açır, insanlıq hüququndan, “Rusiyanın hüquqlu təbəəsi cərgəsinə” keçməkdən danışırdı. Qanunların ədalətsizliyinə qarşı etiraz edir, dünya azadlığı və vicdan azadlığı ideyasını irəli sürürdü.

Ömər Faiq Nemanzadə həmin məqaləsində daha sonra yazırdı: “Yürəgimizdə kini neçün gizlədəlim, hüquqsuzluğumuz yüzündən idareyi-ruhaniyyələrimiz, milli məktəblərimiz, dilimiz, milli , vəqflərimiz ağlanacaq bir halətdə olarsa, bu idarələrin, bu amillərin fikir və tərbiyəsi altında yaşayan cəmaət əcəba nə halda olar?” Şair mütləqiyyətin milli zülmünü yumşaq ifadələrlə oxucuya çatdırır və xalqın tərəqqipərvər nümayəndələrini bu zülmü əks etdirməyə çağırır. Əlbəttə, o bununla çarizmin əleyhinə çıxmır, sadəcə olaraq xalqın dərdinin mətbuat vasitəsilə hökumət dairələrinin nəzərinə çatdırılmasını istəyir. Guya Azərbaycan xalqı ona görə zülm içində yaşayır ki, hökumət dairələri bundan xəbərsizdirlər. “Ehtiyaclarımız, əlbəttə, hökumətin qərarı ilə əmələ gələcəkdir. O halda istədiklərimizi, ehtiyaclarımızı neçün açıqca bildirmələyim?” (“*Açıq söz*” *qəzeti, 1915, № 32*).

Bununla belə həmin məqalədəcə hökumətin xalqın dərdinə şərik çıxacağına bir qədər şübhə ilə yanaşır, lakin buna baxmayaraq fikrindən əl çəkmir, heç olmasa xalqın gözünü açacaqlarından, camaatın fikrini öz dərdinə çarə axtarmağa tərəf çevirə biləcəklərindən bəhs edir. “Bizim dərdimizi bilmək

istəməsələr belə, biz gərək fürsət axtarıb vəqt-vəqt bildirəlim, qulaqları dolduralım. Bir vəqt olar, əlbəttə, zamanın, halın icabı ilə bu dərdlər qəbul olunar. Zəmanəmiz özgə zəmanədir. Bizə ancaq çalışmaq, ən əvvəl öz cəmaətimizi tutacağımız işdən xəbərdar etmək, onu alışdırmaq lazımdır.

Cəmaətimizin fikrini hər şeydən əvvəl öz dərdinə tərəf çevirəlim."

Ömər Faiq yuxarıdakı sətirləri yazarkən və "zəmanə özgə zəmanədir", "bir vəqt olar, əlbəttə, zamanın, halın icabı ilə bu dərdlər qəbul olunar" deməklə yəqin ki, ölkədə genişlənməkdə olan inqilabi prosesi nəzərdə tutur və cəmiyyətin daim irəlilədiyini, qabağa getdiyini söyləyir, ictimai inkişafa dərin inam bəsləyir. Əlbəttə, bu hələ o demək deyildir ki, o, marksizm nəzəriyyəsinin əqidəli ardıcıllarından biri idi. Xeyr, sadəcə olaraq həmin məqalədə yeritdiyi fikirlə marksizm nəzəriyyəsi bir nöqtədə qovuşur. Onun dünya görüşündəki müəyyən hallar bu təlimin bəzi müddəaları ilə üst-üstə düşür. Biz burada ilk növbədə, əlbəttə ictimai inkişafla əlaqədar məsələni nəzərdə tuturuq.

Yuxarıda deyildiyi kimi, çarizm xalqlara nəinki azadlıq vermək fikrində deyildi, hətta azadlıq sözünün özündən də oddan qorxan kimi qorxurdu, onun azadlıq mübarizlərini xüsusi amansızlıqla təqib etməsi də buradan irəli gəlirdi.Əlbəttə, dövlət cəmiyyətə bəzi güzəştlər etmişdi, mətbuat yaxın keçmişlə müqayisədə nisbətən "azad" idi, ziyalılar, mütərəqqi baxışlı şəxslər fikirlərini mətbuat səhifələrində nisbətən sərbəst şərh edə bilirdilər. Lakin müəyyən həddi gözləməyən məqalələri senzura o dəqiqə qadağan edirdi. O cür məqalələr, xüsusilə imperiyanın mənafeyinə azacıq da olsa, xələl gətirə biləcək məqalələr heç vaxt işıq üzü görmürdü.

Dövlət ilk növbədə milli azadlıq ideyalarının təbliğinə və yayılmasına hər vasitə ilə mane olurdu. Bir qədər özünü sərbəst aparan şəxslər, fikirlərini cilovlamayan, milliliyə qapılan ziyalılar dərhal cəzalandırılırdılar. Bayaq deyildiyi kimi, mətbuatda müəyyən hədd icbari qaydada gözlənirdi, o həddi aşan şəxs hakimiyyət orqanlarının dəyənəyini dərhal kürəyində hiss edirdi.

1914-1915-ci illərdə olduqca məhsuldar işləmiş Məhəmməd Əmin Rəsulzadə əsasən milli səciyyəli kəskin ruhlu məqalələr yazmışdır. Xalqın milli şüurunu oyatmağa səy göstərmiş, milli dirçəlişə can atmışdı. Onun bu illərdə "Açıq söz" qəzetində çıxmış "Bugünkü günlər", "Müsəlman ünas cəmiyyəti-xeyriyyəsi", "Tutduğumuz yol", "Qurtuluş" və "Dirilik" məcmuəsində nəşr olunmuş "Milli dirilik" adlı silsilə məqalələrini göstərmək olar. O, Qars və Ərdəhan qaçqınlarına maddi yardım etmək üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak etmiş, bu məqsədlə 1915-ci il mayın 7-ə təyin olunmuş "Qardaş günü" adlı xeyriyyə tədbirində əhalini fəal iştirak etməyə çağırmışdır: "Sabah (pənçşənbə günü) cəmiyyəti-xeyriyyə tərəfindən oğlanlı-qızlı cavanlar əllərində ianə cübələri, sinələrində "Qardaş kömegi" həmayalı olduğu halda, Bakının küçələrinə yayılacaq, Qars və Ərdəhan səmtlərində fəlakətə uğrayan müsəlman qaçqınlar üçün kömək istəyəcəklərdir" (*Yeni iqbal" qəzeti, 1915, № 8*).

Bütün bunlar çar hakimiyyəti orqanlarının nəzərindən qaçmamış və o, tezliklə həbs edilmişdi. Bu munasibətlə “Bəsirət” qəzetində aşağıdakı məlumata rast gəlirik: “Təqribən bir ay yarım bundan əvvəl tovqif edilmiş olan “Yeni iqbal” qəzetinin sər mühərriri Məhəmməd Əmin Rəsulzadə cənabları tovqif edilmişdi. Neçə gün əqdəm mumiəleyh həbsdən azad edilmişdir. Hələlik mühərrir əfəndi bağda vəqt keçirir. Təkrar Bakı mətbuatında işləyüb işləməyəcəgi məlum degildir” (“*Bəsirət*” *qəzeti, 1915, № 53*).

M. Ə. Rəsulzadə təqiblərdən qorxmayıb müharibədən zərər çəkmiş müsəlmanlar faidəsinə çıxarılan “Qardaş köməgi” adlı məcmuənin nəşrində də başlıca rol oynamışdır. “Yeni iqbal” qəzetində verilən elan bu mənada böyük maraq doğurur. “Hərbzədə müsəlmanlar faidəsinə çıxarılacaq “Qardaş köməgi” məcmuəsinə göndəriləcək məqalələr yanvar ayının 25-ə qədər göndərilməli idi. Bu günə qədər əksər iştirakları gözlənilən mühərrirlərdən məqalələr alınmamışdır... Məqalələr, əvvəlcə elan olunduğu kimi, “Açıq söz” idarəsində qomision rəisi cənab Məhəmməd Əmin Rəsulzadə ünvanına göndərilməlidir” (“*Yeni iqbal*” *qəzeti, 1917, № 524*).

Göründüyü kimi, müharibə və iqtisadi həyatın pisləşməsi mütləqiyyətin başını qatsa da, o, milli ruhlu ziyalıların fəaliyyətini nəzarət altında saxlamağa vaxt tapırdı.

1914-1917-ci illərdə M. Ə. Rəsulzadənin çoxsaylı məqalələri içində “Dirilik” məcmuəsində çıxan “Milli dirilik” adlı silsilə məqalələri qoyulmuş məsələlərin ictimai əhəmiyyəti baxımnıdan daha çox diqqətimizi cəlb etmişdir. Məqalələrdə milli dirçəlişin yolları ətraflı şəkildə araşdırılmış, mövcud siyasi quruluşun verdiyi imkanlar çərçivəsində və bəlkə bundan da bir qədər geniş səviyyədə şərh olunmuşdur.

Məsələn, məqalədə deyilir: “Milli istiqlal-ələxüsus millətlərə xüsusiyyətlərinin mühafizəsini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsli bir taqım ibdalar, ixtiralar nəvidindədir ki, mədəniyyəti-bəşəriyyə dediyimiz şey də bu ibdaət və ixtiraların məcmuyundan ibarəli bir yekundur (“*Dirilik*” *məcmuəsi, 1914, № 2*).

Milli azadlıq ideyası burada dünya mədəniyyəti baxımından əsaslandırılır. Yəni dünya mədəniyyətinin zənginliyi üçün ayrı-ayrı millətlər siyasi cəhətdən azad olmalıdır, əks halda inkişaf, tərəqqi mümkün deyil. Bir millət digər millətə təzyiq etməməlidir. Bir millət digər milləti əsarətdə saxlamamalıdır, çünki milli istiqlalın sayəsində bəşəriyyətdə yeni-yeni ixtiralar, yeni-yeni kəşflər edilir, qiymətli əsərlər yazılır. Bir sözlə, dünya milli istiqlaldan yalnız qazanır. Həmin məqalədə daha sonra oxuyuruq: “Heç şübhə yoxdur ki, dünyanın milliyyətlərə bölünərək qərar tutması mədəniyyəti-bəşəriyyə nöqteyi-nəzərindən bir zaiddir. Millətlərdəki bənliklik ədəmi-istiqlalı və onlardakı zatı xasiyyətlərin başqalarının xasiyyətləri içində münhəll olması bu zaidləri heç şübhə yox ki, mübəddəl bir naqis edir”.

Dünyanın millətlərə bölünməsi təbiidir, həm millət müstəqil surətdə

inkişaf edərək bəşər mədəniyyətinə öz payını, öz töhfəsini verir. Millətlərin əsarətdə saxlanması, milli mənliklərin məhvi, hər şeydən əvvəl, bəşəriyyətə ziyandır. Milli azadlıq təkcə o millətin özünə deyil, həm də bütün dünyaya, dünya mədəniyyətinə faydalıdır. M. Ə. Rəsulzadə sosial tərəqqini maddi və mənəvi olmaqla iki yerə bölür. Çox güman ki, mənəvi tərəqqi deyəndə, o hər şeydən öncə milli özünüdərki və milli özünüdərkin zirvəsi sayılan milli istiqlalı nəzərdə tutmuşdur. Odur ki, əvvəlcə mənəviyyat zəngin olmalıdır, yəni milli şüur yetkinləşib püstələşməlidir. Burada mənəvi tərəqqi birincilik təşkil edir. Mənəviyyat dolğun olandan sonra maddi tərəqqi qat-qat asandır. "Əcələ bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edərəm, çünki milliyyətin də, bəşəriyyətin də faidəsi bundadır" ("*Dirilik*" *məcmuəsi, 1914, № 3*).

M. Ə. Rəsulzadəyə görə maddətən inkişaf edib mənəviyyatca kasıblaşmaq milləti məhv edir, onun gələcək taleyini ciddi təhlükə qarşısında qoyur. Çünki müəyyən müddətdən sonra millət simasızlaşıb tarix səhnəsində yerini itirə bilər, bir xalq kimi daha mövcud olmaz. Lakin millət nə cür irəli gedə bilər? Nə cür etmək olar ki, fikirlər, xəyallar həyata keçsin? M. Ə. Rəsulzadə bu suala sadə cavab verir: "Millətlərin həyatı da ancaq bu milli vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsirləridir ki, milli ideal hasil olur. Milli idealın (imanın) hüsulilədir ki, millətlər özlərinə şanlı və şərəfli bir dirilik təmin edə bilirlər" ("*Dirilik*" *məcmuəsi, 1914, № 3*).

Göründüyü kimi görkəmli Azərbaycan mütəfəkkiri milli tərəqqini öz plana çəkir, sosial tərəqqini isə milli tərəqqinin son nəticəsi sayır. Bəs milli idealı kimlər yaradır? M. Ə Rəsulzadə belə hesab edir ki, milli idealı yaradanlar böyük əməlpərvərlərdir. "Fəqət bir fərd öz mühitinin faidəsini düşünərək şəxsi üçün deyil, novi və yaxud milləti üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar. Bu kibi adamlarda da böyük əməlpərvərlər, yaxud məfkurəçi ismi verilir" ("*Dirilik*" *məcmuəsi, 1914, № 4*).

Lakin M. Ə. Rəsulzadəyə görə əməlpərvərlər sadəcə olaraq, icraçıdırlar, başlıcası isə fəaliyyətdir, əməldir. "Əməl fəaliyyəti, fəaliyyət də tərəqqini mücib olur. Şəxslər əməlsiz yaşaya bilmədikləri kibi millətlər də əməlsiz yaşaya bilməzlər. İştə millətin ümumində mövcud olan hakim bir əməl və arzu yolunda bəslənən gizli hisslər milli vicdan ilə imanı tövlid edirlər" (*yenə orada*).

Bəs milli tərəqqi idealı öz inkişafında hansı mərhələlərdən keçir? Onun səbəb və nəticəsi hansılardır? Bu suallara cavab verilərkən göstərilir ki, milli tərəqqi yolunda öncə gizli hisslər bəslənir və bu da milli vicdanı yaradır. Milli vicdandan isə hər millətin ali qayəsi, ali məqsədi olan milli iman törəyir. Milli vicdan səbəb, milli iman isə nəticədir. Vasitələr də əməl və fəaliyyətdir. Əməl birincidir, fəaliyyət ikinci. Əməl fəaliyyəti, fəaliyyət də tərəqqini yaradır. Bu prosesdə, şübhəsiz ki, icraçılar da vardır. Onlar böyük əməlpərvərlərdir. Böyük əməlpərvərlər tərəqqinin icraçıları, onu həyata keçirənlərdir. O, böyük

əməlpərvərlərə misal olaraq Böyük Pyotr, Lomonosov, Jan Jak Russo, Napoleon və Bismarkın adlarını çəkir.

M. Ə. Rəsulzadənin fikrincə, tarixin inkişaf xəttini ayrı-ayrı şəxsiyyətlər müəyyən edir, guya xalq kütlələri ictimai inkişafda ancaq ikinci dərəcəli rol oynayır. O, böyük əməlpərvərlər cərgəsinə tamamilə bir-birinə zidd insanları mənsub edir. Onların arasında müdrik filosof, cəmiyyətdə gedən proseslərdən baş çıxaran istedadlı alim və mütəfəkkir, qonşu xalqların torpağına göz dikən, tökülən qanların hesabına hakimiyyəti əlində saxlayan müstəbid və qəsbkar da vardı. Göründüyü kimi, M. Ə. Rəsulzadənin ictimai baxışında müəyyən ziddiyyətlər də olmuşdur. Sonralar, zamanın təsiri ilə bu ziddiyyətlər cilalanmışdır.

M. Ə. Rəsulzadənin milli inkişaf konsepsiyası subyektiv idealizmlə səsləşir. Bu da təbiidir. Çünki Rəsulzadənin milləti o zaman çarizmin əsarəti altında yaşayırdı. Hər yanda cəhalət və ədalət hökm sürürdü. Savadsızlıq baş alıb gedirdi. Belə bir ağır şəraitdə Azərbaycanın yeganə ümid yeri milli ziyalılar idi. Bu cür millətpərvər ziyalılardan biri olan M. Ə. Rəsulzadə qəti olaraq inqilabın əleyhinə çıxırdı.

Azərbaycanın istiqlalını mərhələ-mərhələ qazanmaq arzusunda idi. Ona görə də məsələni heç vaxt kəskin qoymurdu, manevrlər edirdi. Başqa sözlə desək, milli və sosial azadlığı demokratik vasitələrlə əldə etməyin tərəfdarı idi. Öncə milli mədəni azadlıq, vicdan azadlığı, mətbuat azadlığı, təşkilat azadlığı, söz azadlığı və s. bu kimi demokratik azadlıqlar uğrunda mübarizə aparırdı. Lakin buna baxmayaraq mövcud quruluşa münasibətdə mötədil mövqe tuturdu. Hakimiyyət orqanlarına qarşı təmkinini pozmurdu. Onun 1915-ci ildən sonra yazdığı məqalələrdə bu cür hallara daha çox təsadüf edilir. Səbəbini isə yalnız 1915-ci ildə həbs olunması ilə izah etmək mümkündür. Həbs olunanacan yazdığı məqalələrdə, ələlxüsus “Milli dirilik” adlı silsilə məqalələrində milli zülm əleyhinə öz haqq səsini ucaldan, dini ayrı-seçkilikdən, hüquqsuzluqdan və ictimai ədalətsizlikdən şikayətlənən M. Ə. Rəsulzadə həbsdən sonra öz fikirlərini daha ehtiyatla deməyə məcbur olmuşdu.

Yuxarıda qeyd edildiyi kimi, M. Ə. Rəsulzadə milli tərəqqini ayrı-ayrı əməlpərvər şəxslərin ayağına yazırdı. “Öz şəxsi məqsədi xaricində mühitin ehtiyacı ilə məşğul olan, onun səadəti naminə əməl bəsləyən və o əməllərə öz şəxsi əməlləri kibi xidmət edənlər həman böyük əməlpərvərlərdəndirlər. Bir millət arasında bu kibilər məhdud və məfqud olarsa, o millət müstəqil və sağlam bir vücud üzü görməz və başqalarının zirdəsti olub ayaqlar altında, əzilər, gedər” (“*Dirilik*” *məcmuəsi, 1914, № 4*).

O, “Məqsədimiz” adlı məqaləsində də tarixi subyektiv idealizm mövqeyindən izah etməyə çalışır. Dirilik burada tərəqqi kimi çıxış edir. Tək-tək şəxslər qarşılarına məqsəd qoyurlar, dövrün eytiyacını duyub fəaliyyətə keçirlər. Milləti diriliyə doğru çəkib aparırlar. Dirilik ali məqsəd, son nəticədir. Rəsulzadə ictimai inkişafın mövcudluğunu qəbul edir və tarixin ibtidadan aliyə doğru

getdiyini söyləyir. Onun fikrincə, tərəqqinin səbəbi şəxsi istəkdən və şəxsi arzudan ibarətdir, son nəticəsi isə dirilikdir. O yazır: "Bu gün tarixi-aləmə baxılsa, ibtidadan intəhaya qədər sərasər ərbabi-məqsəd ilə dolu olduğu görülər. Zira bu qədər nəbilər, vəlilər, vəsilər, kütubi-səmavilər, əzim abidələr, mühüm əsərlər, möhtəşəm məbədlər, mütəntən saraylar, alim ehramlar, qiymətli kitabların hamısı bir məqsədin məhsuludur.

Bu məqsədlər, bu məsləklər, bu niyyətlər, bu arzular təşrih edilərsə, bunların hamısının içindən fəqət bir "dirilik" çıxar ("*Dirilik*" *məcmuəsi, 1914, №1.*).

Deməк, yer üzünü "dirilik" idarə edir və Azərbaycan xalqı da dirilik uğrunda mübarizə etməli və dünya xalqları cərgəsində özünə layiqli yer tutmalıdır. Dirilik mücərrəd ideya deyil, ona çatmağın konkret yolları vardır və M. Ə . Rəsulzadə bu yolları oxucuya çatdırır. Onun fikrincə, dirilik elmlərə və müasir texnikaya yiyələnməkdir, "bədəncə", yəni iqtisadi cəhətcə güclü olmaqdır. Lakin bunlarla bərabər, ən ümdəsi, diriliyin mənasına vaqif olmaq, onu dərk etməkdir. Əks halda bütün cəhdlər boşa çıxar. "Millətlər, qüvvətli və tərəqqi olmadıqca və diriliyin mənai-həqiqi və maddisilə anlamadıqca, təbiətdən alınan qənimətlərdən hadisələrinə ancaq bir qüvvətilayömüt düşər ("*Dirilik*" *məcmuəsi, 1914, № 1*).

Demək, diriliyin həqiqi mənasını dərk etmək olduqca vacibdir. Yoxsa dirilik naminə çəkilmiş əziyyət, zəhmət hədər gedə bilər. Diriliklərin ən qiymətlisi isə milli dirilikdir. "Nəzərə bir az qəribə gəlsə də, demək istəyirəm ki, dirilik dünyanı sevməkdən ibarətdir, mənaixassi ilə dünyapərəstlikdir. Diriliklərin ən qiymətlisi də milli dirilikdir" (*yenə orada*).

Rəsulzadə quran, yaradan dirilikdən danışır, bütün millətləri sevməyi lazım bilir. Dirilik hər şeydən əvvəl bəşəriyyətə fayda verməkdir, ictimai inkişafa təkan vermək, dünya mədəniyyətini zənginləşdirməkdir. Bütün bu nailiyyətlərin, diriliklərin əsasını isə yenə də milli dirilik təşkil edir. Biz milli dirilikdən, milli tərəqqidən danışarkən ilkin şərt kimi milli azadlığı nəzərdən qaçırmamalıyıq. Bir qədər əvvəl Rəsulzadənin milli azadlıq barədəki fikirlərini qeyd etmişik. Əlbəttə, o, milli azadlığın subyekti kimi Azərbaycan xalqını götürə bilməzdi və həmin ideyanı konkret olaraq Azərbaycan xalqına aid edə bilməzdi, çünki çar məmurları rus imperiyasının keşiyində çox sayıq dayanmışdılar və milli azadlığa çağıran hər hansı cümləni, hər hansı məqaləni o dəqiqə qadağan edirdilər. Hətta lazım gələndə, müəllifi də cəzalandırırdılar.

Azərbaycanda ictimai-siyasi vəziyyət dözülməz idi. Bir yandan müharibə gedirdi və bu müharibəyə Türkiyə də qoşulmuşdu. Türkiyə Rusiya imperiyasına qarşı vuruşurdu. Təbiidir ki, imperiya bu səbəbdən daxili türk xalqlarına etibar etmirdi. Digər tərəfdən isə, azərbaycanlılar islam dininə etiqad etdiklərinə görə üstəlik dini ayrı – seçkiliyə məruz qalırdılar. Şübhəsiz ki, bu qədər səddləri aşmaq, rus dövlətinin sədaqətini qazanmaq çətin idi. Ona görə də çar məmurları daim yerli mətbuatda Rusiyaya qarşı yönəlmiş bir fikir axtarırdılar, nə isə bir qəsdin üstünü

açmağa tələsirdilər. Halbuki bütün Rusiya müsəlmanları kimi, azərbaycanlı müsəlmanlar da Rusiyaya hədsiz sədaqət göstərirdilər. M.Ə.Rəsulzadə 1916-cı ildə “Açıq söz” qəzetində (№ 75) çap etdirdiyi “Miladdan 1916” adlı məqaləsində yazırdı: “Rusiya müsəlmanları bütün rusiyalılarla bərabər müharibədən mütəəssir olduqları kimi, şübhəsiz ki, müharibə üzərinə bütün Rusiya xalqında hasil olan həyəcanlı hissiyyatla da tamamilə iştirak edərlər. Rus cəmaəti ilə fəlakətlərdə iştirak edən bu xalq onun vətənu – istiqbal vətən haqqındakı qəlbi iztirablarına da biganə qalmaz”.

O, Rusiyaya sülh arzulayanda eləsini arzulayır ki, “sabah inkişafı Rusiyanın mənafe aliyyəsinə olsun, elə bir dinclik ki, Rusiyadakı millətləri qardaşca yaşada bilsin”.

Göründüyü kimi, M.Ə.Rəsulzadə Rusiyanın ali mənafeyinə hörmətlə yanaşır və ona elə sülh arzulayırdı ki, ondan rus dövləti ziyan çəkməsin. O, istəyirdi ki, hər yanda dinclik, əmin – amanlıq və qardaşlıq hökm sürsün.

Bir M.Ə.Rəsulzadə islam millətlərinin Qərb dövlətlərinə nəzərən geridə qalmasının bir səbəbi kimi dinin də adını çəkir. Guya islam millətləri dinin “sağlam əmrlərindən” uzaqlaşdığına görə bu vəziyyətinə düşüblər. “Sağlam əmr” dedikdə, o yəqin dində qeyri –sağlam əmrlərin olduğunu da nəzərdə tuturmuş. O, dinə hər şeydən öncə şüurlu münasibət bəsləyir, dini ehkam təki qəbul etmir. M.Ə.Rəsulzadə yazır: “Biz, yəni islam aləmi və islam millətləri dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq dünya diriliyinə qəribə bir nəzərlə baxmağa başladığımız zamandan bəri başqalarının rizəxari və onlardakı tərəqqi və umranın əsir və dəstəgiri olduq” *(“Dirilik” məcmuəsi, 1914).*

M.Ə.Rəsulzadə istiqlala gedən yolun müasirləşməkdən keçdiyini söyləyir. Onun nəzərində müasirləşmək yeniləşməkdir, əsrin maddi və mənəvi mədəniyyəti ilə silahlanmaqdır. Müasirləşmək müasir elmə, müasir biliyə can atmaqdır, qabaqcıl texnologiyaya yiyələnməkdir. Başqa sözlə desək, millət öz milli varlığını saxlamaqdan ötəri zəmanə ilə ayaqlaşmalıdır. O, “Getdiyimiz yol” məqaləsində yazır: “Müasirləşmək iştə bütün millətləri sənah və nicat yoluna çıxaran böyük vasitə! Müasirləşməyən, yəni zaman və əsrindəki maddi və mənəvi vəsaiti – mədəniyyə ilə silahlanmayan bir cameyyat – gərək qan, irq və dincə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanınmış beynəlmilliyyət olsun – mümkün deyil, müdhiş və qanlı bir rəzmgah təşkil edən bu dünyada həyatından, bu həyatın ən böyük feyz və nemətini təşkil edən istiqlaldan, mədəni iqtidar və hürriyyətdən məhrum qalar...” (“Açıq söz” qəzeti, 1916, № 299).

Yuxarıda müəllifin həm “həyatın ən böyük feyz və nemətini təşkil edən” istiqlaldan, yəni milli azadlıqdan, həm də “Mədəni hürriyyətdən”, yəni milli mədəni muxtariyyətdən bəhs etdiyi aydınlaşır. Onun nəzərində istiqlal “həyatın ən böyük feyz və nemətidir”, başlıca şərtdir, məqsədlər məqsədir. Milli mədəni hürriyyət isə milləti istiqlala yaxınlaşdıran bir vasitədir. Millətlərin istiqlalı demokratiyanı tələb edir. Demokratiya millətlərə mədəniyyətini inkişaf etdirmək

üçün əlverişli şərait yaradır. “Demokratizm bütün millətləri kəndi ruh və mənəviyyatı dairəsində qalmaq şərtilə müasir mədəniyyət sərgisinin təmam hüquqlu bir şəriki olmaq sifətilə görmək istər...” (yenə orada).

M.Ə.Rəsulzadə müasirləşməyi son məqsəd saymır, son məqsəd, onun fikrincə, milli istiqlaldır. Müasirləşmək isə millətə öz milli mənliyini mühafizə etmək üçün lazımdır. İmperializm, yəni hakim millətin oliqarxiyası əsarətdə saxladığı millətin mənliyini, milli varlığını məhv etməyə çalışır ki, onun var – yoxunu asanlıqla talan etsin. Geridə qalan millət, öz gələcəyini düşünməyən millət, təbii ki, digər millətlərə yem olacaqdır. Məhəmməd Əmin imperializmdən ümumi danışarkən konkret olaraq çar Rusiyasının yeritdiyi müstəmləkəçilik siyasətini nəzərdə tuturdu. O yazır: “Demək ki, imperializm əjdahası ağzından xilas olmaq və ya sühülətlə həzm olunmamaq niyyətilə müasirləşmək, mənəvi əsliyyətləri mədəniyyəti – bəşəriyyə nöqteyi – nəzərindən böyük bir zaid (pulyus) təşkil edən, millətlər üçün tamamiyyəti – milliyyə və istiqlali – mədəniyyətlərini hər növ özici təsirlərdən mühafizə eləmək məqsədi – aliyyəsi qədər zəruri bir vasitədir” (“Açıq söz” qəzeti, 1916, № 299).

Rəsulzadə, bayaq deyildiyi kimi, müasirləşməyə bir məqsəd təki yox, vasitə kimi baxır. Müasirləşməni milli azadlığa aparan zəruri yol sayır. O, bəşər mədəniyyəti nöqteyi – nəzərindən millətlərin azadlığına, milli mədəniyyətin sərbəst, maneəsiz inkişafına böyük əhəmiyyət verir. Məgər bu demokratik məsləkli şəxsin səmimi arzuları deyilmi?

Məhəmməd Əmin ilk növbədə çar Rusiyasının milli şovinist siyasətinə qarşı çıxırdı. Əlbəttə, bu zaman o, fikrini birbaşa ifadə etmirdi, dolayı yollar arayıb axtarırdı. Bayaq dedik ki, yuxarıda gətirdiyimiz iqtibasda “imperializm” deyəndə, o, məhz Rusiyanı nəzərdə tuturdu. Təbii olaraq, bu zaman nə üçün sualı meydana çıxır, hər şeydən əvvəl ona görə ki, Rəsulzadənin mənsub olduğu xalq çar Rusiyasının yeritdiyi siyasətin əziyyətini çəkirdi.

M.Ə.Rəsulzadə xalqını sayıq olmağa səsləyir. Milli dili və mədəniyyəti göz bəbəyi tək qorumağı məsləhət görür. Bir xalqın qəsdinə duran siyasilərin əvvəlcə milli dili məhv etmək istədiklərini bildirir. Bu barədə sonrakı fəsildə daha geniş söhbət açılacaqdır.

Ruslaşmış şəxslərin, öz milli dilini və mədəniyyətini bilməyən adamların yalnız öz cəmiyyəti üçün deyil, bütün dünya üçün heç bir fayda vermədiyini söyləyir. M.Ə.Rəsulzadə yazır: “Təsəvvür ediniz dediyim uşağın halını: dil açıb anası ilə rusca danışmış. Anası mağazadan gələndə yenə onu rusca dindirmiş, həyətdə yoldaşlarını rus görmüş, onlarla o dildə söhbət eləmiş, oyun oynayarkən rus oyunları oynamış. Məktəbdə dəxi eyni tərbiyəyə tabe olmuş. Bayramlarda yolka bəzəyib ətrafında dönüb dolaşmış. Ən axırı məlumdur ki, daxili Rusiya şəhərlərindən birində ali tərbiyə alıb “абразованны” olacaq. Fəqət böylə bir “абразованны”dan bizim “не абразованны” millət nə gözləyə bilər və o özü istərsə, “millətinə” nə gibi bir faidə yetirə bilər? Heç!” (“Dirilik” məcmuəsi,

1915,№ 8.).

Burada millətindən aralı düşmüş insanın faciəsi təsvir olunur. Şübhə yoxdur ki, təmsil olunmuş şəxs mühitinə fayda vermədiyi kimi, millətinə də fayda verməz. Rəsulzadənin fikrincə, millətə xidmət etmək ən müqəddəs vəzifədir. Hər bir insan millətinin tərəqqisi uğrunda mübarizə aparmalıdır. Yadlaşmış adamların faciəsi şəxsi faciə deyil, ümummilli, bəlkə də dünyəvi faciədir. Ona görə ki, həmin şəxs gələcəkdə böyük bir şəxsiyyət ola bilərdi. Millətinə hədsiz xidmətlərilə nəzərə çarpardı. Ruslaşmış millət övladları həm öz millətindən qalır, həm də rus millətinə gərəksiz olurlar. Çünki rus xalqı özü öz milli xadimlərini yetişdirir. Rəsulzadənin bu baxımdan təməssul və istiqlal anlayışlarına münasibəti böyük maraq doğurur. O, təməssulu ölümlə eyniləşdirir. Ayrı – ayrı şəxslərin təməssulunu millətin tənəzzülü kimi qiymətləndirir. Ümumiyyətlə təməssulu cinayət sayır. Məhəmməd Əminin fikrini aydın başa düşmək üçün aşağıdakı hissəni bütünlüklə vermək məcburiyyətindəyik. “Millətlərin ümumi şəxsiyyətlərindən keçəndən sonra bu məsələ ilə əlaqədar olan ayrı – ayrı fərdləri də nəzərə alsaq, yenə təməssul (assimilyatsa) ilə istiqlalın mədəni və ibdai fərqini görəcəyiz. Zənn edirəm ki, bir istisistik tutulsa, görüləcək ki, daima müqtədir sənətkarlar mənsub olduğu milliyyətlə maddi və mənəvi rabitə və əlaqələrini daha ziyadə saxlamış olanlar arasından çıxır. Məsələn, yaxşı bir rus mühərriri olub da öz həyatını kəmalınca təsvir etmək, bir rus qəlbinin, rus vicdani – ümumiyyəsinin tərcumanı ola bilmək üçün ruslar gibi düşünmək, onlar gibi hiss edə bilmək lazımdır, bunun üçün də rus olmaq, rus yaşamaq və rusları olduqca bilmək gərəkdir. Halbuki ruslaşmış bir müsəlman balası, yaxud təmsil olunmuş bir erməni dığası, yaxud döndərilmiş bir yəhudi övladı nə qədər özlüyündən uzaqlaşmış da olsa, yenə böylə rus ola bilməz. Ola bilməyincə də, yaxşı və mufid bir rus muhərriri çıxmaz. Biaən əleyh ondakı ibda qüvvələri əqim qalar, bundan isə yaşadığı mühit zərər çəkər. O muhitdə bu gibilər çox isə, əqamət bir nəfərə deyil, bir milliyyət və bir qəvmiyyətə sirayət edər. Demək, bəşəriyyət ailəsinə daxil olan bir fərdin zati - əhəmiyyət və qiyməti əksilər, baniən əleyh bəşəriyyət bir çox zəkalardan məhrum qalar” (“Dirilik” məcmuəsi, 1914, № 2.).

M.Ə.Rəsulzadə təməssül ilə istiqlalın fərqini oxucuyz o zamnaki siyasi quruluşun imkan verdiyi səviyyədə başa salır. Əlbəttə, istiqlala mədəni don geyindərməklə, senzorun diqqətini yayındırmaq istəmişdir. Məqalənin yuxarıdakı üzünü, lakin lazımlı hissəsini axıracan oxuduqda, istiqlalın ictimai – siyasi mənası açılır. M.Ə.Rəsulzadə millətini azad və müstəqil görmək istəmişdir. Lakin bu məqsədi hələlik yerinə yetirmək mümkün olmadığına görə milli mədəni muxtariyyətlə kifayətlənirdi.

Biz Məhəmməd Əmin Rəsulzadənin həmin dövrdə dərc olunmuş məqalələrinə tam bir vəhdət kimi baxmalıyıq. Unutmamalıyıq ki, “Müsavat” partiyası o zamankı şəraitdə fəaliyyət göstərirdi. Rəsulzadə isə artıq partiyanın rəhbərlərindən biri olmuşdu. Həm də “Müsavat”ın başlıca nəzəriyyəçisinə

çevrilmişdi. Odur ki, onun məqalələrinə məhz bu bucaq altında nəzər yetirməliyik. Məhəmməd Əminin fikrincə, milli azadlıq sosial azadlığın müqəddəm şərtidir. Milli azadlıq olmayan yerdə sosial azadlıqdan danışmaq cəfəngiyyatdır. O, hətta Rusiya – Yaponiya müharibəsi zamanı Rusiyanın məğlubiyyətini demokratiyanın olmaması ilə əlaqələndirirdi. Sosial azadlığı da sosial tərəqqinin təməl daşı hesab edirdi. "Bu günkü günlər" məqaləsində onun azadlıq problemini şərh etməsi bu dediklərimizi bir daha təsdiq edir. Müəllif burada mütləqiyyətin irticaçı mahiyyətini açıb göstərir, onun xalqa yabançı siyasət yeritdiyini sübuta yetirirdi. Yeri gələndə, çarizmin xalqa azadlıq vədinin ölkədə nə qədər böyük əks – səda yaratdığını da bildirirdi. Söhbət əlbəttə, 1905-ci ildə verilmiş 17 oktyabr tarixli fərmandan gedir. "Əvət 17 oktyabr fərmani – aliyyəsinin xəbəri bugünkü gün Bakıya çatmışdır. Bu günü xatırlayanlar söz, ictimai, ittifaq, mətbuat və şəxs azadlığını təmin edən fərmanın xalq arasında hüsulə gətirdiyi şadlığın dərəcə və göstərişlərini əlbəttə unutmamışlar" ("Açıq söz" qəzeti, 1915, № 13.).

Onu deyək ki, məqalə 1915-ci ildə verilən və xalqa azadlıq vəd edən ali fərmanın on illiyi münasibəti ilə yazılmışdır. Deyildiyi kimi, M.Ə.Rəsulzadə məqalədə əsasən azadlıq probleminə toxunur və azadlığı tərəqqinin başlıca şərtlərindən biri adlandırırdı. O, "rus xəlqi fərmani – ali mucibincə kəndisinə verilən hürriyyətlər sayəsində məmləkətin idarəsinə qarışacaq" kəlməsi ilə zəmanəsini qabaqlamış və irticanın tuğyan etdiyi dövrdə demokratik quruluşu təbliğ etməkdən çəkinməmişdir. M.Ə.Rəsulzadə yazırdı: "Bugünkü gün bütün Rusiya sevinirdi. Bütün deмək olmasa da, cəsarətlə Rusiyanın böyük bir qismi sevinirdi demək olar. Sevinirdi, çünki Rusiyanın əzəmətini, tərəqqi etməsini, mədəni olub da sair Avropa millətləri gibi ayaq tutub tərəqqi yoluna düşməsini hürriyyətlərin paydar olmasında görürdü. Bugünku gündə söylənilən nitqlər Mancuriya səhralarında məğlub olan qüvvətin rus olmayıb rus haqsızlığı olduğunu söyləyor və artıq məğlub olmamaq üçün xəlqin azad olmasına lüzum göstərirdi. Rus xəlqi fərmani – ali mucibilə kəndisinə verilən hürriyyətlər sayəsində məmləkətin idarəsinə qarışacaq, cəmaətin etimad və etibarına malik milli hökümət vücudu gətirəcək, arada mövcud olan bütün haqsızlıqlar qalxacaq. Rusiya bütün əskiklərini düzəldəcək həqiqi bir məşrutiyyət qazanacaqdır" ("Açıq söz" qəzeti, 1915 № 13).

Göründüyü kimi, məqalə açıq – aşkar demokratik ruhla yazılmışdır. Məqalədə sosial azadlıq problemi müxtəlif səmtlərdən araşdırılır. Müəllif sosial azadlıqla yanaşı şəxsiyyət azadlığı, söz azadlığı, təşkilat azadlığı, mətbuat azadlığı, vicdan azadlığı və sairəyə də toxunur. Burada Rusiya imperiyasında yaşayan qeyri – rus xalqların fərmana münasibəti ilə əlaqədar maraqlı fikirlər söylənilir. Heç şübhəsiz, Rusiyada yaşayan və ən adi sosial hüquqlardan məhrum edilmiş qeyri – rus xalqlar fərmandan daha çox şey gözləyirdilər. Fərmanda millətlərə azadlıq vəd edilirdi. Az saylı millətlərə isə azadlıq hava və su kimi lazım idi. Çünki milli və dini azadlıq millətlərə tərəqqi yolunu, səadət yolunu açırdı. "Rusiyada sakin olan

bütün millətlər, bütün siniflər sevinirdi. Hürriyyəti – vicdan elan olunduqdan, insanın hüququ qəbula keçdikdən sonra biltəb məzhəb və milliyyət yüzündən təzyiqata uğrayanlar olmayacaq və böyük Rusiyada yaşayan qeyri – rus xalqlar da milliyyətlərinin bəqa və tərəqqisi üçün su və hava gibi lazım olan təbii müsaidələri alacaqlar" (yenədə orada).

O, "bəqa və tərəqqisi üçün su və həva gibi lazım olan təbii musaidlər" dedikdə, şübhəsiz ki, ikl növbədə milli azadlığı nəzərdə tuturmuş. Milli azadlıq onun nəzərində millətlərin təbii hüququdur. Hər millət azad və şən yaşamalıdır. Əlbəttə, Məhəmməd Əmin Rəsulzadə çar fərmanı ilə əlaqədar sadəcə olaraq arzularını bildirmişdir. Lakin bir şey vardır ki, bu arzular onun bir mütəfəkkir kimi ictimai – siyasi və fəlsəfi baxışlarını ifadə edirdi.

M. Ə. Rəsulzadə yuxarıda adı çəkilən azadlıqların kağızda qaldığını söyləyərək çarizmin ikiüzlü siyasətini cəsarətlə qamçılamışdır. Lakin məqalədən göründüyü kimi, o, çarizmin yalançı vədlərini tənqid etsə də, ondan ümidini də hələ də tam üzməmişdi. Əlbəttə, mətbuatda camaatı açıq – açığına mövcud quruluşa qarşı silahlı üsyana çağıra bilməzdi. Heç M. Ə. Rəsulzadə özü də bunun istəmirdi. O, çoxlu haqsızlıq və mərhumiyyətlərdən cana doymuş doğma xalqını azadlığa çıxartmaqdan ötrü demokratik yollardan istifadə etməyi üstün tuturdu. Mütləqiyyətin əsl simasını ifşa edərkən yazırdı: "Fəqət bu sevinc günləri çox çəkmədi, keçdi. O gündən bu günə qədər tam on yıldır. Bu günə qədər fərmani – aliyyədə vəd olunan hürriyyətlər həman bir arzu halında qalmaqdadır. Mətbuat qanunu bu günə qədər meydana gəlməmiş. Hürriyyəti – şəxsiyyə hala idareyi – urfiyyələrə qurban olunmaqda. İctimai və ittifaq azadlıqları da onların kökündə" ("Açıq söz " qəzeti, 1915, № 13).

Rəsulzadə müstəmləkəçilik siyasətinin hakim millətə də böyük ziyan vurduğunu açıb xatırladırdı ki, millətin dini və mədəni təməssulu hər şeydən əvvəl müstəmləkəçi ölkə üçün olduqca ziyanlıdır. Hakim millət məzlum milləti "Həzm edə" bilmədiyindən" vücudu zəhərlənir. Başqa sözlə, hakim millətin özü istər – istəməz tərəqqidən geri qalır. Çünki təmsil etmək istədiyi məhkum millətlər tərəqqi yolunda ağır bir yük kimi ona mane olurlar. M. Ə. Rəsulzadə "Getdiyimiz yol" məqaləsində yazır: "Fəqət millətlərdəki "bənlik"lər cameyyətlərdəki xüsusiyyətlər, irq, din və dildəki təsirat nə qədər böyük və ölməz qüvvələrdir ki, onları nə qədər qüvvətli mədə olda da, həzm edəmmiyor. Mənəviyyatı təşəxxüs etmiş millətlərlə zində mədəniyyətlərin təmsili əksərən imperializm zəhərlənməklə nəticələnir " ("Açıq söz", 1916, № 299).

O, burada ictimai inkişafın qarşısıalınmaz proses olduğunu söyləyir. Millətlərin əvvəl – axır azadlığa çıxacağına dərin inam bəsləyir. Məhəmməd Əmin Rəsulzadə müsəlman millətlərin mənafeyi baxımından deyil, həm də hökümət və dövlətin mənafeyi baxımından da sərfəli olduğunu söyləyir. Onun fikrincə, əgər azadlıqda qalan məhkum millətlər azad inkişaf edib irəliləyirsə, bundan dövlət də qazanır. O, fikrini bu cür ifadə edir: "Qaranlıq və əvamlıqdan qaçan xəlqimizin

işıqlanıb də zəm nənin tərəqqisi ilə münasib bir yaşayışa layiq olması yalnız müsəlmanların deyil, hökümət və dövlətin də mənfəətləri iqtizasındadır” (“Açıq söz” 1915, № 6 ).

Vicdan azadlığı məsələsi M. Ə. Rəsulzadənin dünyagörüşündə xüsusi yer tutur. O, dinə idarə vasitəsi kimi yanaşan dövlətləri ciddi tənqid atəşinə tutur. Bir dini yüksəldib dövlət səviyyəsinə qaldıranda, digərini isə sıxışdırıb qadağan edəndə, ölkədə sabitlik pozulur və hərc – mərclik yaranır. Şübhəsiz ki, müəllif burada mütləqiyyət quruluşunun müsəlman xalqlarına olan münasibətini nəzərdə tutmuşdur. O, vicdan azadlığının pozulmasını ancaq hakimiyyətpərəstlikdə və şəxsi mənafedə görür. Hakim və yaxud dövlət hakimiyyəti əlində saxlamaq üçün dindən bacarıqla istifadə edir. Burada hakim deyəndə heç şübhəsiz, rus çarı gözlərimiz qarşısında canlanır. M. Ə. Rəsulzadə yazır: “Hakimlər, dövlətlər din və höküməti əllərində bir idarə vasitəsi qərar verdiklərindən müəyyən bir din və o din daxilində dəxi müəyyən bir məzhəbə rəsmiyyət verib başqalarını məhv etmişlər və bu sürətlə hürriyyəti – məzhəb aradan qalxaraq hakimiyyətdə olan din və məzhəb məhkumiyyətdə qalan din və məzhəbləri təzyiq etmişdir. Bu təyziq sayəsində də nifrət, ədavət, bir – birini çəkməməzlik, düşmənçilik əmələ gəlmişdir.”(“Açıq söz” qəzeti, 1916, № 134).

Rəsulzadə yalnız din azadlığından deyil, həm də məzhəb azadlığından bəhs edir. O, bununla bir din daxilində mövcud olan müxtəlif təriqətləri nəzərdə tutur. Çarizm dövründə provoslav təriqəti dövlət səviyyəsinə qaldırıldığından digər təriqətlər (staroverlər, baptistlər, incilçilər və başqaları) təqib olunurdu. Hətta həmin təriqətlərə etiqad edənləri kütləvi surətdə Rusiyanın ucqarlarına sürgün edirdilər. Məsələn, XIX əsrdə Azərbaycana sürgün edilmiş malakanlar buna sübut deyilmi?

Məhəmməd Əmin din azadlığı olmadan tərəqqinin olmasını qeyri – mümkün saymışdır. O, bütün tərəqqipərvər insanların, istər Avropanın, istərsə də Rusiyanın vicdan azadlığı istədiyini söyləmişdir. Vicdan azadlığı həm də Rusiyanın tərəqqisi nöqteyi – nəzərindən zəruridir. Bütün dinlər və məzhəblər azad olmalıdır. Bir din digər dinə və yaxud məzhəbə təzyiq etməməlidir. O, vicdan azadlığı probleminə ümumavropa miqyasında baxmışdır. “Halbuki indiki hürr əndişi Avropanın, yaxud demokrat və tərəqqipərvər Rusiyanın istədiyi nədir? Məzhəblər haqqında tam bir hürriyyət, hürriyyəti – vicdan. Hər kəsin məzhəbinə ehtiram hər kəsin etiqadına qarşı bir təhəmmul deyilmi?” (yenə orada).

Maraqlıdır ki, M. Ə. Rəsulzadə Avropanı azadfikirli, Rusiyanı isə demokrat və tərəqqipərvər adlandırmışdır. Bununla o, Avropanın humanitar elmlər sahəsində Rusiya ilə müqayisədə daha irəli getdiyini demək istəməmişdirmi? Ümumiyyətlə, o, məqalələrinin çoxunda Avropanı bizə bir örnək kimi göstərmişdir. Dünya müharibəsinə baxmayaraq, Avropa dövlətlərini azad dövlətlər saymış və Rusiyanın da o cür olmasını arzulamışdır.

Hətta məqaləsinin birində müharibəyə də mütərəqqi don geydirməyə çalışmışdır. “Dünyanın mütəməddin millətləri öz diriliklərini təmin üçün cəhənnəmi silahlarla müsəlləh olub bir – birlərinin üstünə hücum edirlər. Nə əcayib bir tələqqi kimi, istədikləri gibi dirilə bilmək üçün ölümü qəbul edirlər. Dirilik üçün ölürlər” (“Dirilik” məcmuəsi, 1914, № 1).

Göründüyü kimi, M. Ə. Rəsulzadə məqalədə bir növ imperialist müharibələrinə haqq qazandırmağa çalışmışdır. Bu isə ilk növbədə adamda təəccüb doğurur. Çünki müharibənin mütərəqqi rol oynadığını iddia etməyin özü heç cür ağıla sığmır, çünki müharibə xalqa ancaq aclıq, səfalət və dağıntı gətirir. On minlərlə insan həyatı qurban gedir. Halbuki onlar işləyib ölkənin tərəqqisi üçün əllərindən gələni edərdilər, ölkəni irəli aparardılar.

Qeyd edək ki, Rəsulzadənin müharibə haqqında bu qəribə fikirləri ancaq bir dəfə, o da “Dirilik nədir?” məqaləsində şərh olunmuşdur. Yerdə qalan məqalələrində o, ardıcıl olaraq müharibənin əleyhinə çıxmış, onu tənqid etmiş, xalqa nə qədər məşəqqət, əzab - əziyyət, aclıq və səfalət gətirdiyini söyləmişdir. Bütün bunlar bizə belə bir fikir söyləmək üçün əsas verir ki, M. Ə. Rəsulzadənin müharibə barədə təkcə bir məqalədə söylədikləri hansısa emosional təsir altında təsadüfən deyilmiş mühakimə olub, bütövlükdə onun müharibəyə münasibətini əks etdirmir.

Sosial azadlıq problemi barəsində Azərbaycanın digər ziyalıları da maraqlı fikir söyləmişlər. Bəri başdan qeyd edək ki, onların fikirləri M. Ə. Rəsulzadənin fikirlərindən fərqli olaraq ardıcıl və sistemli şəkildə olmamışdır. Onlar bu məsələ barəsində yeri gəldikcə fikir söyləmişlər. Sosial azadlıq probleminə, sosial tərəqqi probleminə və sairəyə zəruri hallarda toxunmuşlar. Elələrindən biri də Sənətulla İbrahimov idi. O, “Milli məsələlər qarşısında bugünkü mövqemiz” məqaləsində yazır: “Tarixin, müqəddəratın kim bilir müsəlmanlara verdiyi nasıl bir tale məşumidir ki, bu gün heç bir dairədə, heç bir partiyalar arasında, heç bir millətin əfkari – ümumiyyəsində müsəlmanlara xulusiyyətlərə tərəfdar və xeyirxah bir nöqtə görüləmməz” (“İqbal” qəzeti, 1914, № 617).

Göründüyü kimi, S. İbrahimov tarixə mistik don geyindirmişdir. Bu mistisizmin isə arxasında, təbii ki, allah anlayışı durmuşdur. İnsanlarda “alın yazısı” olduğu kimi, millətlərdə də buna bənzər bir şey olduğunu söyləmək iştəmişdir. O, müsəlmanların pis güzəranını, məşəqqətini “alın yazısı” ilə izah etməyə çalışmışdır. Əlbəttə, dinin cəmiyyətdə oynadığı rolu danmaq olmaz. Dinin cəmiyyətdə xüsusi mövqeyi vardır və həmişə də olacaqdır. Lakin hər şeyi dini baxımdan izah etmək düzgün deyil. Xüsusilə də “Alın yazısı” ilə əlaqədar müddəa xalqın əlini işdən soyudur, bədbinliyə aparır. Bu da son nəticədə sosial tərəqqini buxovlayıb ləngidir.

S. İbrahimovun “Şəlalə” məcmuəsində çap olunan “Ruhən və hissən bəşərdə tərəqqi” məqaləsi qaldırdığı məsələyə görə xüsusi maraq oyadır. Məqalədə əsasən sosial tərəqqi probleminə toxunulmuşdur. Hər şeydən əvvəl, müəllif

tərəqqini ruhi və maddi deyə iki yerə bölür. Bəşəriyyətin maddətən inkişaf etdiyini qəbul edir: “Filhəqiqə fikrən, maddətən ərzin özündə bir çox əsmari – tərəqqi görüldü və hala onun sinəsində bu çiçəklər yaşayır” (“ Şəlalə” məcmuəsi, 1914, № 6).

Müəllif tərəqqi probleminə sırf fəlsəfi baxımdan yanaşır. Onu daha çox tərəqqinin hissiyyatla bağlı tərəfi maraqlandırır, “bəşəriyyət əzilineyi – qəbl əl tarixiyyədə yaşayan həmcinslərindən ruhən, hissən tərəqqi edə bilmişmidir?” - deyə soruşur. O, insan qəlbinin dərinliklərinə, “zülmətinə” nüfüz etmək istəyir. Duyğularının ən sirli, ən müəmmalı guşələrinə nəzər salmaq istəyir. Nəticədə anlayır ki, “əvət orada hala ilk bəşər... ilk vəhşi bəşər mövcud... Biz nə olursaq, olalım, zahirən nə qədər tərəqqi edərsək edəlim, əsas etibarilə dünyada ilk görünən, ilk eşidən, ilk sızlayan, ilk tənəffüs edən insan gibiyiz. Bu bir həqiqət ki, bunu rədd və inkar imkan xaricində...” (yenə orada).

O. insan həyatını iki yerə bölür: maddi və hissi. İnsanın maddi aləminə şüuru da daxil edir. Başqa sözlə, insanın predmet fəaliyyəti ilə şüuru arasında bərabərlik işarəsi qoyur. “Filhəqiqə **fikrən, maddətən** ərzin özündə bir çox əsmari – tərəqqi görüldü” cümləsində fikrən və maddətən sinonim kimi işlənmişdir. Bu isə artıq vulqar materializmdir.

Müəəlif cəmiyyət nə qədər irəli getsə də, insanın hələ də vəhşi olduğunu söyləyir. Yer üzünün ilk insanları ilə, vəhşi insanları ilə müasir insanları eyniləşdirir. Yaxşı, əgər elədirsə. Bəs həmən o vəhşi insan müasir mədəniyyəti, indiki tərəqqini o zaman niyə yaratmamışdır? Şübhəsiz ki, müəllif bu sual qarşısında aciz qalardı. Məqaləni Y. D. kimi imzalamış müəllif həyatın yeganə səbəbini bir cinsin digər cinsə meylində və nəsil artırmaqda görür. O. Eşqi vəhşətin təzahür forması hesab edir. Ümumiyyətlə, axırda belə qənaətə gəlir ki, heç bir tərəqqi yoxdur. Bütün insanlar ancaq nəsil artırmaq üçün yaşayırlar. Məqalədə deyilir: “Bəqai nəsl bütün mücadalati – həyatiyyənin səbəbi – yeganə və əslisi degilmidir? Bu da ancaq eşq ilə vücud bulmazmı?.. Eşqi tovlid edən əsbab və əvamili – ruhiyyə nədir?

Eşq cinsinin yekdigərinə təmayulu, hissi – vəhşət, hissi – təcəssus, arzun tovlid...” (“Şəlalə” məcmuəsi, 1914, № 6).

Yuxarıda gördüyümüz kimi, müəəlif tərəqqi məsələsinə sırf fəlsəfi baxımdan yanaşır. Tərəqqini həyatdan qopardıb mücərrədləşdirir və əlçatmaz yüksəkliklərə qaldırır. Tərəqqi ona ancaq tərəqqi naminə gərəkdir, daha xalqın rifahını yaxşılaşdırmaq üçün lazım deyildir. Onun mühakimələrində tərəqqinin predmeti belə yoxdur. Azadlıq, mili azadlıq, vicdan azadlığı və sairə kimi anlayışlar isə heç yada da düşmür. Çarizmin ağır müstəmləkəçilik dəyənəyini kürəyində hiss edən millətin tərəqqisi isə milli azadlıq əldə etmədən qeyri – mümkündür. Təbiidir ki, məhkum millətlərin qabaqcıl övladları sosial tərəqqidən danışarkən ilk növbədə milli tərəqqini göz önünə gətirməli, əsarət altında inləyən xalqının gələcəyini düşünməlidir. Ona görə ki, bunu onlardan savayı heç kəs

etməyəcəkdir. Ziyalısı ölgün və mücərrəd fikirlərlə yaşayan millət isə tərəqqi yolunda inamlı addımlar ata bilməzdi. Bu son nəticədə faciəyə gətirib çıxarardı.

Sosial azadlıq problemi digər ziyalılarımızı da dərindən düşündürürdü. Məsələn, Əbülxaliq Cənnəti Qafarzadə "Dirilik" məcmuəsində çap etdirdiyi "Qələm!" qəzəlində də azadlıq probleminə toxunmuş və maraqlı fikir söyləmişdir:

"Əsri – hazirdə degil, heyf ki, azad, qələm!
Yoksa binlərcə edər məcuzə icad, qələm!

İçsə bir çürə əgər çeşmeyi – hürriyyətdən,
Dost üçün şəhd yapar, düşmən üçün bad, qələm!"

("Dirilik" məcmuəsi, 1914, № 3).

Şair söz azadlığından, mətbuat azadlığından dəm vuran çarizmin mürtəce siyasətindən şikayətlənir. Göstərir ki, əgər qələm azad olsa, minlərcə möcüzə yaradar, əgər çeşmeyi – hürriyyətdən bir qurtum içsə, dağı dağ üstə qoyar, xeyirxah işlər yapar. Bununla belə düşmənə də aman verməz. Düşmən deyəndə, güman ki, burada ədalətsizlik, haqsızlıq nəzərdə tutulur.

Azərbaycan ictimai fikrində birinci dünya müharibəsi illəri ərzində milli azadlıq və vicdan azadlığı problemindən sonra qadın azadlığı problemi, o zamankı təbirlə desək, hürriyyəti – nisvan məsələsi aktual əhəmiyyət kəsb edirdi. Bütün müsəlman xalqlarında olduğu kimi Azərbaycan xalqında da qadın hüquqsuz idi və günü ağlamaqla, sızlamaqla keçirdi. Əlbəttə, bu sözlərdə müəyyən həqiqət vardır, lakin o zamankı Azərbaycan qadınının həyatı bu təsəvvürlə heç də tamamilə bir araya sığmır. O zaman Azərbaycan qadınlarının arasında qadın hüquqları uğrunda mübarizə aparan feministlər də var idi. Onlar mətbuat səhifələrində çıxış edərək qadınların hüquqlarını müdafiə edirdilər. Azərbaycanın mütərəqqi ziyalıları da bu məsələdə qətiyyətli mövqe tuturdular. Onlar bu zaman Avropanı özlərinə nümunə götürürdülər. Qadınlar isə, bayaq dediyimiz kimi, qəzet və jurnalların səhifələrində cəmiyyətdəki vəziyyətlərindən şikayətlənirdilər. Dərd – sərlərindən, problemlərindən yazıb müxtəlif fikir yürüdürdülər. Əlbəttə ki, bu təqdirəlayiq hadisə idi və çox şeydən xəbər verirdi. Qadınlar içində bir oyanış, intibah duyulurdu. Hətta Hüseyn Tələt 1914-cü ildə "İqbal" qəzetində nəşr etdirdiyi məqaləsinə "Qafqaziya qadınlarında fikri - intibah" başlığı vermişdi. Müəllif məqalədə yazırdı: "Bu gün möhtərəm və sevgili qarelərimlə kiçik bir həsb – hal edəcəyəm! Bu həsbi – halımı Qafqaziya qadınlarında görülən asari – intibaha həsr edəcəyimdən burada – vəlov ki, səthi olsun qadınlıq aləmini və mazisini tədqiq edəcəyiz" ("İqbal" qəzeti, 1914, № 632).

Qadınlar ictimai həyatda fəal iştirak etməyə böyük həvəs göstərirdilər. Lakin onlara heç kəs kömək etmirdi. Qadınlar xüsusilə də kişilərdən narazı idilər. "Kişilərimiz qadınlıq aləmindən təmamən bixəbər və biganə yaşayırlar" ("Açıq

söz" qəzeti, 1916, № 100), - deyə kişilərin qadınlara münasibətini kəskin şəkildə tənqid edirdilər. Onların fikrincə, düşdükləri vəziyyətdən ancaq özləri çıxa bilərdilər. Ona görə də cürətli və cəsarətli olmalıydılar. "Aşıq söz" qəzetindəki "Qadınlıq duyğusu" məqaləsi oxucuya yuxarıdakı fikri təlqin edir. Məqalə cəsarətlə yazılmışdı və orada qadının cəmiyyətdəki mövqeyinə qarşı kəskin etiraz duyulurdu. Lakin o zaman bu cür çıxışlar qadınlara rəva bilinmədiyinə görə yazı sadəcə olaraq "Bir qadın" kimi imzalanmışdı. Buna baxmayaraq, mətbuatda fikrini bu cür açıq, üsyankarcasına ifadə edən qadın, əlbəttə, böyük şücaət göstərirdi. Bu onu sübut edirdi ki, qadınlar artıq hüquqları uğrunda əməlli – başlı mübarizəyə qalxmışdılar. Bu mübarizədə qadınlar və kişilər əlbir idilər. Deyildiyi kimi, Azərbaycanın mütərəqqi ziyalıları da qadınlara qoşulmuşdular, onları var qüvvələri ilə müdafiə edirdilər. Lakin "Qadınlıq duyğusu"nun müəllifi kişilərdən kömək ummurdu. Ona görə ki, kişilər qadınlara qarşı laqeyd idi. Qadınlar özləri özlərinə bir çarə tapmalıydılar: "Kişilərimiz qadınlıq aləmindən təmamən bixəbər və biganə yaşayırlar... Düşünəlim, düşünəlim ki, bizim dərdimizə əlac edən özümüzdən başqa kimsə olmayacaqdır" (" Aşıq söz" qəzeti, 1916, № 100).

Müəllif məqalənin axırında bütün qadınları cəsarətli olmağa çağırır. O, qadının hüquqsuz vəziyyətini qorxaqlığında görür. Müəllifin bu qənaətə gəlməsi tamamilə təbii idi. Qadınların dünyagörüşü ancaq yerli şəraitlə məhdudlandığına görə bəzi məsələlər barəsində bəsit düşünürdülər. Müəllifin fikrincə, qadınların cəmiyyətdəki hüquqsuzluğu, bayaq dediyimiz kimi, qorxaqlığı və cürətsizliyindən irəli gəlirdi. Bütün dərdlərin çarəsi qorxaqlığın daşını atmaqdır. "Bəsdir bu qədər zillət, həqarət içində yaşadıq. Məşhur məsəldir: "Ağlamayan uşağa süd verməzlər". Biz də ağlayaq, qışqıraq, ümumə bildirək, bütün dünyaya eşitdirək. Qorxaqlıq, cürətsizlikdən bu günlərə qaldıq, özümüzü əsir halına saldıq" (yenə orada).

Təbiidir ki, məqalənin müəllifi burada qadın məsələsinə sadə yanaşır. Qadın hüquqları uğrunda mübarizəni müəyyən mənada "ağlamaqla", "sızlamaqla" eyniləşdirir, buna görə də problemin həllini ümumən cılızlaşdırır. Halbuki qadın azadlığı "ağlamaqla", "sızlamaqla" və yaxud "qışqırmaqla" əldə edilməz.

Müəllifin kişilərdən gileylənməsi də müəyyən təəccüb doğurur, çünki o dövrdə bir çox Azərbaycan ziyalıları, məsələn, M. Ə. Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə və başqaları qadın hüquqları uğrunda yorulmadan mübarizə aparırdılar. Məsələn, götürək Yusif Vəzir Çəmənzəminlinin "Bizə ciddi mətbuat çoxdan lazım idi" adlı məqaləsini. Y. V. Çəmənzəminli məqalədə yazırdı: "Arvad məsələsi millətin tərəqqi yolunda böyük maneə təşkil edirdi. Bu məsələ barəsində danışıldı, arvadların elmsiz olmalarının pis nəticələri ortalığa tullandı. Şükürlər olsun, məsələ həll olunmağa üz qoydu". ("Açıq söz" qəzeti, 1916, № 164).

Y.V. Çəməmzəminli məqalədə qadın məsələsinin həll edilməməsini milli tərəqqi yolunda başlıca əngəl hesab edir. Qadın məsələsinin həlli uğrunda aparılan mübarizə, onun fikrincə, az – çox fayda vermişdi. Müəllif burada qız məktəblərinin

açılmasına işarə vururdu. Gətirdiyimiz misaldan göründüyü kimi, mütərəqqi baxışlı Azərbaycan ziyalıları qadınları mətbuat səhifələrində hər vəchlə müdafiə edirdi. Buna baxmayaraq, kişilərdən narazılıq azalmırdı. Məsələn, Xeyriyyə Qazızadə adlı bir nəfər "Açıq söz" qəzetinə məktub ("Bir xanımın məktubu") yazıb kişilərin qadınlara münasibətini kəskin şəkildə tənqid edirdi. "...bir az dərin düşünülərsə, günahkar yalnız biz deyilik. Bəlkə bu günaha, bu aşağılığa, bu xəbərsizliyimizə səbəb kişilər də günahkar, həm də böyük günahkardırlar. Öylə ya: kişilər bizə hər dürlü zinətlər, qızıllar, incilər, çiçəklər, cicilər verdikləri halda, bizə, bizim insanlığımıza həqiqi bir yolda zinət verən bir şey, yəni elm və hünəri bizdən əsirgəyirlər, bizə qıymırlar" ("Açıq söz" qəzeti, 1917, № 385).

"Açıq söz" qəzetinə göndərilən hər iki məktubda ("Qadınlıq duyğusu" və "Bir xanımın məktubu") kişilərə qarşı bir narazılıq duyulurdu. Əlbəttə, kişilər arasında qadınları müdafiə edənlər var idi, lakin onların sayı təəssüf ki, kifayət qədər deyildi.

Xeyriyyə Qazızadənin fikrincə, qadına hər şeydən irəli elm və təhsil lazımdır. O, savadı, biliyi qızıldan və daş – qaşdan üstün tutur. Qadının cəmiyyətdəki hüquqsuz vəziyyətini kişilərin ədalətsizliyində görür. Kişi qadının cəmiyyətdə fəal rol oynamasının əleyhinədir, ona görə də qadınların təhsil almasına, müxtəlif elmlərə yiyələnməsinə mane olur. Göründüyü kimi, qadınların hüquqsuzluğu məktub müəllifinin nəzərində təhsil almaması ilə bağlıdır. Guya qadın təhsil alan kimi azadlığa çıxacaqdır. Bu, sadəlövh baxışın nəticəsi idi.

"Açıq söz" qəzetində çap olunan "Qadınlarımız haqqında" məqaləsində bir sıra vacib məsələlər qaldırılır. Azərbaycan qadınlarının ictimai vəziyyəti müqayisə edilir. Qadının, sən demə, cəmiyyətdə oynadığı rol böyük imiş. Müsəlman ölkələrində qadınların ictimai həyatdan uzaqlaşdırılması nəticə etibarilə müsəlmanların iqtisadi inkişafını yubandırmışdır. Müsəlmanlar ehtiyac içində yaşayırlar. Məqalədə qadın məsələsi Şərq – Qərb problemi baxımından araşdırılır. Şərqin Qərbdən asılı olmaması üçün qadın məsələsinin düzgün həllinin böyük əhəmiyyəti vardır. Müəllif yazır: "Qadınlarımız digər millət qadınları kimi təlim və tərbiyə görərək onların yaydığı işləri işləyəmməzlərsə, müsəlmanlar hər zaman iqtisadi mübarizələrdə əziləcək və zərurətdən qurtulmayacaqlar" ("Açıq söz" qəzeti, 1916, № 261).

Xəlil İbrahimov adlı birisi " Qadınların hüququnu himayə cəmiyyəti" məqaləsində qadın məsələsinə islam aləminin tərəqqisi və təalisi mənafeyindən baxır. İslam aləminin güclənməsi üçün çalışanlar qadın məsələsinə də nəzər yetirmək məcburiyyətindədirlər. Müəllif qadın məsələsinə islam aləminin tərkib hissəsi kimi baxır. Onun fikrindən belə məlum olur ki, islam aləmi əgər qadınsız inkişaf edə bilsəydi, onda qadın məsələsini həll etmək zərurəti də meydana çıxmazdı. Burada millilik arxa plana keçir və yaxud tamamilə unudulur: "Qadın məsələsi aləmi – islam üçün ən mühüm bir məsələ olduğundan, təbii, islamın tərəqqi və təalisi fikrində olanlar bu məsələyə təsadüf etdikdə, bilaixtiyar

qadınların əhvalına də nəzər etməyə məcbur olurlar". ("Açıq söz" qəzeti, 1914, № 716).

Əlbəttə, Azərbaycanda qadın məsələsinin qoyuluşu ilə Avropada qadın məsələsinin qoyuluşu bir – birindən kəskin şəkildə fərqlənir. Hər şeydən əvvəl ona görə ki, Azərbaycan müsəlman, Avropa isə xristian aləminə mənsubdur. Bundan başqa Azərbaycan xalqı özünün spesifik qanunları ilə inkişaf etmişdir. Bu və ya digər amillər tarixin müəyyən məqamlarında Azərbaycan xalqının məişətinə güclü təsir etmişdir. Qadınla bağlı müsəlman aləmində, o cümlədən də Azərbaycanda bir təsəvvür yaranmışdısa, Avropada tamam başqa bir təsəvvür təşəkkül tapmışdı.

Qadın azadlığı problemi (feminizm) ilk dəfə olaraq Avropada vüsət almışdı. Mütərəqqi fikirli Azərbaycan ziyalıları Avropadakı vüsəti görüb bəyənmiş, onu xalqın tərəqqisi üçün məqbul saymışdılar. Azərbaycan ziyalılarının əksəriyyəti ona görə Avropanı özlərinə bir örnək sayırdılar. Avropa ictimai fikri onların dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır.

Ümumiyyətlə, 1914 – 1917-ci illərdə Azərbaycan qadınlarının ictimai fəallığının artdığı müşahidə edilir. Qadınlar məqalələr yazıb qəzet və jurnallarda öz hüquqlarını tələb edir, müxtəlif məsələlər barədə fikir yürüdür, arzu və istəklərini oxucularla bölüşdürürdülər. Həm də müxtəlif tədbirlərdə iştirak edirdilər. Cəmiyyətlər, təçkilatlar yaradırdılar. Bir sözlə, millətin həyatında fəal mövqe tutmağa çalışırdılar.

M. Ə. Rəsulzadənin "Müsəlman unas – cəmiyyəti – xeyriyyəsi" məqaləsi qadınların təşəbbüsü ilə yaradılmış xeyriyyə cəmiyyəti haqqındadır. O, Qafqaz türkləri arasında ilk dəfə olaraq yaradılmış qadın xeyriyyə cəmiyyətini ürəkdən alqışlamış, qadın xeyriyyə cəmiyyəti yaradılmasının xalqın həyatında əlamətdar hadisə olduğunu, qadınların millətin tərəqqisi uğrunda kişilərlə birlikdə fəal mübarizəyə qalxdığını qeyd etmişdir. Qadına olan münasibətə görə müsəlman aləmini sanki iflic vumuşdu və qadınların ictimai həyatda iştirakı bu iflicin aradan qalxmasına kömək etməliydi. "İctimai məsələlərdə ciddiyyətlə bəyani - əfkar edənlər müsəlmanlar vücudunu bizdəki unas əsarəti nöqteyi – nəzərindən fələc tutmuş bir bədənə bənzədirlər ki, olduqca doğrudur və həyati – ictimaiyyə və milliyəmizi təsvir üçün bundan daha gözəl bir təşəbbüsə bulunamaz. Arvadlar arasında hər hankı bir hərəkəti – ictimaiyyə zühuru iştə bu fələcin rəfinə bir əlamət olduğu nöqteyi – nəzərindən müsəlman millətlərinin intibah və təcəddüdünü arzu edilərcə, fövqəladə bir qiymətə malikdir" ("İqbal" qəzeti, 1914, № 798).

Tədqiq etdiyimiz dövrdə Şəfiqə xanım Əfəndizadə mətbuat səhifələrində qadınlıq şərəfini, qadınlıq ləyaqətini yorulmadan müdafiə edən qələm ustalarından biri idi. O, qadınların hüququ, ictimai vəziyyəti və məişəti haqqında bir neçə məqalə yazmışdır. Məqalələrində qadınların cəmiyyətdəki mövqeyinə böyük əhəmiyyət vermiş, qadının ictimai həyatda fəal iştirak etməsinə tərəfdar olduğunu bildirmişdir. Şəfiqə xanım qadına adi qadın kimi deyil, həm də bir ana, bir tərbiyəçi kimi baxırdı. O göstərirdi ki, layiqli ana olmaq üçün qadınlar və qızlar öz

– özlərini tərbiyə etməli, səviyyələrini daim artırmalı, qadınlar uşaqlarını milli ruhda böyütməlidirlər. O, qadın məsələsini elə bir ucalığa qaldırır ki, hətta bu məsələni həll etmədən millətin irəli gedə bilməyəcəyini iddia edir. Qadınlara münasibət dəyişməsə, qadınlar həmənki kimi hüquqsuz yaşasa, millilik zərər çəkər. Çünki gələcək millətpərvərlər ilk tərbiyəni ana qucağında alırlar. Hər qadın diriliyi anlamalıdır və anladığı diriliyi uşağına, övladına aşılamalıdır: “Qadınlıq yüksəlmədikcə milliyyət tənəzzül edər. Hər qadına diriliyin və varlığın həqiqətinə vaqif olmaq lazımdır.” (“Dirilik” məcmuəsi, 1914, № 3).

Şəfiqə xanım Əfəndizadənin digər məqaləsi “Qadınlarda dirilik və nöqsanat” adlanır. O, qadının cəmiyyətdə tutduğu mövqe barəsində maraqlı fikirlər söyləyir. Qadının cəmiyyətdə fəal mövqe tutmasına tərəf çıxır. Qadın gərək ictimai həyatda iştirak etsin, elm və bilik dalınca qaçsın. Azərbaycan qadınları da xalqın həyatında iştirak etməyə can atırlar. Xalqın iqtisadi və mədəni yüksəlişinə əllərindən gələni əsirgəmirlər. Müəllifin yazısında nikbinlik və gələcəyə inam vardır. “...bu axır vəqtlərdə qadınlarımızın arasında oxumaq və oxutdurmağa, sənət və iqtisada cəmiyyətlərdə işləməyə mail bir fikri – intibah, bir cunbuş, bir dirilik halları görülməkdədir.” (“Dirilik” məcmuəsi, 1914, № 7).

Bununla yanaşı qadınların nöqsanları barəsində də fikir söyləməkdən çəkinməmişdir. Nöqsanların olması isə təbiidir, ona görə ki, avropalılarla müqayisədə “biz daha ibtidai bir haldayıq”. Şəfiqə xanım Azərbaycan qadınlarını iki qrupa ayırır: urəfa və cahil. Məqalədən aydın görünür ki, urəfa xanımlar Bakıda və ya digər iri şəhərlərdə ali təhsil görmüş qadınlardır. Onlar əcnəbicə təhsil almışlar. Əcnəbi deyəndə, çox güman ki, rus dili nəzərdə tutulur. Şəfiqə xanım ümumiyyətlə, əcnəbicə təhsil almağın əleyhinə deyildir. Əksinə, bir çox məqamlarda hətta əcnəbicə təhsilin məziyyətindən bəhs edir, məsələn, urəfa xanımlara işarə edərək deyir ki, “əcnəbi dildə aldıqları təlim və tərbiyə sayəsində özlərinin hal və məişətlərində bir qədər rahatlıq və sərbəstlik tərəqqiləri görülməkdədir. Bu hallar pəsənd edilir” (yenə orada).

Deməк, Şəfiqə xanım əcnəbicə təhsil almağın əleyhinə deyildir, sadəcə olaraq əcnəbicə təhsildən milli dil və milli mədəniyyət zərər çəkməməlidir. O, savadlı qadınlarımızın nöqsanından danışarkən yazır: “qəlbən, ruhən milli lisanlarını tərk edib əcnəbi lisanında qonuşmalarıdır. Böylələrinin külfətləri arasında öz ana dilləri büsbütün unudulub, tərk olmaqdadır... Hələ əziz övladlarını - istər qız, istər oğlan – milli dil, milli tərbiyə ilə dimağlarını qüvvətləndirəcəkləri yerdə, biləks, daha dil açmamışdan əcnəbi mürəbbilərinin qucaqlarına təslim edirlər... bu da ürəfa xanımlarımızın nöqsanlarıdır” (yenə orada).

Cahil qadınlarımız isə elmsiz, biliksiz və savadsız qadınlardır. Şəfiqə xanım Əfəndizadə təəssüf hissilə bildirir ki, bu cür qadınlarımız çoxdur. Onların heç nəyə marağı olmur. Həyatda acizdirlər, nə istədiklərini özləri də bilmirlər. Ona görə də “şəhərimizdə, küçələrdə binlərcə möhtac, aciz arvadlar dilənçilik edirlər.” O göstərir ki, bunun qarşısını almaq üçün qadınlarımız uşaqlıqdan bir sənətə

yiyələnməlidirlər, sənət məktəblərində oxumalıdırlar. Qadınlarımız diribaş, gözüaçıq və sərbəst olmalı, təhsil almalıdırlar. Milli tərəqqini arzulayanlar "əvvəlcə qadınlarımızın fikirlərinin yüksəlməsinə, milli bir cərəyana başlamalıdırlar".

Yuxarıdakı iqtibaslardan belə nəticə çıxır ki, Şəfiqə xanım qadın azadlığı probleminə milli tərəqqinin tərkib hissəsi kimi baxır. Onun fikrincə, qadınlarımızın azadlığı milli inkişafa tabe edilməlidir. Millilik burada ön plana çəkilir.

"Dirilik" məcmuəsində ümumiyyətlə, qadın məsələsinə geniş yer verilirdi. Əli Abbas Müznibin mühərrirliyi ilə çixan məcmuə qadın azadlığı ideyasının alovlu carçılarından biri idi. Başlıcası bu idi ki, məcmuədə qadın məsələsinə əsasən milli tərəqqi, milli inkişaf fonunda baxılırdı. Başqa sözlə desək, qadın məsələsi milli inkişafın tərkib hissəsi sayılırdı. Daha biri digərindən təcrid olunmurdu.

Məcmuədə qadınlara qarşı törədilən haqsızlıq və ədalətsizlik ciddi tənqid atəşinə tutulurdu. Məsələn, Bədrəddin əl – Hüseyn adlı bir nəfərin "Dirilik"də çap olunan şerində oxuyuruq:

"Qadın hər qövm, hər millətdə şayani – inayətdir,
Fəqət tək bircə bizdə bunlara zülm etmək adətdir!
Cünüdi – cəhd ilə mədum edib ədli, müsavatı,
Əsir aldıq qadın sinfin ki, məhkumi - əsarətdir."

*("Dirilik" məcmuəsi, 1915, № 10).*

Şair qadının cəmiyyətdəki hüquqsuz vəziyyətinə dözməyib etiraz səsini ucaldır. Bunu milli bəla hesab edir. Səbəbinin isə cahillikdə görür. Demək, qadınların kişilərlə bərabər hüquqa malik olmaları üçün guya ancaq savadlanmaq lazımdır. Bəs qadın hüquqsuzluğunun ictimai köklərini kim aradan qaldıracaq? Bu sual yenə yenə də cavabsız qalır.

"Dirilik" məcmuəsində qadın məsələsinə elmi yanaşan, ona Avropada genişlənməkdə olan feminizm hərəkatının ümumi fonunda baxmağa çalışan məqalələr də çap olunurdu. Bu səpkili məqalələrdə qadın məsələsi tarixi planda götürülür və diqqətlə araşdırılırdı. Keçmişdə yaşamış Şərq qadınlarını xatırlayırdılar. "Məşhur xanımlar" rubrikası altında biliyi və fərasəti ilə, geniş dünyagörüşü ilə fərqlənən qadınların həyat və fəaliyyətini qısaca şərh edib o zamankı Azərbaycan qadınlarına nümunə göstərirdilər. Bu cür yazılar qadınların böyük marağına səbəb olmuşdu. "Məşhur xanımlar" rubrikası ilə verilən məlumatlar qadınların özlərini dərk etməsində mühüm rol oynayırdı. Onları canlı həyata, elmə, biliyə, fəaliyyətə həvəsləndirirdi. Düşdükləri acınacaqlı vəziyyətlə barışmazlıq, döyüşkənlik və sabaha ümid kimi keyfiyyətlər aşılayırdı.

Hüseyn Tələt qadın məsələsinə daha geniş nəzərlə baxırdı. Qadın məsələsini ictimai, milli və mədəni həyata təsir edəcək güclü amil sayırdı. O, "Qadın məsələsi" məqaləsində problemi elmi zəmin üzərinə gətirir və problemin inkişaf tarixini izləyərək maraqlı fikirlər söyləyirdi. Feminizm hərəkatının vətəni Fransa olduğunu iddia edirdi. Hüseyn Tələtin fikrinə görə qadın cəmiyyətin ictimai həyatında fəal rol oynamalıdır. Qadınların iştirakı olmadan sosial tərəqqi mümkün deyil. Hüseyn Tələt yazırdı: "Feminizm sırf həyati – ictimaiyyəyə, milliliyə və mədəniyyətə təmas edən mühüm bir məsələdir" ("Dirilik" məcmuəsi, 1915, № 10).

H. Tələt "Qadın aləmi" adlı digər məqaləsində də həmin fikrini müdafiə edir və sosial tərəqqini qadınlarsız təsəvvür edə bilmir. O, həmin məqalədə yazır: "Bizə inqilab və intibah dövrü açacaq maarif maarifi – nisvandır. Ən nəhayət bunu da anladıq ki, ümumiyyətimiz və mövcüdiyyətimiz, tərəqqi və təalimiz bir quşa bənzər – qanadının ikisi də sağlam olmazsa, uçamaz" (yenə orada).

Gördüyümüz kimi, müəllif ictimai tərəqqidə qadına mühüm yer ayırır, kişi və qadını quşun qadına bənzətməklə hüquqlarını bərabərləşdirir, hər ikisinin eyni hüquqa malik olduğunu bildirir. Hüseyn Tələt qadınların maariflənməsinə xüsusi əhəmiyyət verir. Sosial tərəqqidə maarifçiliyin rolu ikinci fəsildə geniş tədqiq ediləcəyindən biz bu fəsildə həmin mövzuya toxunmayacağıq.

Qadın azadlığı mövzusu Məhəmməd Hadinin yaradıcılığında da mühüm yer tutur. O, qadın adını əlçatmaz yüksəkliklərə qaldırır. Qadının düşdüyü vəziyyət ilə qətiyyən razılaşa bilmir. Qadın ziyasını, qadın azadlığını zülmə, ədalətsizliyə qarşı qoyur. Əlbəttə, o dövrdə bu cür fikirlər irəli sürmək o qədər də asan deyildi. Bütün Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da qadın haqqında müəyyən təsəvvür yaranmışdı. Qadına bir ana kimi, bir tərbiyəçi kimi baxılırdı. Qadın həyatını bütünlüklə ailəsinə həsr etməliydi. Onu da deyək ki, o zamankı Azərbaycan feministlərinin bəziləri də qadına məhz bu baxımdan yanaşırdılar. Fərq yalnız bunda idi ki, onlar adi tərbiyədən deyil, milli tərbiyədən. Milli məişətdən bəhs edirdilər. Məhəmməd Hadi isə qadına geniş səpkidə yanaşırdı. O yazırdı:

"Zulam içində, yaşar, parlamaz, nə gün, nə səhər,
Qadın ziyası göründükdə zülmət isə qaçar"*

O, qadını şər qüvvələrə qarşı başlıca güc sayırdı. Onun fikrincə, hətta zülmət qadın ziyası qarşısında aciz idi. Görünür, şair qadın ziyası dedikdə qadınların təhsilini, savadını və biliyini nəzərdə tuturmuş.

XX əsrin əvvəllərində, süsusilə də Rusiya – Yaponiya müharibəsindən sonra Azərbaycanda artıq bir neçə adda məzhəkə məcmuələri nəşr olunmağa başlamışdı. Bunlara misal olaraq "Molla Nəsrəddin", "Babayi - Əmir", "Zənbur", "Tuti", "Ləklək" və başqalarını göstərmək olar. "Molla Nəsrəddin" məcmuəsindən

---

* Məhəmməd Hadi. Seçilmiş əsərləri, I cild, 1978.

savayı yuxarıda adı çəkilən jurnalların heç biri ayrıca tədqiq olunmamışdır. Həmin jurnallarda xalqımızın həyatı və məişəti ilə bağlı saysız – hesabsız məqalələr, lətifələr, karikaturalar və sairə çap olunmuşdur. Ciddi mətbuatdan fərqli olaraq məzhəkə məcmuələri tənqid obyektini gülüşlə, kinayə və istehza ilə qamçılayırdılar. Bu baxımdan məzhəkə jurnallarının ictimai rəyə təsiri daha güclü idi. Camaatı güldürə - güldürə düşünməyə vadar edən məzhəkə məcmuələri səhifələrində digər məsələlərlə yanaşı qadın məsələsinə də xüsusi fikir verilirdi. Qadına həqarətlə baxanlar, hüququnu tapdalayanlar gülüş hədəfinə çevrilirdilər. Məsələn, "Molla Nəsrəddin" məcmuəsindəki "Kişi gəlir" adlı yazını götürək. Yazıda qadını kölə vəziyyətində görmək istəyənlər incə yumorla tənbeh olunur. Yazının başlığı da mənalıdır: "Kişi gəlir". Burada da bir kinayə vardır, qadının hüquqsuzluğu üzərində öz səadətini qurmaq istəyənlər, cahilliyi və savadsızlığı üzündən milli tərəqqiyə xor baxanlar tənqid atəşinə tutulur. Yazıda oxuyuruq: "Və bir də qaldı ki, bir para ağzı qəşənglər başlayıblar qəzetlərdə yazmağa ki, nə bilim, gərək övrətlər oxusunlar, tərbiyə tapsunlar, uşaqlarına tərbiyə versünlər, cəmiyyətlər tərtib etsünlər, çalışsunlar, vuruşsunlar, ta ki millət qabağa gəlsun..." ("Molla Nəsrəddin" məcmuəsi, 1914, № 13).

"Babayi – Əmir" məcmuəsi də qadın məsələsinə toxunur, lakin "Molla Nəsrəddin"dən fərqli olaraq "Babayi – Əmir " qadın azadlığı haqqında mətbuat səhifələrində çıxış etməyin faydasız olduğunu bildirir. Məcmuə qadın məsələsinin həllinə bədbinliklə yanaşır, hətta inanmır: "Zəhrimara qalsun bu arvad məsələsi... on ildən bəri "hürriyyəti - nisvan", "hürriyyəti - nisvan" dadu – fəryad etməkdən boğazımız dağılmışdır" ("Babayi - Əmir" məcmuəsi, 1916, *№ 31*).

Birinci fəsilə yekun vurarkən, deməliyik ki, burada müxtəlif, baxışlı, dünyagörüşlü şəxslərin və hətta ictimai təşkilatların inqilab və sosial azadlıq probleminə münasibəti araşdırılmış və bununla da həmin problemlərin sosial tərəqqiyə təsiri öyrənilmişdir. Məlum olmuşdur ki, sosial tərəqqidə inqilab təlimini qətiyyətlə müdafiə edən bolşeviklərlə yanaşı Azərbaycan ziyalılarının bir qismi bu sahədə milli azadlığın mühüm rol oynadığını xüsusilə qeyd etmişlər. Məsələn, M. Ə. Rəsulzadə sosial tərəqqini milli tərəqqi ilə əlaqələndirmiş və milli tərəqqinin tələblərini mövcud quruluşun tələbləri ilə uzlaşdırmağa çalışmışdır. Qeyriləri də (Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə və s.) məsələyə əsasən bu mövqedən yanaşmışlar. Lakin onlar M. Ə. Rəsulzadən fərqli olaraq problemi və onun həlli yollarını nisbətən sadə izah etmişlər.

Göründüyü kimi, o dövrdə sosial azadlıq problemi xırdalanaraq bütün mürəkkəbliyi və incəliyi ilə tədqiqat obyektinə çevrilmişdir. Sosial azadlıq fonunda şəxsiyyət azadlığı, vicdan azadlığı və qadın azadlığı məsələləri araşdırılmışdır. O problemlər indi də qaldırılır. O zamankı şərhləri üzə çıxarmaqla budünkü vəziyyətimizi daha dərindən öyrənməyə imkanımız olacaqdır. Biz bugünkü fikrimizlə əski fikrimizi tutuşdurub daha qənaətbəxş nəticələrə gələ bilərik.

# II FƏSİL

# MAARİF VƏ MƏDƏNİYƏTİN SOSİAL TƏRƏQQİYƏ TƏSİRİ

Mədəniyyət anlayışı mürəkkəb və çoxşaxəlidir. Əslinə qalsa, maarifin özü də bu anlayışa daxildir. Lakin maarifi ayırmaqda bizim məqsədimiz vardır. Bu məqsəd hər şeydən əvvəl ondan ibarətdir ki, maarifi ayrıca götürməklə tədqiq etdiyimiz dövrdə—1914—1917-ci illərdə maarifə nə qədər böyük əhəmiyyət verildiyini qeyd etməyə çalışmışıq. Azərbaycan ziyalılarını o zamam ilk növbədə xalqın maariflənməsi, təlim və təhsili narahat edirdi. Ümumiyyətlə, bu barədə fikir birliyi, müəyyən mənada həmrəylik var idi. Maarif məsələsi o zamankı yazıların başlıca məzmununu təşkil edirdi. Bu həm də ondan irəli gəlirdi ki, çarizm Qafqazda müsəlmanların maarif sistemini kökündən dəyişmək istəyirdi. Məktəbləri böyütmək bəhanəsi ilə türklərin təhsil almasına mane olan, milli hüquqlarını boğan son dərəcə mürtəce bir layihə hazırlanmışdı. Qəribə burası idi ki, layihədə türk dili, Azərbaycan dili əvəzinə nədənsə tatar dili yazılmışdı. Bu da, şübhəsiz ki, böyük dövlətçilik siyasətinin məhsulu idi, xalqın mənəviyyatını məhv etmək istəyənlərin xəbis planlarından irəli gəlirdi. M. Ə. Rəsulzadə bu barədə belə yazmışdır: "Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyətin məhv edib aradan götürmək qəsdində olan siyasilər də əsl bunun üçündür ki, təmsil (asimilyasion) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxartmağa səy edərlər" ("Dirilik" məcmuəsi, 1914, № 6).

Haqqında danışdığımız layihə nə cür hazırlanmışdı? Kim tərəfindən yazılmışdı? O dövrdə nəşr olunan mətbuatı diqqətlə izləyərkən bu sualın cavabı tapıldı. Sualın cavabı Ömər Faiqin "Nə umuyoruz?" adlı silsilə məqalələrindədir. Məqalələrdən məlum olur ki, Qafqaz maarif müdiri Rodolev bəzi şəxslərə tək-tək müaciət edib maarif barəsində fikirlərini öyrənmək istəmişdir. Ömər Faiq yazmışdır: "Bən bu xəbəri duyan gibi, tək-tək adamlara müraciətin millətimiz üçün zərərli olduğunu və bunun üçün mütləq bir yığıncaq lazım gəldigini yazmışdım" ("Açıq söz" qəzeti, 1916, №108). O, öz fikrini bu cür əsaslandırır: "Tək-tək şəxslərə müraciət ondan ötrü zərərlidir ki, maarif müdirinin tanıyub, sayub fikrini bilmək istədiki şəxs bizdən artıq müdirin xatirinə, arzusuna— imdiki tərbiyə və əxlaqımız təsirilə—xidmət edəcəki zənni yadə gəlməyor" (yenə orada). Bəri başdan deyək ki, Rodolevip layihəsi olduqca mürtəce idi və müsəlman, ilk növbədə isə türk xalqlarının əleyhinə yönəldilmişdi. Köhnə "Ömər" və "Əli" məktəblərinin əvəzinə üçpilləli məktəblər yaranmalıydı. Birinci pillə: bir əlifba və üç hazırlıq sinfi, təhsil müddəti dörd il: Oxunan dərslər: şəriət, rus dili, tatar dili

(?), hesab və türkü (peniye). İkinci pillə dərsləri: şəriət, rus dili, hesab, cəbr, həndəsə, tarix, coğrafiya, tarixi-təbii, hikməti-təbiiyyə, rəsm, tatar dili, türkü və gimnastika. Adı çəkilən dərslərin hamısı rus dilində oxunmalıydı. Yerli dilə həftədə cəmi iki dərs ayrılmışdı. Və bu dərslar məcburi deyildi. Bundan başqa yerli dil bütün dərslərin sonunda şagirdlər artıq yorulub əldən düşəndən sonra tədris olunurdu. Bu da təbii ki, uşaqların dərsdə oturmamasına səbəb olurdu. Qəribə burası idi ki, yeni proqrama görə uşaqlara şəriət dərsi ərəbcə keçirilməliydi. İzahat, isə ya rusca, ya da "tatarca" verilməliydi. Bununla əlaqədar olaraq Ömər Faiq yazırdı: "Müdir cənablarının türk dilimizə olan iltifatsızlığının və guya bu yol ilə "xidmət" göstərməginin əlbət "özüncə" bir mənası vardır, lakin özü böyük pedaqoq ola-ola, sırf pedaqoji əleyhinə çalışmasının əcəba nə mənası vardır?" ("Açıq söz" qəzeti, 1916, № 108).

Üçüncü pillə müəllimlər hazırlayan xüsusi məktəb idi. Bu məktəblərdə təhsil müddəti üç il olmalıydı. Məqsəd ibtidai rus-türk məktəblərinə türk dili və şəriət müəllimi hazırlamaq idi. Dərslər: təfsir, islam tarixi, fiqh, elmi kəlam, elmi hədis, islam dininin tarixi, tatar, ərəb, fars və rus dilləri, Rusiya tarixi, coğrafiyası və üsuli-təlim. Üsuli-təlim, coğrafiya və tarix rus, qalanları ərəb dilində olacaqdı. Göründüyü kimi, tədris proqramı həddən ziyadə yüklənmişdi. İbtidai məktəblərdə müəllim işləyəcək tələbələr nədənsə elmi kəlam, fiqh kimi çətin və mürəkkəb fənnlər keçməliydi. Əlbəttə, dini nöqteyi-nəzərdən bu fənnlər olduqca vacib və zəruri fənnlər idi, amma ibtidai məktəblərdə dərs deyəcək gələcək müəllimlərin bunlar nəyinə gərəkdi. Ömər Faiq məsələyə bu mövqedən yanaşır və buna görə də yeni dərs proqramının tamamilə yarıtmaz olduğunu qeyd edirdi. O yazırdı: "Elmi kəlam nədir? Fəlsəfə gibi ən ali bir elmin uluhiyyət və vicdaniyyətə aid bir qismidir ki, müsəlmanları bir-birlərindən ayıran məzhəbçilərin öz aralarında keçən mübahisə və münaziəli məsələlərlə doludur.

Əcəba, bu elmin «ibtidai» türk məktəblərində müəllimlik edəcəklərə nə lüzumu var?" ("Açıq söz" qəzeti, 1916. № 108).

Sonra o, öz fikrini daha geniş şərh edərək yazırdı: "Bir az daha ciddi düşünüb irəli gedəcək olsaq, cürətlə deyə bilərəm ki, ibtidai məktəb müəllimlərinə yalnız elmi kəlamın degil, o qisimdə oxunan dərslərin çoxunun lüzumu yoxdur, ibtidai məktəblərdə müəllim olacaqlara bu ali dərsləri oxutduqları halda, əcəba qazı, müdərris və ruhani darülmüəllimində müəllim olacaqlara hankı elmləri oxudacaqlar" (yenə orada).

Bir sözlə, çarizm mövcud məktəbləri böyütmək bəhanəsi ilə Qafqazda olduqca mürtəce bir layihəni həyata keçirmək niyyətində idi. Layihə Qafqaz türkləri, yəni azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Layihə açıq-aşkar müsəlman və türk olan azərbaycanlıların milli və dini simasını pozmaq məqsədi güdürdü. Mövcud məktəbləri böyütmək bəhanəsi ilə uşaqların qarşısına elə çətin vəzifələr qoymaq istəyirdilər ki, uşaqlar çaş-baş qalsınlar, çətinə düşüb

oxumasınlar. Məktəbi uşaqlar üçün maarif ocağına deyil, əsl cəhənnəm yuvasına çevirməyə çalışırdılar.

Müsəlmanlar çar Rusiyasına qarşı mötədil və hətta xoşniyyət mövqe tutsalar da, mütləqiyyət öz təbəələri olan müsəlmanlara, ilk növbədə isə türkdilli xalqlara düşmənçilik münasibəti bəsləyirdi. Onların milli mədəniyyətlərini, milli dillərini hər vəchlə boğurdu. Maarif qarşısına min bir sədd çəkirdi. Təsadüfi deyil ki Ömər Faiq məqaləsinin axırında yeni maarif sistemini nəzərdə tutan layihəyə işarə edərək yazmışdır: "Görürük ki, "bizim?" üçün açılacaq bu geniş məktəblərdə həy şey var: rusca abrazovaniya, ərəbi məlumat, farsca şer, ərəbcə iman və etiqad, hətta elmi kəlam.

Ancaq bir şey yox. Nədir o?
Özümüz!.." ("Açıq söz" qəzeti, 1916, № 108).

Ömər Faiq yeni layihəni tənqid etməklə kifayətlənmirdi. O, maarif sahəsində yeridilən ayrı-seçkilik siyasətini, azərbaycanlılara qarşı olan ögey münasibəti cəsarətlə ifşa edirdi. Qeyri-müsəlman xalqların, ələlxüsus da ermənilərin maarif sahəsində imtiyazlarını, hüquqlarını açıb göstərirdi. Mütləqiyyətin erməniləri öz qanadı altına aldığını təkzibolunmaz dəlillər əsasında sübuta yetirirdi.

Bu həqiqətən də elə idi və o barədə yalnız Ömər Faiq yazmırdı, digər Azərbaycan ziyalıları da yazırdılar. Lakin Ömər Faiq həmin məsələni daha kəskinliyi ilə göstərirdi. Məsələn, adını qeyd etdiyimiz "Nə umuyoruz?" silsilə məqalələrində o yazırdı: "Məsələn, bir hökumət idarəsində, bir quberniyada, bir qapı qonşuluğunda yaşayan və hökumətin hamı xərclərini—vergilərini, ağırlıqlarını müsavat üzrə yüklənən iki millətin biri "mücaid", digəri "məhdud" qanunla idarə olunsa, əlbət ki, ikinci millət bu haldan rahətsiz olacaqdır" ("Açıq söz" qəzeti, 1916, № 110).

Bəlkə Ömər Faiq bununla çar Rusiyasına böhtan yağdırırdı? Bəlkə ölkədə bütün millətlərə həqiqətən də eyni gözlə baxırdılar, Hamını bir tuturdular. Axı, yüksək rütbəli çar məmurları da millətlərin bərabər hüququndan, xalqlar dostluğundan ağızdolusu danışırdılar. "Milli məsələlərimizin vəqtimi?" məqaləsində belə bir məlumat getmişdi: "Bir neçə gün qabaq namesnik dəftərxanasının müdiri Tiflisdəki qəzetin baş mühərrirlərini çağırıb onlarla müsahibədə bulundu.

Müsahibədən məqsəd fəxamətli veliki knyaz Nikolay Nikolayeviç həzrətlərinin Qafqaz xüsusundakı fikir və arzularını və idarəsindəki məslək və üsulunun təməlini yada salmaq və anlatmaqdıq. Bu anlayışa görə namesnikimiz üsuli idarəsinin əsası «ədalət və müsavat» imiş. Və bu əsas cəhətilə hamı millətlərə bir gözlə baxmaq və onların arasında nəinki ziddiyyət, bəlkə dostluq və yaxınlıq vücuda gəlməsini şiddətlə arzu buyururmuş" ("Açıq söz"qəzeti, 1915, № 54).

Şübhəsiz ki, "veliki knyaz" cənablarının məqsədi "nəcib və xeyirxah" məqsəd idi. Lakin baxaq görək ki, bu sözlərə həyatda nə cür əməl olunurdu. Buna görə çox uzağa getmək lazım deyildir, M. Ə. Rəsulzadənin "Məktəb və mədrəsə" adlı silsilə məqalələrini oxumaq kifayətdir. Əvvəlcə baxaq görək ki, "veliki knyazın" məmurlarından biri, Qafqaz maarif müdiri Rodolev cənabları nəyə rişxənd edir. "Rodolev cənabları" "Bakıda yataq salan" müsəlman maarif cəmiyyətlərinin darülmüəllimin və sair məktəbi-aliyyə "xülya"ları ilə ömür keçirdiklərini məxsusi bir surətdə qeyd edir... Burada "xülya" olacaq nə şey varmış? Bəlkə bunun "xülya" olan cəhəti odur ki, müsəlmanlar bunu özləri öz ixtiyarları ilə, öz zövq və səliqələri ilə görmək istəyirlər. Əsrlərdən bəri dara olduqları haqlarından, imdi də olsa, istifadə fikrinə düşmüşlər. Bəlkə burası "xülya"dır ki, məscid, məktəb və mədrəsələrini maarif nəzarətinə tabe etmədən islah etmək istəyirlər» ("Açıq söz" qəzeti, 1916, № 138).

Əlbəttə, müsəlman balaları üçün ali məktəb əlçatmaz bir xülya idi. Çarizm müsəlmanların savadlanmasına qarşı çıxırdı, çünki qorxurdu ki, avam və küt saydığı müsəlmanlar maariflənib özlərini dərk edərlər, gözlərini geniş açıb mütləqiyyətin yeritdiyi müstəmləkəçilik siyasətini anlayarlar və nəhayət öz təbii hüquqlarını tələb edərlər. Nəticədə, milli sərvətlərinin, təbii ehtiyatlarının göyə sovrulmasına, talan olunmasına mane olarlar. Çarizm müsəlmanlara nə qədər təzyiq göstərirdisə, öz din qardaşları ilə bir o qədər mülayim rəftar edirdi. Bəzilərinə hətta hədsiz hüsn-rəğbət göstərir, nazları ilə oynayırdı. Məsələn, Məhəmməd Əmin Rəsulzadə adını çəkdiyimiz "Məktəb və mədrəsə" silsilə məqalələrinin birində yazırdı: "Müsəlmanlar görürlər ki, qapıbir qonşularının təqribən bir əsr bundan əvvəl mövcud olan kəlisa məktəblərində şəriət, ermənicə, rusca, ümumi tarix, ziraət, tarixi təbii, erməni tarixi oxunur. Bu dərslərdən yalnız Rusiya tarixi ilə coğrafiyası rus dilində təlim edilir, qalan dərslərin hamısı, hətta ümumi tarix də haman erməni dili ilə oxudulur.

Bu məktəblərin hər dürlü idarələri, müəllimləri də öz ixtiyarlarında, kəlisa məhəlləsinin ixtiyarındadır.

Müsəlmanlar bir "xülya" deyil, bir həqiqət olaraq görürlər ki, qonşularının ibtidai kəlisa məktəblərindən savayı altı yerdə 85 ruhani darülmüəlliminləri var.

Bunların fövqündə Eçmiadzindəki ruhani "Akademiya"nın dəxi "xülya" olmadığını müsəlmanlar görürlər.

Əcəba, qapıbir qonşularımızın yarım əsrdən ziyadə nail olduqları bir şey bizim üçün bu gün nədən bir xəyal, nədən bir xülya olsun?" ("Açıq söz" qəzeti, 1916, № 138).

M. Ə. Rəsulzadənin hiddətini başa düşmək çətin deyildir. O, mütləqiyyətin müsəlmanlara qarşı tutduğu ədalətsiz mövqeyi görüb susa bilmirdi. Çünki maarif o zaman xalq üçün bir işıq, bir ümid mənbəyi idi. Məhəmməd Əmin milli dirçəlişdə maarifə geniş yer verirdi. Başlıca məqsədi milli məktəblərin açılması idi, elə məktəblərin ki, onu qurtaranlar millətin və dinin fərqini görsün,

mənsub olduğu xalqın mədəniyyətinə qovuşsun, onu sevsin. Ona görə də mövcud məktəb və mədrəsələrin islahına tərəfdar idi. Bu məktəblərin zamanə ilə ayaqlaşmasını istəyirdi.

O, məktəblərin islahını düşünərkən, "xalqı işıqlandıracaq məktəblərin, həm də məhkum və tabe millətlərə məxsus olan xalq və camaat məktəblərinin əsl məqsədi nə olmalıdır?",—deyə öz-özünə sual verirdi. Göründüyü kimi, Məhəmməd Əmin real vəziyyəti, nə qədər acı olsa da, nəzərə alırdı. Azərbaycan xalqı hələ ki, məhkum və tabe idi, ixtiyarı öz əlində deyildi. Odur ki, istər-istəməz bununla hesablaşmalıydı. Bir növ mövcud quruluşun mənafeyi ilə mənsub olduğu xalqın mənafeyini mümkün qədər yaxınlaşdırmağa çalışırdı. Çarizmin getdiyi güzəştlərdən faydalanmağı lazım bilirdi. Ona görə də öz sualına belə cavab verirdi: "Salim və bitərəf bir baxışa görə məktəblərin vəzifəsi, görəcəyi işi yaşadığı dövlətə mərbutiyyət və əlaqədarlıq tərbiyə etməklə bərabər mənsub olduğu xalqın əməllərinə dəxi mədəni bir amil olmaqdır" ("Açıq söz" qəzeti, 1916, № 134).

Demək, məktəblərin başlıca vəzifəsi həm uşaqlara yaşadığı dövlətə sədaqət və itaət hissi aşılamaqdan, həm də xalqının mədəniyyətini zənginləşdirəcək savadlı ziyalı tərbiyələndirməkdən ibarətdir. Göründüyü kimi, M. Ə. Rəsulzadə dövlətin mənafeyi ilə xalqın mənafeyini birləşdirməyə çalışırdı. Bununla belə, sonrakı cümlə ilə tarazlığın nisbətini bir qədər pozur, milliliyə üstünlük verir. "Demək ki, müsəlman balalarını tərbiyə edəcək xalq məktəbləri bu əxlaqın (yəni müsəlmanların) anlı qismi tərəfindən bəslənməkdə olan milli arzu və əməllərə dəxi yardımçı olmalıdır" (yenə orada).

O, məktəblərə daha geniş mövqelərdən yanaşır, onları qabaqcıl Azərbaycan ziyalılarının köməkçiləri hesab edirdi. Başqa sözlə, xalq məktəblərini bitirən şagirdlər gələcəyin millətpərvərləri, əməlpərvərləri olmalıydılar. Xalqın xidmətində durmalı, əllərindən gələni əsirgəməməliydilər.

M. Ə. Rəsulzadə Rusiya müsəlmanlarını az bir istisna ilə türk-tatar qövmünə mənsub edir. Onun fikrincə, müsəlmanlar mədəniyyət sahəsində bir şeyə nail olmaqdan ötrü aralarındakı birliyi dərk etməlidirlər. Bu birlik anlamı ən böyük mədəni qüvvədir. Hər hansı, bir vasitə ki, Rusiya müsəlmanlarını bu anlama yaxınlaşdırır, o vasitəni müsəlman ziyalıları hər vəchlə təbliğ etməlidirlər. Rusiya müsəlmanlarının arasındakı məzhəb ixtilaflarını qızışdırmaq, aralarına nifaq salmaq, Məhəmməd Əminin fikrincə, imperializmin siyasətidir. Halbuki dövlət bu siyasətdən əl çəkməli və müsəlmanların birləşməsindən qorxuya düşməməlidir. Bəlkə də əksinə, müsəlmanların birləşməsi dövlətə çoxlu mənfəət gətirə bilər. O yazırdı: "Müsəlmanların aralarındakı məzhəb ixtilaflarını qaldırıb, məsələn, sünnilərlə şiələrin birləşmələri məqsədini güdmələrinin həmişə yanlış anlamışdılar. Öylə təsəvvür olunur ki, bu iki zidd məzhəb birləşirsə, mütləqən siyasi bir məqsədlə birləşmək istəyir və bu birləşməkdə mütləq bir "təcavüz" fikri vardır və guya ki, bu məşhur təcavüz "ittihadi-islam" fikrinin doğurduğu "təhlükə"li bir şeydir" ("Açıq söz" qəzeti, 1916, № 134).

Məhəmməd Əmin çarizmin maarif sahəsində türk xalqlarını bir-birindən ayıran mürtəce siyasətinə qarşı çıxırdı. O, Rusiya türklərini mədəniyyətcə vahid hesab edir, dillərini türk dilinin ayrı-ayrı şivələri adlandırırdı. O, bununla yanaşı özünü həm də Rusiyanın övladı adlandırırdı. Rusiyaya vətən deyir və onun ali mənafeyinə hörmətlə yanaşırdı. Rusiyada yaşayan türk xalqlarının bir-birinə doğru can atmasına, mədəni cəhətdən birləşməsinə işarə vuraraq o yazırdı: "Rusiya içindəki millətlər üçün "vətən" olacaqsa, o zaman türk-tatar qövmlərinin bu meyl və arzularından ürkməməlidirlər. Çünki o zaman Rusiya mədəniyyətcə daha qüvvətli övlada malik olar. Yox, bu vəqtə qədər olduğu gibi, bundan sonra da «hökm üçün ayırmaq» politikası aparılacaqsa, o zaman başqa... Əlbəttə, yaxşı həzm olunmaq üçün lüğmələr xırda-xırda olmalıdır" (yenə orada).

Yuxarıdakı iqtibasdan məlum olur ki, çarizmin daxili siyasəti əvvəlki illərlə müqayisədə xeyli mülayimləşibmiş. Mütləqiyyət quruluşunun əsasları laxladığına görə çar əvvəlki kimi xalqı əsarətdə saxlaya bilmirdi. Güzəştlərə gedirdi, daha doğrusu, güzəştlərə getməyə məcbur idi. Bir tərəfdən Yaponiya ilə olan müharibə Rusiyanın iqtisadiyyatını sarsıtmış. digər tərəfdən isə xalq kütlələrinin mütləqiyyətə qarşı kütləvi çıxışları quruluşun ölüm saatını yaxınlaşdırmışdı. Beləliklə, çarizm növbəti zərbələrdən yaxa qurtarmaqlan ötrü müəyyən manevrlər etmək məcburiyyətində qalmışdı. Quruluşun sonunu uzaqlaşdırmaq məqsədilə müxtəlif yol və vasitələrə əl atır, bir növ vaxt qazanmağa çalışırdı.

Bayaq dediyimiz kimi, M. Ə. Rəsulzadə Qafqazda aparılan maarif siyasətinə qarşı çıxırdı. Bu siyasətin nəticəsi idi ki, Qafqaz türklərinin milli, mədəni hüquqları tapdanır, özləri isə ayrı-seçkiliyə məruz qalırdı. Xüsusilə də maarif sisteminin yeni layihəsi sələfindən fərqli olaraq daha mürtəce və daha irticaçı idi. Burada türk xalqlarının milli, mədəni hüquqları nəinki pozulurdu, hətta saya belə salınmırdı. M. Ə. Rəsulzadə ona görə də «Məktəb və mədrəsə» silsilə məqalərində açıq-aşkar yazır ki, Qafqaz maarif sisteminin müdiri cənab Rodolev və müsəlman ümumi fikri arasında bu məsələyə dair ziddiyyət hökm sürürdü. O, hətta bu məsələni, yənni milli məktəb ilə türk xalqlarının bir-birinə yaxınlaşmasını «millət amal və arzularının guşədaşları» adlandırır. Bu guşədaşlar aradan qaldırılarsa, xalqın bəslədiyi xoş ümidlər dərhal uçub dağılar.

Çar Rusiyası müsəlman məktəb və mədrəsələrinə qarşı yeritdiyi sərt siyasəti qondarma səbəblərlə əsaslandırmağa çalışırdı. Guya ki orada Rusiya əleyhinə qızğın təbliğat aparılırdı. Rusiyanı parçalamaq istəyirdilər, istəyirdilər ki, müsəlmanları rus dövlətindən ayırsınlar. Məhəmməd Əmin Rodolevin məruzəsinə işarə vurub yazırdı: "Xülasə, hökümətin xəbəri yox, nəzərə çürük, qaranlıq, rütubi görünən məscid və mədrəsələr yaman şeylərmiş. Sayıq canişin mütəvəffa Varansov-Daşkovun məşhur mərruzəsində müsəlmanlar haqqında iddia olunan "ittihadi-islam və Rusiyadan ayrılmaq meyli" demə buralarda, bu məscid məktəb və mədrəsələrdə bəslənirmiş. Kim bilir, bəlkə də mütəvəffa Varansov o böyük

iftirasını yazarkən, mövzu bəhsimiz olan məruzədən istifadə etmişdir” (“Açıq söz” qəzeti, 1916, № 135).

Bəli, Qafqazda maarifi boğmaq üçün bəhanə artıq tapılmışdı. Əlbəttə, Qafqaz deyəndə, biz ancaq Qafqaz müsəlmanlarını, ilk növbədə isə Qafqaz türklərini nəzərdə tuturuq. Çarizm artıq qılıncını siyirmişdi və hücuma keçməyə hazır idi.

Qafqaz maarif müdiri Rodolev məruzəsində “Səadət” cəmiyyətinin nizamnaməsinin birinci maddəsini bərk tənqid edirdi. Nizamnamənin birinci maddəsi onun xoşuna gəlmirdi. Gəlin baxaq görək bu maddə nədən ibarət idi. “1. Cəmiyyətin ümdə qəsdi Bakı şəhərində vaqe olan mədrəsələri üsuli-cədid üzrə nizama salmaqdır. 2. Müqtəzai zəmanə görə tazə mədarisi-ruhaniyyə, darülmüəllimin və sair məkatibi-aliyyə təsis və imarət etməkdir” (“Açıq söz” qəzeti, 1916, № 138).

Rodolev ali məktəblərin açılmasına, xalqın sözün əsl mənasında savadlanmasına heç bir vəchlə dözə bilmirdi, dərhal etirazını bildirirdi. M. Ə. Rəsulzadə bununla əlaqədar olaraq yazırdı: “Rusiya həyati – siyasiyyəsi təbii bir cığıra düşər, hər millətin öz kötüyü üzərində göyərib də doğma mədəniyyətlə nəşvunuma etməsinə imkan verilərsə, şübhəsiz ki, “Səadət” cəmiyyəti nizamnaməsinin birinci maddəsində istənilən şeylər deyil, ondan daha geniş milli tələblər dəxi bir “xülya” gibi nəzərə gəlməz. Yox, əgər istədiyimiz mədrəsəyi-ruhaniyyə əvəzinə bizə təsəvvür olunan “Əli” və “Ömər” məktəbləri təqdim olunub, ona qane olmamız “əmr” edilərsə, o vəqt əlbəttə “mədrəsəyi-ruhaniyyə” tələbi bir “xülya” olur...” (“Açıq söz” qəzeti, 1916, № 138).

M. Ə. Rəsulzadə çar Rusiyasının demokratik yolla inkişafına ümid bəsləyir, ona görə də, ali məktəblərdən mədrəsəyi-ruhaniyyələrdən və hətta daha geniş milli tələblərdən danışır. Yox, əgər dövlət əmr dili ilə danışsa, itaət etməkdən savayı bir əlac qalmır. Onda bütün bu arzular xülya olur...

Yeni layihə ilə əlaqədar olaraq məscid məktəbləri ruhanilərin əlindən alınıb maarif nəzarətinə verilməliydi. Şübhəsiz ki, bu müsəlmanların hüququna bir təcavüz idi. Çarizm bunu onunla əsaslandırırdı ki, guya müsəlman məscid məktəb və mədrəsələrində Rusiyaya qarşı təbliğat aparılırdı.

Lakin bunun günahı, Məhəmməd Əminin fikrincə, həm də özümüzdə idi. Biz bu məktəblərə xor baxdıq, qədrini bilmədik. Halbuki bu məktəblər millətin idi, orada millətin balaları təhsil alırdı. “Biz məscid məktəb və mədrəsələrinə xor baxdıq. Onları zəlalət və ətalət yuvası sandıq, burada millət çürüdülür dedik, buraları təəssüb ocağıdır ünvanını taxdıq. Həm həqiqətən də oylə idi. İmdi də çox islah olunmamışlar. Fəqət biz bir şeyi unutduq: Ən böyük səhvimiz də buradadır. İntelegensiyamızın, zəmanə dərdini anlayanlarımızın ən ağır xətası da budur. Biz unutduq ki, bu müəssisələr hər nə halda olsalar, bizimdir...” (“Açıq söz” qəzeti, 1916, № 143).

M. Ə. Rəsulzadə maarif məsələsində ziyalılarımızın nöqsanlarına, səhvlərinə də toxunur. Ziyalılar məscid məktəblərini bəyənməyib, onu ətalət, cəhalət ocağı adlandırıb xalqı «işkolalara» çağırdılar. Çünki bu tip məktəblərdə şagirdlərə dünyəvi elmlər öyrədilirdi. Bu məktəblər daha qabaqcıl, daha mütərəqqi məktəblər idi. Lakin «xalq ruhuna, əxlaqına, ürf və adətinə müğayir (olan ruslaşmaq "işkolasına" getmədi, məscid məktəb və mədrəsələrində qaldı. Əvəzində oraya bəzi bəyzadələrlə imtiyazlıların və sərvət sahiblərinin uşaqları getdilər. Təəssüflər olsun ki, oradakı təlim və tərbiyə üsulları bəyzadələri xalqdan tamamilə uzaqlaşdırdı. Həm də tək-tək adamların oxuması, təhsil alması xalqın maariflənməsi demək deyildi. Sonra rus-tatar tipində məktəblər açıldı, lakin bu məktəblərdən də bir nəticə hasil olmadı.

Şübhəsiz ki, deyildiyi kimi tək-tək adamların təhsil alması xalqa o qədər də böyük fayda vermirdi. Çox vaxt bu adamlar təhsil alıb xalqından aralı düşürdü. Xalq onu anlamırdı, o da xalqını. "Bir nəfərin işıqlanub da «abrazovannı» olması o qədər də dərdə şəfa verəcək dərman degildir. Çox kərə ayrı-ayrı fərdlərin böyük miqyasda işıqlanması çuxa əvəzinə palto, arxalıq əvəzinə frak, çarıq əvəzinə batinka geyməkdən, papaq əvəzinə silindr qoymaqdan və Tükəzban yerinə Liza xanım almaqdan ibarət olub qalır" ("İqbal" qəzeti, 1914, № 811).

Sonra da fikrini sübuta yetirmək məqsədilə oxuculardan soruşur: "...Bakıda, ehtimal ki, yüzə yaxın diplom almış, təhsili-kəmal etmiş "vısoko abrazovannılarımız" vardır. Hanı bəs, nə üçün ehtiyaclarımız dəf olunmayır?" (yenə orada).

Odur ki, məqsəd tək-tək şəxsləri maarifləndirmək yox, xalqı maarifləndirməkdir. Fayda ancaq buradadır. "Fəqət ən lazım olan şey əvamın nə kütleyi-nasın aydınlaşmasıdır. Çünki əsl millət odur. Bir cəmaət də ancaq kütleyi-nasının işıqlanması sayəsində işıqlanub mədəni ola bilər." (yenə orada).

Şübhəsiz ki, bu olduqca mütərəqqi baxış idi. Hələ o zamanlar yoxsul kütlə barəsində, "qara camaat" barəsində bu cür düşünmək dərin bilik və möhkəm inam tələb edirdi. O, bu kütləni—yoxsul və avam kütləni millət adlandırmışdı. Millətin gələcəyini onun maariflənməsində görmüşdü. Demək, M. Ə. Rəsulzadə xalqın bütün təbəqələrinin təhsil almasına ciddi əhəmiyyət verirdi. Təhsil almadan, maariflənmədən mədəniyyətə qovuşmaq, mədəni xalq olmaq qeyri-mümkündür. Bu məqsədə çatmaqdan ötrü əhali başdan-başa savadlanmalı, zəruri bilik əldə etməlidir.

Məktəb həm də xalqın tərəqqisini şərtləndirən başlıca amillərdəndir. Məktəb olmasa, xalq öz istəyinə, amalına çata bilməz. M. Ə. Rəsulzadə ona görə də məktəblərə müstəsna əhəmiyyət verirdi. Lakin bu məktəblər xalqın ruhuna. adət və ənənəsinə uyğun olmalıdır, əks-təqdirdə onlardan heç bir fayda görünməz. "Xəlqin işıqlanması üçün ibtidai məktəblərin artması və bu məktəblərin mümkün olduqca xəlqin ruh və adəti ilə müvafiq olması, heç şübhəsiz ki, ən əvvəlinci

şərtdir. Deмək ki, ən birinci ehtiyacımız ibtidai məktəblərin artması və milliləşməsidir" ("Açıq söz" qəzeti, 1915, № 6).

Lakin məktəblərin artması ilə iş bitmir. Bu məktəbdə dərs deyənlərin də kimliyinə nəzər yetirmək lazımdır. Xalqın tərəqqisi və təməddünü nöqteyi-nəzərindən dərs deyən ruhanilori də tərbiyələndirmək lazımdır, Ona görə ki, kəndlərdə, şəhər və qəsəbələrdə "burnunun o tərəfini görməyən", əxlaq və mərifətdən uzaq, cahil mollalar da vardır. Belə mollalar maarif sahəsində yeniləşmənin əleyhinə çıxır, təlim və tərbiyə prosesini düzgün qura bilmirlər. Odur ki, dərs deyənlərin kimliyi bu mənada böyük əhəmiyyət kəsb edir. Mollalar dünyəvi biliklərə də yiyələnməlidirlər. Ətrafda baş verən hadisələrdən baş çıxarmalı, daim yeniliyə can atmalıdırlar. Mühafizəkar mollalar isə xalqı geriyə çəkir, irəliləməyə qoymur. "Demək ki, mollaların qiyməti-şəxsiyyətləri xəlqimizin tərəqqi və təməddünü nöqteyi-nəzərindən böyük bir əhəmiyyətə malikdir. Şübhəsiz ki, yeni elmlərdən bəhrəsiz, dünya və aləmdən xəbərsiz olan bir molla yeni üsul məktəbləri özünə rəqib görür və xəlq arasında köhnəlmiş əvam fikirləri tərviclə ruhani bir zövq duyur..." ("Açıq söz" qəzeti, 1915, № 6).

M. Ə. Rəsulzadə yalnız ruhaniləri deyil, həm də müəllimləri yeni ruhda tərbiyələndirməyi lazım bilirdi. Müəllimlərin qarşısında bir sıra tələblər qoyurdu. Bu tələblərdən ən başlıcası milli tələblər idi. Yəni müəllimlər ilk növbədə xalqın dilinə, adət-ənənəsinə və ruhuna bağlı insanlar yetişdirməliydi. Yoxsa özündən bixəbər «uçitellərdən» xalqa nə fayda olacaqdı? O cür "uçitellər"dən də yarımçıq «uçenik»lər əmələ gələcəkdi. "Müəllim uşaqlarına dərs verdiyi xalqın dilinə, adətinə aşina və onu sevər ruhlu və fəal bir xadim olarsa, ancaq o zamandır ki, naqis də olsa, bizi tərbiyəyə mədar olan rus-müsəlman məktəblərindən faidə görəcəyiz. Yoxsa ortadakı kəndiliyindən bixəbər "uçitellər"dən yarımçıq "uçenik"lərdən başqa bir şey gözləmək əbəsdir ("Açıq söz"qəzeti, 1916, № 281).

Beləliklə, M. Ə. Rəsulzadə məktəbləri yeniləşdirməklə bərabər orada dərs deyən ruhaniləri və müəllimləri də yeni ruhda tərbiyələndirməyi zəruri sayırdı. Onları hər şeydən əvvəl mənsub olduqları xalqın dilini, adət və ənənəsini bilməli, sevməli və bu sevgini şagirdlərinə aşılamalıydılar. Əks-təqdirdə həmin şagirdlərdən xalqın dərdinə dərman olmayacaqdı. Bizə elə gəlir ki, M. Ə. Rəsulzadənin həmin fikirləri xeyli dərəcədə bu günümüzlə də səsləşir.

M. Ə. Rəsulzadə yorulmadan məktəblərin milliləşməsini təbliğ edirdi. Məktəblərin milliləşməsi nə demək idi? Məktəblərib milliləşməsi yazı və oxunun ana dilində aparılması deməkdi. Əlbəttə, məktəblərin ana dilinə keçməsi xalqın həyatında böyük irəliləyiş olardı. Ana dilinin köməyi ilə şagirdlərdə millilik güclənərdi. Ana dilinin köməyi ilə keçmişə körpü salıb zəngin mədəniyyətlərini öyrənərdilər. Doğma dillərində yazıb oxumağı öyrənərək, bilik qazanaraq milli mədəniyyətlərini zənginləşdirərdilər.

Bu o demək deyildi ki, məktəbdə başdan-başa milli dil işlədilməli, qeyri dillərə yer verilməməliydi. Milli dil ilə yanaşı tədris prosesində rus dili də

işlədilməliydi. Yəni rus dili, rus ədəbiyyatı və dilçiliyi rusca keçilməliydi. Adını çəkdiyimiz dərslərdən savayı yerdə qalan dərslərin hamısı ana dilində olmalıydı. M. Ə. Rəsulzadə yazırdı: "Məlum olduğu üzrə dünyanın bütün millətləri və Rusiyada yaşayan bilcümlə qövmlər kibi biz də, biz türk-tatar milləti də öz məktəbimizə, milli məktəbə malik olmaq istəyirik. Milli məktəb deyincə əlbəttə, oradakı oxu və oxu dilinin türkcə olduğunu, olması lazım gəldigini təsəvvür edirik. Biz istəyirik ki, sırf türk-tatar qövmlərinə məxsus olmaq üzrə açılan məktəblərdəki bütün dərslər türkcə—ana dilində olsun. Bunu söyləyərkən tarix, coğrafiya, hesab dərsi ilə bərabər şəriət dərsinin də türkcə oxutdurulmasını əlbəttə qəsd edirik. Ruscanı, rus tarix ədəbiyyatını, rus əruz vo lisaniyyatını əlbəttə bir dərs olaraq rusca öyrənmək, rusca oxumaq və oxutmaq tərəfdarıyıq". ("Açıq söz" qəzeti, 1916, № 150).

M. Ə. Rəsulzadə daha sonra nə üçün məktəblərin milliləşdirilməsini istədiyini ətraflı şəkildə izah edir. O yazır: "Bunu nə üçün tələb edirik? Əcəba bu təəssübümüzdən çıkma bir kapriz (naz)mıdır? Əlbəttə, yox. Bu imperialist olmayıb da günün altında hər bir şəxsə və şəxsiyyəti-cameə təşkil edən hər bir millətə öz kötügü, öz ruhu, öz adət və əxlaqı üzərində göyərib ürümək haqqını təslim edən hər münsifin bütün övladi-bəşər üçün istədiyi bir haldır. Daha ziyadə: bu hər növ siyasət təsirindən xaric saf bir fənn təşkil edən pedaqojinin dəxi caiz gördüyü və tələb elədiyi bir şeydir" (yenə orada).

Məhəmməd Əmin hər bir xalqın milli məktəbə malik olmasını təbii hüquq kimi qiymətləndirir. İmperialist siyasətindən əl çəkən dövlət millətlərin bu arzusundan qorxuya düşməməlidir. Rəsulzadə məktəblərin milliləşdirilməsini yalnız siyasi cəhətdən deyil, həm də elmi nöqteyi-nəzərdən əsaslandırır. Demokratik inkişaf xəttini götürən dövlətlər, böyük dövlətçilik mövqeyindən çıxış etməyən ölkələr təbiidir ki, xalqlara uşaqları milli ruhda, milli adət-ənənələrə hörmət ruhunda tərbiyələndirməyə icazə verəcəkdir. Məsələyə elmi nöqteyi-nəzərdən yanaşanda isə, istər-istəməz pedaqoqikanı nəzərə almalı oluruq. Pedaqoqika və siyasət bir araya sığmır. Pedaqoqika, eləcə də maarif siyasətdən kənar mövcud olmalıdır. Maarifdən, pedaqoqikadan müəyyən siyasi məqsədlər ummaq sadəcə olaraq əxlaqsızlıqdır. Çar Rusiyasının o zaman yeritdiyi maarif siyasətinə bu mənada başqa bir ad vermək qeyri-mümkündür.

M. Ə. Rəsulzadə rus dilinin öyrənilməsinə böyük əhəmiyyət verirdi. Məsələn, 1914-cü ildə "İqbal" qəzetində çap etdirdiyi "Kənd məktubları" məqaləsində kəndlilərin rus dilini bilməməsi üzündən adi məişət hadisələri zamanı nə qədər gülünc vəziyyətə düşdüyünü, nə qədər zərər çəkdiyini yazırdı. O, fikrini əsaslandırmaqdan ötrü hətta misal da çəkirdi ki, bir "uyezdçik" kəndə gəlsə, kəndlini nədəsə günahlandırsa və bununla əlaqədar olaraq protokol yazıb beş manat cərimə kəssə, kəndə bir müddətdən sonra bildiriş gələr. Lakin heç kim ondan bir şey anlamaz, odur ki, vaxtı keçər. Beş manat on, on manat on beş olar.

Axırda da dövlət zavallının şeylərini hərraca qoyub satdırar. Rus dilini bilməməsi ucbatından kəndli nə qədər əzab-əziyyətə düçar olur!

Məhəmməd Əmin milli qapalılığa qarşı idi. O, həmişə milli ilə beynəlmiləlin qarşılıqlı təsirindən danışırdı. Millinin beynəlmilələ olan münasibətini təkin ümumiyə olan münasibəti kimi qiymətləndirirdi. Beynəlmiləl onda iki mənada çıxış edirdi. Bir mənası o idi ki, Azərbaycan xalqı islam dininə sitayiş etdiyinə görə digər müsəlman xalqları ilə şərikli mədəniyyətə malik idi. Yəni Azərbaycan xalqının mədəniyyətində elə cəhətlər vardı ki, onların sayəsində Azərbaycan xalqının mədəniyyəti digər müsəlman xalqlarının mədəniyyətinə qovuşurdu. Bu da ki islam dininin təsiri ilə yaranmış cəhətlər idi. "Hər bir din öz mütədəyyinləri arasında məxsus bir təməddün vücuda gətirmişdir ki, bu təməddün də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz. Bütün islam millətləri ilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə, ortaq bir təməddünə malikiz" ("Açıq söz" qəzeti, 1915, № 1).

Yeri gəlmişkən qeyd edək ki, M. Ə. Rəsulzadə elə oradaca dində islahatlar keçirilməsi fikrini irəli sürür. Sonrakı məqalələrində dini islahatdan daha geniş söhbət açır. Hər şeydən əvvəl dua və ayinlərin ana dilində söylənməsinə tərəfdar çıxır. Dindar ayinlərin mahiyyətini anlamalı və tələblərini şüurlu surətdə icra etməlidir. Əks-təqdirdə araya bir məchulluq girir" bu da ki nəticə etibarilə dinə ziyan vurur. "Din və onun ehkamı mütədəyyinlərincə anlaşılmaz bir hala gəlirsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz ölər, məişətdən uzaqlaşar. Oylə də islam, bir məişət və həyat dini olaraq təəssüs elədiyi halda, mütədəyyinləri ilə öz ara-sıra bir məchuliyyət girdi. Bunun nəticəsində islam həyatdan və həyati-islamla yaşamaq kəmalında olanlar isə əsl islamdan uzaqlaşdılar. Bunun üçün də müxtəlif islam millətlərindən olan islam mütəfəkkirləri arasında islam deyə tanınan şeyin möhtaci-islah olduğunu düşünənlər gündən-günə çoxalırlar. Şübhəsiz, bu yolda bir islah lazımdır..." ("Dirilik" məcmuəsi, 1914, № 7).

Beynəlmiləliyyətin ikinci mənası isə ümumbəşər mədəniyyəti demək idi. Azərbaycan mədəniyyəti də bu mədəniyyətə daxil idi. Yəni ayrı-ayrı millətlər "öz iqtidar və öz istiqlalı sayəsində" bəşər mədəniyyətini zənginləşdirirdilər. M. Ə. Rəsulzadə "Dirilik nədir?" məqaləsində («Dirilik» məcmuəsi, 1914, № 1) bu barədə daha geniş yazmışdır. Onun fikrincə, millət təbiətlə mübarizə etmək məcburiyyətindədir. Gördüyümüz mədəniyyət də bəşəriyyətin təbiətlə davasından qazanılan qənimətlərdəndir. O millət ki, daha bacarıqlı və daha qüvvətlidir, təbiətlə davadan qazandığı qənimətlərdən daha çox istifadə edir və xeyli dərəcədə faydalanır. Lakin bundan ötrü millətlər qüvvətli olmalı və daim tərəqqi etməlidirlər. Onlar milli amal ətrafında sıx birləşib milli mədəniyyətlərinin qayğısını çəkməlidirlər. Fikrimizcə, M. Ə. Rəsulzadənin beynəlmiləlçiliyə dair fikirləri indinin özündə də çox vaxt «beynəlmiləlçilik» pərdəsi altında açıq ruslaşdırma siyasətinə rəvac verən bəzi maarif xadimlərimiz üçün də ciddi xəbərdarlıq ola bilər.

M. Ə. Rəsulzadə milli mədəniyyətə böyük əhəmiyyət verirdi. Hətta məqalələrinin birində milli mədəniyyətlə millət anlayışları arasında bərabərlik işarəsi qoymuşdur. Şübhəsiz ki, bu milli mədəniyyətə verilən yüksək qiymət idi. O, "Milli dirilik" silsilə məqalələrində mədəniyyət məsələlərini ətraflı şəkildə tədqiq etmişdir. O, milli mədəniyyətə, bayaq dediyimiz kimi, dünya mədəniyyətinin tərkib hissəsi kimi baxırdı. Bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız həmin millətin bədbəxtliyi deyil, həm də bəşəriyyətin böyük nöqsanıdır. "Bəncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə o yekuna xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölkün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir" ("Dirilik" məcmuəsi, 1914, № 1).

O, dinin mədəniyyətə güclü təsir etdiyini göstərmişdir. Bu baxımdan islam dininə etiqad edən xalqlar mədəniyyətcə bir-birinə yaxınlaşırlar. Lakin müsəlmanlar tərəqqiyə yad nəzərlərlə baxdıqlarına görə hazırda dərin böhran keçirirlər. Ona görə də başqalarının mədəniyyətinə əsir düşürlər, başqalarının tərəqqisindən faydalanırlar. "Biz, yəni islam aləmi və islam millətləri dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq dünya diriliyinə qərib bir nəzərlə baxmağa başladığımız zamandan bəri başqalarının rizəxarı və onlardakı tərəqqi və ümranın əsir və dəstgiri olduq" (yenə orada).

M. Ə. Rəsulzadə mədəniyyətdəki böhranı dini nöqteyi-nəzərdən izah etməyə çalışmışdır. Görünür o, dinimizin qeyri-sağlam əmrləri olduğunu nəzərdə tutub dinimizin- sağlam əmrlərindən yazmışdır. Bu da hər şeydən əvvəl islam dininin milli dili boğmasından irəli gəlirdi. M. Ə. Rəsulzadəni ilk növbədə dünyəvi həyat maraqlandırırdı. İslam dinindən fərqli olaraq o, fəal insana, axirət dünyası üçün deyil, bu gün üçün, millət üçün yaşayan insana üstünlük verirdi. Bununla belə dini böyük mədəni qüvvə hesab edirdi. "Dini də bir amili-mədəniədd elədiyimiz, ehtimal ki, bəzilərinə bir az qərib gələcəkdir, çünki məşhur olan bir nəzəriyyəyə görə din ilə milliyyət fikri yekdigərinə nəqizdir" ("Dirilik" məcmuəsi, 1914, № 7).

O, din və milliyyət arasındakı ziddiyyətə başqa cəhətdən yanaşmağı təklif etmişdir. O zaman ziddiyyət aradan götürülür, "dinlərin bir beynəlmiləliyyət və dillərin isə bir milliyyət vücuda gətirdikləri" aydınlaşır. Deməк, biz din və milliyyət problemini həll etməkdəı ötrü beynəlmiləliyyət və milliyyət anlayışlarından çıxış etməliyik. Bu anlayışları dialektik vəhdətdə götürməliyik. Daha birini digərindən ayırmamalıyıq. Hər birinin öz yeri və öz vəzifəsi vardır.

M. Ə. Rəsulzadə dili dindən üstün tutmuşdur. Lakin dil dindən nə qədər üstün olsa da, müəyyən şərait daxilində din xüsusi qüvvə kəsb edə bilər. Bu zaman onun təsiri millətin həyatında nəzərəçarpacaq dərəcədə artar. Bu təsirlər özünü əsasən mədəniyyətdə göstərir. Ona görə də islam dininə etiqad edən millətlərin mədəniyyətində ümumi cəhətlər mövcuddur. M. Ə. Rəsulzadə yazmışdır: "Din hər nə qədər dildən sonra gələn bir amil isə də, bəzi şərait daxilində ondan daha

müəssir bir qüvvə şəklini də ala bilər, ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid edirsə, ümum bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər" (yenə orada).

Lakin o, dinə kor-koranə surətdə tabe olmağın əleyhinə çıxmışdır, bunu avamlıq adlandırmışdır. Hər şeyə dini müqəddəsliklə yanaşmaq, hər şeyi dini nöqteyi-nəzərdən qiymətləndirmək xürafata və cəhalətə yol açmaqdır. Rəsulzadə bunu qəti şəkildə tənqid etmişdir. "Millətin bir avamlıq dövrü vardı ki, o zaman hər şeyə ancaq dini bir qüdsiyyət nöqteyi-nəzərindən əhəmiyyət verər" ("Dirilik" məcmuəsi, 1914, № 7).

Qurani-kərimin ana dilinə tərcümə olunmaması, dini ayinlərin ərəbcə oxunması üzündən yerli dil zərər çəkmişdir. İslam dini yerli dili boğmuşdur, inkişafını buxovlamışdır, irəli getməyinə mane olmuşdur. Lakin bununla yanaşı olaraq dini təəssüb milləti daha xətərli hallardan qorumuş, bir sıra təhlükələrdən sovuşdurmuşdur. Odur ki, dinin xeyiri ziyanından daha çox olmuşdur. "İslam təəssübü, yuxarıda deyildiyi kimi, vücudumuzu daha məhlik xətərlərdən saxlamış olduğundan əlavə milli ədəbiyyatımızın vücuda gəlməsinə də səbəb olmuşdur" ("Dirilik" məcmuəsi, 1914, № 7).

Din hətta yerli ədəbiyyatın yaranmasına belə kömək etmişdir. Rəsulzadə bunu onunla izah edir ki, zadəganlar ərəbcəyə və farscaya nə qədər təmsil olunsalar da, adi zəhmətkeşlər, kəndlilər türk oğlu türk olaraq qalmışdır. Böyük türk kütləsi eyni zamanda da islam dininə etiqad etmişdir. Bu kütlə nə qədər avam olsa da, "dini bir qəzai-ruhaniyyə" tələb edirdi. Bunun sayəsində də yerli dini ədəbiyyat vücuda gəlmişdir.

Yuxarıda deyildiyi kimi, M. Ə. Rəsulzadə dini islaha tərəfdar çıxmışdır. O, milliliyi boğmayan, islah olunan dini böyük mədəni qüvvə saymışdır. Bu cür din ancaq tərəqqiyə xidmət edə bilər. "İslah olunmuş, həqiqi və ilahi əsaslara irca olunmuş, həşv və zəvaiddən qurtarıb ictimai və milli əsaslara mümanəət etməyəcək fəlsəfi bir hala qaytarılmış islam dini o vəqt qüvvətli bir amili-tərəqqi, eyni zamanda da islam millətlərinin milliyyət və mədəniyyətlərinə xadim mühüm bir mühərrik olacaqdır" ("Dirilik" məcmuəsi, 1914, № 7). M. Ə. Rəsulzadə mədəniyyət məfhumunu araşdırarkən dilə, tarixi ənənəyə və dinə mühüm yer vermişdir. Onun mədəniyyət anlayışının əsasını milli mədəniyyət təşkil edirsə, milli mədəniyyətlərin cəmi bəşər mədəniyyətini yaradır. Bəşər mədəniyyətinin inkişafı milli mədəniyyətlərin inkişafını tələb edir. O, "Gürcü məsləkdaşlarımızla bəhsimiz" məqaləsində yazmışdır: "Açıq söz" mədəniyyəti-bəşəriyyəni milli mədəniyyətlərin yekunu təsvir edir. Mədəniyyəti-bəşəriyyə namına milli mədəniyyətlərin hər bir təcavüz və təərrüzdən saxlanmasını tələb edir. Milli mədəniyyətlərin kökünü dildə, tarixi ənənədə görür. Fəqət dinə dəxi mədəni bir rol vermək istər. Din mütədəyyinləri arasında mədəni bir beynəlmiləliyyət vücuda gətirir" ("Açıq söz" qəzeti 1916, № 99).

Göründüyü kimi, M. Ə. Rəsulzadə dili mədəniyyətin kökü hesab edərək ona müstəsna əhəmiyyət vermişdir. Ümumiyyətlə, o, dil məsələsinə dəfələrlə toxunmuşdur. Dili xalq yaradır və xalq da təkmilləşdirir. Dil milli mədəniyyətdə o qədər vacib ünsürdür ki, deyildiyi kimi onsuz nəinki milli mədəniyyət, hətta millətin özü belə mövcüd ola bilməz. Bir millətin qəsdində duran siyasilər ilk növbədə, onun dilini məhv etməyə çalışırlar: "Dil mədəniyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilər də əsl bunun üçündür ki, təmsil (asimilyasion) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxartmağa səy edərlər" ("Dirilik" məcmuəsi, 1914, № 6).

Milli dili inkişaf etdirib yaşatmaqdan ötrü lüğətlər tərtib olunmalıdır. Xalq ədəbiyyatı nümunələri toplanmalıdır. Məsələn, xalq arasında geniş yayılan rəvayətlər, əfsanələr və nağıllar toplanıb elmi surətdə təhlil və təsnif edilməlidir. Bununla ədəbiyyat xalqa yaxınlaşar, tərəqqiyə geniş yol açılmış olar. Bununla bərabər, Rəsulzadə ədəbiyyat tarixini yazmağı da zəruri bilmişdir. Millətin tərəqqiyə nail olmasından ötrü bunu da əsas şərtlərdən biri hesab etmişdir.

Bəs mədəniyyət nədir? Məhəmməd Əmin Rəsulzadə bu suala "Dirilik nədir?" məqaləsində cavab vermişdir. O, mədəniyyət anlayışına burada fəlsəfi baxımdan yanaşmışdır, yəni onu ümumiləşdirmişdir. Onun fikrincə, mədəniyyət bəşəriyyətlə təbiətin davasından qazanılan qənimətdir. Hər hansı millət daha bacarıqlı və daha qüvvətlidirsə, o millət təbiətdən aldığı qənimətdən daha çox istifadə edir. Tərəqqini anlamayan, mədəniyyətdən xəbərsiz olan millətlərin öhdəsinə ancaq işləmək düşür. Onlar nə qədər işləsələr də, zəhmətlərinin bəhrəsini görmürlər. "Gördüyümüz mədəniyyət, içində bulunduğumuz ümran iştə bəşəriyyətin təbiətlə etdiyi dəvalardan aldığı qənimətlərdir. Hər hankı millət ki, təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidir, o millət təbiətdən alınan qənimətdən də daha ziyadə istifadə edir, hələ yalnız bununla qalmayıb dünyanın nemətlərini təqsim edərkən diri millətlər özlərinə hər kəsdən ziyadə pay çıxarırlar... Millətlər qüvvətli və tərəqqi olmadıqca və diriliyə mənai-həqiqi və maddisilə anlamadıqca təbiətdən alınan qənimətlərdən hisslərinə ancaq bir qüvvəti-layəmut düşər" ("Dirilik" məcmuəsi, 1914, № 1).

Demək, millətlər tərəqqiyə can atmadıqca, həyatlarını düzgün qurmadıqca əməlləri boşa çıxar. M. Ə. Rəsulzadə diri millət dedikdə, özünü dərk edən, milli şüru yetkinləşən milləti nəzərdə tutmuşdur. O, "Milli dirilik" silsilə məqalələrinin birinci hissəsində mədəniyyətin kökündən daha geniş yazmışdır. Əgər dil millətin zahiri və batinidirsə, daxili aləminin ifadəçisidirsə, yaşadığı həyat, keçirdiyi tarix, uzun illər ərzində qazandığı adət-ənənə təməl daşıdır. Buna görədir ki, ayrı-ayrı xalqların mədəniyyəti bir-birindən fərqlənir. Buna görədir ki, hər xalqın mədəniyyəti özlüyündə müstəsna əhəmiyyət kəsb edir. Rəsulzadənin fikrincə, milli mədəniyyətlərə qiymət vermək qeyri-mümkündür. Ona görə ki, milli mədəniyyət əvəzsizdir, təkrar olunmazdır.

Milli mədəniyyətin təşəkkülü üçün müqəddəm şərq sərbəstlikdir. Millət öz mədəniyyətini inkişaf etdirməkdə sərbəst olmalıdır. M. Ə. Rəsulzadə həmin fikrini aşağıdakı kimi ifadə etmişdir. "Alman milləti— german irqi özünün istiqlalını təmin eləməsə və öz mədəniyyət xassəsini mühafizə etməsə idi, bəşəriyyət Şopenhauer, Fixte, Höte, Faust, Qottenberq və Livter gibi dühaları da görməyəcək idi. Fransa digər bir irq və qövmiyyət içində münhəll olub da öz bənliyini itirsə də, bəşəriyyət 19-cu əsrin fikirləri üzərinə hökumət edən əfgar qəhrəmanlarını—Jan Jak Russo, Didro. Mönteskye, Viktor Hüqo və Volterləri də qaib edəsəkdi..." ("Dirilik" məcmuəsi, 1914, № 2).

O,eyni zamanda mədəniyyətin milli çərçivə daxilində məhdudlaşmasının əleyhinə olmuşdur, istəmişdir ki, milli mədəniyyətlər daim bir-birilə təmasda olsun, bir-birindən qarşılıqlı surətdə faydalansınlar. Başqə sözlə desək, mədəniyyət bir yerdə durmamalı, hər an inkişaf etməlidir. Öz kökünü, təməlini mühafizə etmək şərtilə digər mədəniyyətlərin məqbul cəhətlərini əxz etməlidir.

M. Ə. Rəsulzadə yazmışdır: "Bugünkü islam millətləri, əzcümlə, biz Qafqasiya türkləri başqalarının iddiası, qədəh-nəfsdə ifrat sdən özümüzkülərdən bir qisminin dəxi etirafına rəğmən pək də mədəniyyətə biganə bir xalq deyilik. Biləks Qafqasiyadakı qonşularımızın hər hangısı ilə tutaşdırılsaq (müqayisə edilsək) mədəniyyət etibarilə onlardan geridə olmadığımız görülər. Biləks şer, musiqi, adət və ənənatlar tədqiq olunarsa, qonşularımızın mədəniyyətcə bizə borclu olduqları anlaşılar" ("Açıq söz" qəzeti, 1916; № 299).

O, "Getdiyimiz yol" məqaləsində mədəniyyətin müasirləşməsindən, günün tələbinə uyğunlaşmasından danışmışdır. Başqa sözlə, bu, yaşayışı asanlaşdıran, insanları bir-birinə yaxınlaşdıran və kamilləşdirən hər nə varsa, hamısını əxz etmək deməkdir. M. Ə. Rəsulzadə bu sıraya məişət və düşüncə tərzini, iş üsulunu, cəmaət işlərindəki qaydaları, ev tərbiyəsini aid etmişdir. "Əvət ətrafımızdakı millətlərdə gördüyümüz parlaqlıq, bilgi, bacarıq, zindəlik və çalaklıq mədəniyyətdən ziyadə müasirlikdir. Onların bu gün qibtəmizi mücib üsuli-məişətləri, tərzi-təfəkkür və təhrirləri,alış-verişdəki üsuli-aşinalıqları, cəmaət işlərindəki baxış və gedişləri, ev tərbiyəsindəki üsul və rəftarları milli bir mədəniyyət məhsulu olmaqdan artıq müasir bir təqlid nəticəsidir. Onlar avropalaşmışlar, məişə uyğun olan, yaşayışı asanlaşdıran müasir nə varsa, mümkün etdikləri qədər onları qəbulda tərəddüd göstərməmiş, bu xüsusda bizdən irəli düşmüşlər" ("Açıq söz" qəzeti, 1916, № 299).

Rəsulzadənin nəzərində Avrona mədəniyyəti ən yetkin, ən müasir mədəniyyətdir. Bu mədəniyyətin milliliyə xətər gətirməyən cəhətlərini götürmək günün tələbindən doğan zərurətdir. Hər hansı mədəniyyət günü-gündən irəli gedirsə, digər mədəniyyətlərlə qarşılıqlı ünsiyyətə girib zamanın tələbinə cavab verirsə, o mədəniyyət bütün xata-bəlalardan sovuşacaqdır.

M. Ə. Rəsulzadə kənd diriliyinə də xüsusi əhəmiyyət vermişdir. Kənd diriliyi deyəndə, o, kəndin sosial vəziyyətinin yaxşılaşmasını nəzərdə tuturdu. Bu

isə olduqca mühüm idi. Çünki kəndlərdə o zaman savadsızlıq baş alıb gedirdi. Kəndlilər hətta adlarını belə, yaza bilmirdilər. Rəsmi sənədlərə imza əvəzinə barmaq basırdılar. Qəzetin, kitabın nə olduğunu bilmirdilər. Dünyagörüşləri yalnız yaşadıqları kəndlə məhdudlaşırdı.

1914—1917-ci illərdə kəndlərimizin vəziyyəti olduqca ağır idi. Bir tərəfdən savadsızlıq, digər tərəfdən isə ehtiyac və məhrumiyyət kəndliləri sıxırdı. Onların bu vəziyyətə düşməsi imperiyanın müstəmləkəçilik siyasətindən irəli gəlirdi. Çünki artıq deyildiyi kimi, türk millətinin dirçəlməsi, milli-mənliyinin təşəkkülü mütləqiyyətin mənafeyinə cavab vermirdi. Çarizm küt və avam saydığı, demək olar ki, insan hesab etmədiyi yad dilli, yad dinli bir kütlənin vəziyyətini yaxşılaşdırmağı heç ağlına da gətirmirdi. Məhz bu səbəbdən də min bir hiylə və kələklə əhalinin savadlanmasına və maddi rifahının yaxşılaşmasına mane olurdular.

Lakin M. Ə. Rəsulzadə ruhdan düşmürdü. Kəndin, ümumiyyətlə isə millətin tərəqqisi, mədəni yaşayışı üçün müxtəlif çarələr düşünüb tapırdı. O, məqalələrinin birində fikrini aşağıdakı kimi ifadə etmişdir: “Mədəni yaşayış üçün üç əsas lazımdır: milliyyət, beynəlmiləliyyət və əsriyyət. Milliyyətin rüknü ana dili, beynəlmiləliyyətin əsası din və əsriyyətin binası əsrə hakim olap ülum və fünun ilə məhəllinə görə onun vasitəsi olan dillərin öyrənməsidir” (“İqbal” qəzeti, 1914 № 811).

Bu fikir əslində Əlibəy Hüseynzadədən götürülmüşdü. M. Ə. Rəsulzadə özü bu barədə belə. yazırdı: “Vəqtilə möhtərəm Əlibəy Hüseynzadə əfəndi “Füyuzat”da “islam əqidəli, türk qanlı və Avropa qiyafəli bir insan olalım” demişdi ki, qəsdi də bu idi” (yenə orada).

Beləliklə, Məhəmməd Əmin Əlibəy Hüseynzadənin “islam əqidəli, türk qanlı və Avropa qiyafəli insanı” ifadəsi üzərində bir balaca əməliyyat aparıb mənasını dəqiqləşdirmişdir. “Kənd məktubları” məqaləsində («İqbal» qəzeti, 1914, № 811) bunu “milliyyət, beynəlmiləliyyət və əsriyyət”, “Tutduğumuz yol” məqaləsində («Açıq söz» qəzeti, 1915, №1) “dil, din və zaman” və nəhayət həmin məqalədəsə bir az da irəli gedib “türkləşmək, islamlaşmaq və müasirləşmək” kimi ifadə etmişdir. Gəlin bu anlayışlar ilə bir az yaxından tanış olaq. Tanışlıq zamanı M. Ə. Rəsulzadənin özünə istinad etməyə çalışacağıq. Məsələn, türkləşmək barəsində o belə yazırdı: “Dilcə biz türkük, türklük milliyyətimizdir. Binaən əleyh müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır” (“Açıq söz” qəzeti, 1915, № 1).

Biz indiyəcən Rəsulzadənin türkləşməyini başqa cürə yozurduq. Yəni türkləşməyə siyasi damğa basırdıq, guya türkləşmək osmanlılaşmaq deməkdir. Guya o, Şimali Azərbaycanı osmanlı Türkiyəsinə calamaq istəyirdi... Bəs onda türkləşmək nə deməkdi? Hansı mənanı daşıyırdı? Xatırlamaq yerinə düşər ki, azərbaycanlıları o zaman həqarətlə gah “tatar”, gah da “Persian” deyə çağırırdılar.

Qəsdən xalqın etnik mənşəyini dolaşdırırdılar. Milliyyətini təhrif edirdilər. M. Ə. Rəsulzadə isə bütun bu dolaşıqları açdı, xalqın adını özünə qaytardı. Başa saldı ki, türkləşməyi əsasən bu mənada, xalqa öz adını tanıtdırmaq mənasında anlamaq lazımdır. Türkləşmək sözün geniş mənasında müstəqil türk ədəbiyyatı, müstəqil türk mədəniyyəti yaratmaq idi. Bu isə dünya xalqları içində özünü göstərmək arzusundan irəli gəlirdi.

İndi baxaq görək ki, M. Ə. Rəsulzadə dinimiz barəsində nə deyir. "Dincə müsəlmanıq. Hər bir din öz mütədəyyinləri arasında məxsus bir təməddün vücuda gətirmişdir ki, bu təməddun də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxilik" (yenə orada). Gəlin islamlaşmaq anlamının şərhindən əvvəl türkləşmək və islamlaşmaq anlayışlarının inkişaf xəttini izləyək. Ə. Hüseynzadənin dilində türkləşmək "türk qanlı" kimi səslənmişdir. M. Ə. Rəsulzadə isə onu aşağıdakı şəkildə dəyişmişdir: türk qanlı—milliyyət—dil— türkləşmək. İslamlaşmaq isə Ə. Hüseynzadədə "islam əqidəli", M. Ə. Rəsulzadədə beynəlmiləliyyət—din—islamlaşmaq kimi səslənmişdir. Nəzərə almaq lazımdır ki, Ə. Hüseynzadə fikrini şərh edərkən "islam əqidəli" ifadəsini başda işlətmiş; əsas vurğunu dinə yönəltmişdir. M. Ə. Rəsulzadə isə milliyyəti ön plana çəkərək əsas diqqətini ona vermişdir. Deməli, M. Ə. Rəsulzadənin milliliyə daha çox üstünlük verməsi şübhə doğurmur.

O, dini bir növ milliliyə uyğunlaşdırmağa çalışmışdır. Din hər şeydən əvvəl milliliyə xidmət etməli, milliliyi uca tutmalı idi. Milli inkişafın qabağına sədd çəkən, milli dili və milli adət-ənənəni boğan dinlər islah olunmalı və vahid milli amala uyğunlaşdırılmalı idi.

Müasirləşmənin kökü Ə. Hüseynzadənin "Avropa qiyafəli" kəlməsindədir. M. Ə. Rəsulzadə bu kəlməni aşağıdakı şəkildə dəyişdirmişdir: əsriyyət—zamap—müasirləşmək. Yeri gəlmişkən qeyd edək ki, Məhəmməl Əmin yuxarıda adını çəkdiyimiz hər üç anlayışa eyni məzmunu vermişdir. "Zəmanca da biz texnikanın (aliyyatın), elm və fənnin möcüzələr yaradan bir dövründəyik. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək, mütləqən əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənasıyla, zəmanə adamı olmalıyıq" ("Açıq söz" qəzeti, 1915, № 1).

M. Ə. Rəsulzadə kəndlərimizin millətin özəyini təşkil edən bu üç əsasdan məhrum olduğunu söyləmişdir. Milli mədəniyyət isə bu üç əsasın üzərində qurulur. Əgər belədirsə, kəndi cəhalətin əlindən nə cür qurtarmaq olar? Nə kimi vasitələrin köməyi ilə kəndin səviyyəsini qaldırmaq mümkündür? Maarif və mədəniyyəti kəndimizə hansı yolla gətirməliyik? Rəsulzadə bu sualların hamısına qısa cavab verir. "Başqa bir təriqlə degil, imdiki halda kəndlərdə açılmaqda olan "işkolalar" vasitəsilə" (yenə orada). O, kəndlərdə açılan ibtidai məktəblərə böyük əhəmiyyət vermişdir. Bu məktəblər hələlik nə qədər kiçik, nə qədər nöqsanlı olsalar da, "həqiqətdə böyük və parlaq mədəni bir həyatın üç böyük əsasını əvəz edirlər". M. Ə. Rəsulzadə yazırdı ki, ibtidai məktəblər kəndlərə maarif və

mədəniyyət nuru gətirməliydilər. Savadsızlığın baş alıb getdiyi kəndlərimizdə bir neçə ildən sonra, heç olmasa yazıb-oxumağı bacaran gənclər meydana gələcəkdi. Onlar daha valideynləri təki "hansı millətdənsən" sorğusuna "müsəlmanam" cavabını verməyəcəkdirlər, millətin nə olduğunu az-çox dərk edəcəkdilər. Beləliklə də, xalqın mədəni tərəqqisi uğrunda mübarizə aparanların cərgəsi artacaqdı. Maraqlıdır ki, M. Ə. Rəsulzadə ali məktəblərlə müqayisədə ibtidai məktəblərə daha böyük üstünlük vermişdir, Onun fikrincə, ibtidai təlimin millətə xeyri müqayisəedilməzdir. Mühəndis, həkim, vəkil və sairəyə fikir verməkdənsə, onları yetişdirməkdənsə, ibtidai təhsili genişləndirmək lazım idi. "Fəqət təəssüf etməlidir ki, milli həyatımızda bu qədər böyük bir əhəmiyyətə malik əvvəla ibtidai təlimə bu vəqtə qədər o ki lazımdır əhəmiyyət verməmişik. Xeyrat və ehsan sahibləri ilə cəmiyyətlər bu günə qədər həman ali mədrəsə şagirdləri, istudentləri nəzərə almış və mümkün olduğu qədər doktor, injener. advokat və sairə yetişdirməyə çalışmışdır. Halbuki bu o qədər də müvafiq deyildir" ("İqbal" qəzeti, 1914, № 811). Əlbəttə, bunun səbəbini, ilk növbədə, onun ibtidai təhsilin düzgün qurulmasına, xalqın daha geniş hissəsini əhatə etməsinə, milli tərbiyə əsaslarının formalaşdırılmasına verdiyi böyük əhəmiyyətdə axtarmaq lazımdır.

M. Ə. Rəsulzadədən başqa Yusif Vəzirov (Yusif Vəzir Çəmənzəminli) də xalqın tərəqqisində maarif və mədəniyyətə mühüm yer ayırırdı. O, Rusiya—Yaponiya müharibəsindən sonra Şimali Azərbaycanda maarif və mədəniyyət uğrunda mübarizənin geniş vüsət aldığını göstərir və bu hərəkatın kökünü bu müharibədən Rusiyanın məğlubiyyətlə çıxmasında görürdü. Yaponların ruslar üzərindəki qələbəsi, onun fikrincə, bütün Asiya qitəsini silkələdi. Bununla əlaqədar olaraq islam aləmi də hərəkətə gəldi. Yusif Vəzirov bu barədə yazırdı: «Yaponların Uzaq Şərqdə ruslara qələbə çaldıqları cəmi Asiyaya əcaib bir təsir buraxdı. Əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib ayılmağa başladılar. İslam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini açdı. Kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri "maarif" deyə səsləndilər. Məktəb, mətbuat, xeyriyyə və maarif cəmiyyətləri ortalığa çıxdılar" ("Açıq söz" qəzeti, 1916, № 160).

Demək, müəllif Azərbaycan maarifçilik hərəkatının güclənməsinin kökünü Rusiya—Yaponiya müharibəsinda axtarırdı. Rusların müharibədə məğlubiyyəti Azərbaycanda yerli əhalinin siyasi şüurunu oyatmışdı. Onlar oxumaq, yazmaq, bilik qazanmaq istədilər. İlk tələbləri də bu oldu. Sonra xeyriyyə cəmiyyətləri yarandı, məktəblər meydana gəldi və milli mətbuat işıq üzü gördü. Bunların hamısı xalqın həyatında böyük hadisə idi. İlk növbədə ona görə ki, Azərbaycan xalqının bir millət kimi təşəkkülünə kömək edirdi. Həm də xalq milli ruhda tərbiyələnirdi, ətrafda baş verən hadisələrə daha açıq gözlə baxmağa başlayırdı. Xeyirini və ziyanını, dostunu və düşmənini getdikcə daha artıq tanıyırdı. Yusif Vəzirov bu məsələdə mətbuatın roluna xüsusilə böyük əhəmiyyət verirdi. O, mətbuatın vəzifəsini xalqa yol göstərməkdə, onu öyrətməkdə görürdü.

Yusif Vəzirovun “Nicatımız ariflərlə bağlıdır” adlı digər məqaləsi də milli tərəqqiyə münasibət baxımından diqqəti cəlb edir. O, millətin tərəqqisini ariflərin olması ilə sıx bağlayırdı. Ariflər deyəndə, ali təhsilli oğlan və qızları nəzərdə tuturdu. O, bu ariflərin qarşısına bir sıra etik tələblər qoyurdu. Yəni hər ali təhsilli oğlan və ya qız arif ola bilməzdi. Arif olmaqdan ötrü bir sıra şərtlərə əməl etmək lazım idi. Y.Vəzirov yazırdı: “Çox fikirdən sonra bu yerə gəldim ki, bizi diriltsələr, ariflərimiz dirildəcəklər. Arifliyi də təşkil edən, zənnimcə, gərək ali məktəb qurtarmış qız və oğlanlar olaydılar. Bu əvvəlinci şərt idi. İkinci şərt bu idi ki, ariflərimiz kamil olmalı idilər, kamillik də ibarət idi geniş məlumatdan, ayıq fikirdən və səlamət məsləkdən. Bunlardan başqa arifə səmimiyyət lazım idi ki, fikirlərini özgələrə lazımınca qandırmağa və təlqin etməyə müvəffəq olsun... arifə səmimiyyətdən səva bir həvəs də lazımdır ki, başladığı xeyir işdə lazımi məqsədlərə nail ola bilsin” (“Açıq söz” qəzeti, 1916, № 203).

O, ali təhsilli gənclərə nəyə görə bu qədər əhəmiyyət verdiyini bununla izah edirdi ki, tələbə həyatı ariflik məktəbi üçün ən əlverişli vaxt idi. Edadi (orta) məktəblər bu sahədə kifayət qədər iş görə bilmirdi, ona görə ki, burada ana dili dərsi keçilsə də, qeyri-məcburi idi, ilahiyyat və türk dili müəllimləri çatışmırdı. Bundan başqa edadidəki dərslərin çətinliyi də buna mane olurdu. Odur ki, Y. Vəzirov tələbəliyə böyük ümid bağlayırdı. Lakin tələbəliyi görəndən sonra, tələbə həyatı ilə yaxın tanışlıqdan sonra xəyalları “həqiqət aləminə toxunub hərcmərc oldu.” Müəllifin fikrincə, tələbə daim öz üzərində işləməlidir. Hər şeyi özü başa düşməlidir, daha özgə sözünə, özgə nəsihətinə möhtac qalmamalıdır. Tələbələrdə milli ruh güclü olmalıdır. Millətin halını görüb ona bir çarə düşünməlidirlər. Lakin Yusif Vəzirov yuxarıda sadaladığı keyfiyyətlərin heç birini o zamankı tələbələrdə görməmişdir. Axırda o, belə qənaətə gəlmişdir ki, ariflik ana südü və ev tərbiyəsi ilə yaranır. “Analıq bir ilmədir ki, diriliyimiz ona bağlıdır. Yuxarıda ərz elədim ki, bizə nicat versə, ariflərimiz verəcəklər. Ariflik də ana südü ilə ev tərbiyəsi ilə pərvəriş tapar” (“Açıq söz” qəzeti, 1916, № 203).

Yusif Vəzirovun M. Ə. Rəsulzadə təkin xalqın savadlı şəxslərinə böyük ümid bəsləməsi əbəs deyildi. Qeyd olunduğu kimi, yerli əhali o zamanlar savadsızlıqda daha çox əziyyət çəkirdi. Bir tərəfdən də çarizm müsəlmanların, xüsusən də türklərin maariflənməsinə heç bir həvəs göstərmirdi. Hər ikisi-M. Ə. Rəsulzadə də, Yusif Vəzirov da məhz milli kökündən üzülməyən savadlılara bel bağlayırdılar. Fərq bircə onda idi ki, M. Ə. Rəsulzadə məsələyə daha geniş baxırdı və onun həllini milli azadlıq ilə əlaqələndirirdi.

Y. Vəzirov tələbələrlə bağlı tənqidi mühakimələrini “Bizim istudentlər” məqaləsində daha geniş və ətraflı şərh etmişdir. İlk növbədə, o, tələbələrin ana dilinə münasibətlərini tənqid atəşinə tuturdu. O, Kiyevdə müsəlmanların tələbə şurasında rusca danışıldığını görüb əhvalı pozulmuş və üzünü tələbələrə tutub demişdir: “Biz millətin ziyalılarıyıq. Millət bizi gözləyir ki, onun yaralarına dəva

edək. Biz millətin dilini bilməsək, onun dərdindən agah ola bilmərik. Bizə lazım və vacibdir həmişə türk dilində danışıb öyrənək" ("Açıq söz" qəzeti, 1916, № 204).

Gördüyümüz kimi, Y. Vəzirov tələbələrin əsas vəzifəsini xalqına xidmətdə görür. Tələbə ona görə ali təhsil alır ki, mənsub olduğu millətin xidmətində dursun, dərdinə-sərinə yarasın, onun tərəqqisinə yaxından kömək etsin. Bundan ötrü tələbə sözsüz öz ana dilini bilməlidir. Bu, müqəddəm şərtdir. Y. Vəzirov da M. Ə. Rəsulzadə kimi dilə müstəsna əhəmiyyət verirdi. Ana dilinin ziyalılar arasındakı vəziyyəti onu ciddi şəkildə narahat edirdi. Bəla burasında idi ki, onlar nə öz dillərini, nə də rus dilini mükəmməl bilirdilər. Həm o dildən qalırdılar, həm də bu dildən. "Demək olmaz ki, istudentlərimiz həmişə rus dilində danışırlar. Yox, türk dilində də həmişə söyləşmirlər. Əslən istudentlərimiz sabit bir dilə malik deyillər: gah rusca, gah türkcə qonuşurlar. Tələbələr rus və türk dilini qarışdırıb özlərinə əlahiddə bir dil qayırıblar desək, səhv etmərik. Deməli, istudentlərimiz iki dildən də avaradırlar" ("Açıq söz" qəzeti, 1916 № 204). Bu sözlər zənnimizcə, bu gün üçün də müasir səslənir.

Y. Vəzirov "Bədbinlik və şübhə" məqaləsində köhnəlik və yeniliyin tərəqqiyə təsirini araşdırmışdır. Məlum olmuşdur ki, cəmiyyətdə köhnə və yeni fikirlər mövcuddur. Yeni fikirlər cəmiyyəti irəliyə aparır, köhnə fikirlər isə tərəqqini buxovlayıb cəmiyyətin inkişafına mane olurlar. Bu hal bütün millətlərə xasdır. "Hər bir millətdə olduğu gibi, bizim cəmaətin arasında da bir neçə qisim adamlar var ki, onların varlığı tərəqqimiz yolunda böyük maneələr təşkil eləyir. Ən əvvəl qədim fikirli, köhnə məsləkli, zəmanə düşməni mutəəssiblər millətin qabağa getməsinə mane olurlar" ("Açıq söz" qəzeti, 1916, № 238).

Müəllif məqalədə şəxsiyyət və cəmiyyət, ictimai inkişaf, ictimai şüurun ictimai inkişafa təsiri və sairə bu kimi məsələlər barəsində fikir yürütmüşdür. Cəmiyyətin müəyyən qanunlar əsasında inkişaf etdiyindən isə heç bir söz deməmişdir. Məqaləni diqqətlə oxuyandan sonra Y. Vəzirovun ictimai inkişafa münasibəti aydınlaşır. Onun fikrincə, cəmiyyətin inkişafı bu və ya digər şəxsiyyətin iradəsindən asılıdır. Başqa sözlə desək, ictimai şüur ictimai varlığı müəyyən edir. Lakin bu proses asanlıqla həyata keçmir. İctimai inkişaf öz yolunu subyektiv ideyaların amansız çarpışmasından, bir-birinə zidd fikirlərin mübarizəsindən alır. O, bu fikirləri iki kateqoriyada birləşdirir: köhnəlik və yenilik. Əks kateqoriyalar nə qədər bir-birinə ziddirsə də, bir o qədər də bir-birindən ayrılmazdır. Onlar cəmiyyət daxilində mövcüddurlar. Y.Vəzirov köhnəliyin tərəfdarlarından danışanda yazır: "Bir adam qədimliyin tərəfdarı olduqda, yeniliyi inkar edir, yeniliyi də inkar etdikdə tərəqqiyə düşmən olub həmişə bir nöqtədə dayanmağa mail olur. Qədim fikirli adamların əqlini o qədər pas basır ki, ən adi şeyləri dərk etməyə qüdrətli olmurlar" ("Açıq söz" qəzeti, 1916, № 238).

Müasirlik millətin xilaskarıdır, çünki onun sayəsində millət zəmanəyə uyğunlaşır. Müasirlik və yenilik anlayışları burada bir-biripi tamamlayır. Hər ikisi ictimai inkişafa xidmət edir. Köhnəlik, qədimlik isə ictimai inkişafa mane

olur. Y. Vəzirovda "zəmanə" anlayışı ictimai inkişaf kimi çıxış edir. Zəmanə ictimai inkişaf təkin bir yerdə durmur, daim irəliləyir. Odur ki, bir millətin köhnə fikirli adamları nə qədər çox olsa, bir o qədər inkişafdan geri qalar. Y. Vəzirov ictimai inkişafa ürəkdən inanır. Hətta məqaləsində cəmiyyətin irəli getdiyini sübuta yetirməkdən ötrü misallar çəkir. "Xülasə, yeni həyatımızı ətraflı olaraq nəzər-diqqətə aldıqda hər an, hər dəqiqə irəli getməyimiz aşkar olur. Bunu unutmaq və inkar etmək olmaz: ariflərin sayı artır, mətbuat meydana gəlib, oğlan və qız məktəbləri, xeyriyyə cəmiyyətləri, qiraətxana, tacirlərimiz əmələ gəlib, türk mağazaları, ticarət idarələri, mətbəələr, zavod və fabriklər, kəndlərimizdə yeni üsullu əkin və biçin makinaları, buxarlı dəyirmanlar, pambıq və ipək makinaları..." ("Açıq söz" qəzeti, 1916, № 238).

Y. Vəzirov ictimai həyatın müxtəlif sahələrindən çoxlu misal gətirir. Onları qruplaşdırsaq, aşağıdakı mənzərə alınar. Əvvəla, ariflərin sayının artması, mətbuat, oğlan və qız məktəbləri, xeyriyyə cəmiyyətləri və qiraətxana. sonrasa tacirlər, türk mağazaları, ticarət idarələri, mətbəələr, zavod və fabriklər, yeni üsullu əkin və biçin makinaları, buxarlı dəyirmanlar, pambıq və ipək makinaları. Əgər birincisi əhalinin maariflənməsi istiqamətində gedən işi büruzə verirsə, ikincisi cəmiyyətin iqtisadi həyatını göstərir. Marksist ədəbiyyat iqtisadiyyata böyük əhəmiyyət verir və daim belə bir fikir yeridir ki, iqtisadiyyat mənəviyyatı formalaşdırır. Bundan başqa cəmiyyətin inkişaf meyarı kimi məhsuldar qüvvələri götürür. Yusif Vəzirov isə hər ikisini paralel götürür, birini digərindon ayırmır. Hər şeyə şübhə ilə yanaşan adamlar, müəllifin fikrincə, millət üçün baş ağrısı qazanır. Bədbinlik adamın ruhunu qırır, həvəsini söndürür. Bu cür adamlar işgüzar adamları da fəaliyyətdən qoyur, onlara pis təsir edirlər. İctimai şüura bir süstlük, durğunluq gətirirlər. Y. Vəzirov nikbinlik tərəfdarıdır. Adam nə qədər zəlalətə düşsə də, başına nə qədər bəlalar gəlsə də, həvəsdən düşməməli və ümidini üzməməlidir. Sadəcə olaraq qollarını çirmələyib işləməli, çalışmalıdır. O, bilik qazanmağı "hər çətinliyin açarı" adlandırır, yazır ki, hər kəsin biliyi çoxdursa, o da ağadır. Yusif Vəzirov xalqı bilik qazanmağa, savad öyrənməyə çağırır. Milli qurtuluşu bunda görür. O, milli ədəbiyyat və musiqi qarşısında da bir sıra tələblər qoyur. Ədəbiyyatla musiqini millətin xidmətinə verir. İlk növbədə ədabiyyatdan danışır, yeni ədəbiyyat yaratmağın zəruriliyini söyləyir. Ədəbiyyat gərək ruhu qüvvətləndirsin, yeni həyat qurmaq üçün insanlara kömək etsin. Köhnəlik lənətlənməli, yeni fikirlər isə təbliğ olunmalıdır. Şairlər ibarəbazlıqdan əl çəkməli, xalqa yaxınlaşmalıdır. Şerlərin məzmunu tamamilə dəyişməlidir. "Milli qayələrimizə (ideallarımıza) iman etməliyik! Müvəffəqiyyətə çatmaq üçün yeni ədəbiyyat və yeni musiqi əmələ gətirməliyik. Ədəbiyyat məslək doğduran, ruh qüvvətləndirən və uca fikirlər törədən gərək olsun. Bir tərəfdən köhnəliyimizi zəmm, o biri tərəfdən də yeni qayələr yaratmalıdır. Şer ibarəbazlığından düşüb el malı olmalıdır, məzmunu bilmərrə dəyişilməlidir. Yeni üfüqlərdən yeni yıldızlar doğdurmalıdır" ("Açıq söz" qəzeti, 1916, № 238).

Y. Vəzirov qeyd edir ki, yeni ədəbiyyat yaratmaq kimi, yeni musiqi də yaratmaq lazımdır. O, insanı fəaliyyətsizliyə aparan qəmli, kədərli musiqinin əleyhinə çıxır. Musiqi insanı ağlatmamalıdır. Əksinə, mübarizəyə səsləməlidir. Qəlbimizə şadlıq, sevinc gətirməlidir.“Damarlarımızı boşaldıb bizi fəaliyyətsizliyə salanlardan biri də musiqimizdir. Həmişə ahü-zar eləyir, içildəyir, ağlayır. Bizi də ağlamağa və zarıldamağa məcbur eləyir. Acizləşirik, ruhumuz qırılır. Yeni musiqi bizi mübarizəyə dəvət etməlidir. Qəlbimizə şadlıq və ruhumuza ayıqlıq bəxş etməlidir” (“Açıq söz” qəzeti, 1916, № 238).

Maarif və mədəniyyətin millətin tərəqqisində mühüm rolunu qeyd edən müəlliflərdən biri də Hüseyn Mirzə Camalov idi. O, “Xalqa doğru” silsilə məqalələrində sosial tərəqqidə mədəniyyətin yerini aydınlaşdırmağa çalışmışdır. Məqalə səkkiz hissədən ibarətdir. Orada sosial tərəqqi ilə mədəniyyətin qarşılıqlı təsiri, mədəniyyətin milli məzmunu və xalqın həyatında onun rolu, cəmiyyətin maddi həyatı və onun sosial tərəqqiyə təsiri və sairə bu kimi məsələlər araşdırılmışdır. Hüseyn Mirzə Camalov göstərmişdir ki, dövlətlər nə qədər militarist xətt yeritsələr, bir o qədər də inkişafdan geri qalarlar, çünki bu zaman maddi və mənəvi qüvvələrini ancaq hərbi ordu hissələrinin yaradılmasına sərf edərlər. Maarif və mədəniyyətin inkişafına isə imkan qalmaz. Nəticədə gələcək nəsil bundan zərər çəkər, cəmiyyət isə günün tələbinə cavab verə bilməz, inkişafdan qalar. “Əsrlərdən bəri qoşun, süngü və vəhşət orduları təşkilinə Avropa hökumətləri nə qədər fəaliyyət göstərmiş, nə qədər maddi və mənəvi qüvvələr sərf etmişlərsə, buna nisbətlə mürəkkəb və qələm ordularına verilən əhəmiyyəti ən ali dərəcələrə endirmişlər” (“Açıq söz” qəzeti, 1916, № 82).

H. M. Camalov hərbi qoşunu hətta “vəhşət orduları” adlandırır. Onun fikrincə, silahlanmaya sərf olunan vəsaitin xalqa heç bir xeyri yoxdur. Pulların hamısı elə bil ki, havaya sovrulur. O, zəhmətkeşlərin istirahətinə, elm və mədəniyyətə qayğı ilə yanaşmağın tərəfdarıdır, pullar bura xərclənməlidir. Çünki cəmiyyət onların sayəsində inkişaf edir.

Azərbaycan o zaman çarizmin ucqar müstəmləkəsi idi. Bir tərəfdən müstəmləkəçilik, digər tərəfdən isə mütləqiyyət quruluşu, hakimiyyətin tək əldə cəmlənməsi müəllifin inkişaf baxışlarının formalaşmasına öz təsirini göstərmişdir. Odur ki, o, şəxsiyyət və cəmiyyət məsələsində şəxsiyyətə, şəxsiyyətin cəmiyyətdə oynadığı rola böyük əhəmiyyət verir. Xalq özü özünü düşdüyü ağır vəziyyətdən çıxartmağa qadir deyildir. Söhbət ilk növbədə məhkum millətlərdən kedir. Bu millətlər, onun fikrincə, köməksiz heç bir iş görə bilməzlər. Onlara “xaricdən və ya daxildən bir rəhbər, bir müəllim, maddi və mənəvi bir köməkçi” lazımdır. Əks halda məhv olub gedəcəklər. “Cəhalətdə yaşamaqda davam edən, xaricdən və ya daxildən bir rəhbər, bir müəllim, maddi və mənəvi bir köməkçi bulmayan xalq daima rəzalətdə qalacaq, bir çox xəstəliklərə düşəcək, get-gedə adsız-sansız bir surətdə məhv olub gedəcəkdir” (“Açıq söz” qəzeti, 1916, № 85).

Müəllifin o fikrinə şərik çıxırıq ki, millətlər bir-birindən təcrid olunmamalıdır. Qarşılıqlı əməkdaşlıq, əlbəttə, bərabər hüquqlu əsaslar üzərində qurulmuş əməkdaşlıq millətlərin mənafeyinə xidmət edir. Millətlər bir-birindən görüb-götürməlidirlər. Burada milliyyət və beynəlmilliyyət anlayışları biri digərini tamamlayır. Hər millət mədəni olmağı arzulayır. Lakin Hüseyn Mirzə Camalovun nəzərində "mədəni olmaq" ifadəsi daha dərin mənaya malikdir. "Mədəni olmaq" ifadəsi millətin həm maddi və həm də mənəvi aləmini qovuşdurur. O, burada Məhəmməd Əmin Rəsulzadənin milli dirilik konsepsiyasına yaxınlaşır.

Mədəni millətlər əsrlərin kəşməkeşindən və sınağından üzüağ çıxır. Zamanın zərbələrinə sinə gərir, varlığını qoruyub saxlayır. "Sağlam tərbiyəyə malik və mütəməddin millət vaxtsız əcələ mində on qurban verdiyi zaman qeyri-mədəni millətlər hər minə qırx beş-əlli adam itirir" ("Açıq söz" qəzeti, 1916, № 85).

Hüseyn Mirzə Camalov bütün ümidini ziyalılara bağlayır. Burada onun fikri Yusif Vəzirovun fikri ilə səsləşir. Y. Vəzirovun arifləri ilə H. M. Camalovun ziyalıları arasında elə bir ciddi fərq yoxdur. Hüseyn Mirzənin fikrincə, ziyalılarımız öncə xalqın həyat şəraitini öyrənməlidirlər. Başqa sözlə desək, ziyalılar xalqın həyat şəraitini öyrənib əyər-əskiyini, ehtiyacını və tələbatını üzə çıxarmalıdır. Tədqiqat iki istiqamətdə aparılmalıdır: inkişaf və iqtisadi. Xalqın inkişaf və iqtisadi həyatı günün tələbinə uyğunlaşdırılmalıdır. Maraqlıdır ki, Hüseyn Mirzə digər amillərlə yanaşı iqtisadi amilə də ciddi əhəmiyyət verir.

Ziyalılarımız həm də yeni insan tərbiyə etməlidirlər. Müəllifin fikrincə, insan iki istiqamətdə tərbiyə olunmalıdır: ruhca və bədəncə. Gördüyümüz kimi, burada mənəvi tərbiyə ilə yanaşı, xalqın sağlamlığı da unudulmamışdır. Şübhəsiz ki, o zaman bu məsələnin də nəzərə alınması diqqətəlayiq idi. Çünki haqqında danışdığımız dövr olduqca ağır idi. Bir tərəfdən müstəmləkəçilik siyasəti, milli zülm, digər tərəfdən isə qanlı müharibə, məhrumiyyət, ehtiyac. Bu cür ağır şəraitdə millətin sağlamlığına fikir verilməsi nikbinlik əlaməti idi. Xalqın xoş gələcəyinə dərin inam idi. Hüseyn Mirzə ziyalılarımızla bağlı ümidlərini aşağıdakı kimi bildirirdi. "Əgər ziyalılarımız, cəmiyyəti-xeyriyyələrimiz bir əməl bəsləyirlər isə, var səylərini, qüvvələrini xalqımızın şəraiti-həyatiyyəsini öyrənməyə sərf etməlidirlər. Onların iqtisadi və inkişaf işlərini əsrə müvafiq bir hala gətirməlidirlər, ruh və bədənlərinin tərbiyələrinə çalışmalıdırlar" ("Açıq söz" qəzeti, 1916, № 85).

Lakin o, ziyalılar qarşısında bir şərt qoyur. Bu şərt ondan ibarətdir ki, ziyalılar xalqa doğru getməlidirlər. Onun fikrincə, xalq ilə ziyalılar arasında "səddi-Çin" mövcuddur və bu "səddi-Çin" gərək sökülə ki, "get-gəl başlana və ruhani bir təmas buluna!"

Burada Rusiya xalqçılarının təsiri duyulur. Məlum olduğu kimi onlar da XIX əsrin sonunda “xalqa doğru” şüarını irəli sürmüşdülər. Əlbəttə, biz Hüseyn Mirzənin rus xalqçılarının ideyalarından xəbərsiz olub-olmadığını qəti şəkildə söyləyə bilmərik. Bəlkə də müəllif özü bu qərara gəlmişdir. Xalq ilə ziyalıların arasındakı səddi götürməkdə məqsəd bundan ibarət idi ki, ziyalılar xalqın içərisinə gedib dərd-sərini, ağrı və acılarını öz gözləri ilə görsünlər. Xalqın arzu və istəklərinə yaxından bələd olsunlar. Sonra da bir çarə düşünüb tapsınlar. Bu, milli məfkurəmizdən doğan zərurət idi. Millətin irəli getməsini istəyənlər, yuxarıdakı vəzifəni hökmən yerinə yetirməliydilər. Xalq ilə ziyalılar arasındakı uçurum dəf olunmalıdır. “Milli məfkurə və arzularımızın ziyalılarımızdan istəyəcək bir fədakarlıq daha vardır ki, o da “xalqa doğru” getməkdən, dərdlərini öyrənməkdən, onun (yəni xalqın) ağrılarını, acılarını duymaqdan, səadətlərilə, məsud ələmlərilə mütəəllim olmaqdan və müqabilində çarələr etməkdən ibarətdir” (“Açıq söz” qəzeti, 1916, № 85).

Hüseyn Mirzə Camalov kəndlərin geriliyini də Azərbaycanda tərəqqini buxovlayan amillərdən biri hesab edirdi. O, kəndlərin vəziyyətini ətraflı şəkildə şərh edirdi. Kəndlərin müasir həyatdan nə qədər geri qaldığını dönə-dönə söyləyirdi. Həqiqətən də eləydi. Kəndlilərin əksəriyyəti kotanın nə olduğunu belə bilmirdilər. Əmək məhsuldarlığı aşağı idi. Torpağı dədə-baba qaydası ilə əkib-becərirdilər, savadsızlıq baş alıb gedirdi. Məhəmməd Əmin Rəsulzadə də məqalələrində kəndlərin nə qədər geri qaldığını dəfələrlə qeyd etmişdi.

Hüseyn Mirzə Camalov kəndlərin geriliyinin səbəbini aşağıdakı kimi izah edirdi. Onun fikrincə, kəndlərimiz əvvəla, ona görə geri qalırdı ki, dəmir yollarından uzaqda yerləşirdilər. İkincisi, şəhərlərdən uzaq idilər. Üçüncüsü isə, xaricdən heç bir kömək yox idi. Hüseyn Mirzə xüsusilə xaricdən köməyə çox bel bağlayırdı. Lakin baxaq görək xarisdən kömək dedikdə o, nəyi nəzərdə tuturdu və bu köməyi kimlər etməliydi. O, bu suala belə cavab verirdi: “Xaricdən imdad deyirəm. Bu imdadı kimlər etməli? Kimlər edə bilirlər? Və kimlər edirlər? Kiçik istiqraz və təavün cəmiyyətləri...” (yenə orada).

Demək, Hüseyn Mirzənin fikrincə, kəndlərimizə istiqraz və təavün cəmiyyətləri kömək edə bilərdilər. Yəni kəndlərimiz öz qüvvələri hesabına dirçələ bilməzdilər, onlara hökmən yardım etmək lazım idi. İstiqraz cəmiyyətləri kəndlilərə kredit buraxmalıydılar. Təavün cəmiyyətləri isə kooperativlər idi. Kooperativlər kəndlilərə əl tutmalıydılar, yoxsa “qolçomaqlar” kəndlilərin dərisini soyurdular. Ona görə ki, kəndlilərin əksəriyyəti kotan və bir çox digər texniki ləvazimatdan məhrum idilər. Əmək alətinə yiyələnmiş bir ovuc “qolçomaq” isə vəziyyətdən istifadə edərək kəndliləri soyub talayırdılar. Onlar kəndlilərin ehtiyacını görüb arpa, buğda, pambıq, nə var isə, hamısına kefləri istədiyi qiyməti verərək haqqını da bəri başdan ödəyirdilər. Məhsul yığımı zamanı isə “rəncbər gözünü açıb da beş rublaya satılan şeyi iki, yainki üç rublaya vermiş olduğunu görur.” Amma kəndlinin də əlacı yoxdur. Nə verirlərsə, onu da götürür,

çünki məcburdur. Nəticədə bir tərəfdən mütləqiyyətin, digər tərəfdən də "qolçomaqların" zülmü altında əzilir. Bununla da kəndlilərin o zaman nə qədər ağır həyat sürdükləri aydın olur. Hüseyn Mirzə Camalov kəndlinin dərdlərini sadalamaqla kifayətlənmir, həm də məsləhətlər verir. Bu ağır vəziyyətdən çıxmaq üçün çarələr duşünür. O, həyatın mübarizə olduğunu söyləyir və bu mübarizədə məğlub olmamaq üçün real həyatla uyğunlaşmağı tövsiyə edir. Bəs həyata uyğunlaşmaq nə deməkdir? O, bunu aşağıdakı kimi izah edir: "Sənət, elm və fənn günlərlə deyil, bəlkə də saatlarla tərəqqi edir, mübarizeyi-həyatın da şərtləri, üsulu bütün-bütünə dəyişilir, gündə yeni bir makina ixtira edilir. Yeni makinalar isə yeni tərbiyə, yeni "adamlar" törədir. Bir millətin bu yeni "adamları" nə qədər çox olursa, o millət bir o qədər irəliləmiş olur" ("Açıq söz" qəzeti,1916, № 86).

Hüseyn Mirzə Camalov əsas diqqətini elmə yönəldir. Elmi cəmiyyətin məhsuldar qüvvəsi səviyyəsinə qaldırır. Onun fikrincə, elm saatbasaat inkişaf edir və gündə bir makina ixtira edilir. Yeni makina isə yeni adamlar tərbiyə edir. Burada, gördüyünuz kimi, ictimai varlığın ictimai şüuru təyin etdiyini göstərən marksizm nəzəriyyəsi özünü büruzə verir. Ümumiyyətlə, Hüseyn Mirzənin yazılarında da bu cəhət özünü qabarıq şəkildə göstərir. Əgər Azərbaycan ziyalılarının əksəriyyəti ictimai şüura üstünlük verirdilərsə, Hüseyn Mirzə əksinə, ictimai varlığa daha çox diqqət yetirirdi. M. Ə, Rəsulzadə, Y.Vəzirov, Ö.Faiq və başqaları tərəqqini ayrı-ayrı şəxsiyyətlərin dünyagörüşü, savadı ilə əlaqələndirirdilər. Hüseyn Mirzə Camalov onlardan fərqli olaraq marksistlər kimi cəmiyyətin maddi həyatına böyük əhəmiyyət verirdi. Əlbəttə, H. M. Camalov marksist deyildi, ancaq baxışlarındakı bəzi cəhətləri ilə bu nəzəriyyəyə nisbətən yaxınlaşırdı.

O, Amerika həyatından nümunə gətirir. Amerika ölkəsi ona görə qabağa gedir ki, yeni "makinalar" sınaqdan çıxan kimi istehsalata tətbiq edilir. Bununla da həm istehsal artır, həm də yeni makinada işləyən fəhlənin biliyi genişlənir. Ona görə ki, fəhlə yeni makinanı öyrənməyə məcburdur, əks halda ailəsini dolandıra bilməyəcəkdir. Hüseyn Mirzə həyata donuq bir şey kimi deyil, daim hərəkətdə olan, inkişaf edən canlı varlıq kimi baxır. O, hadisələrə marksistlər kimi dialektika baxımından yanaşır. Məsələn, "Xalqa doğru" məqaləsində yazır: "Həyatibəşərdə təvəqqüf görünməmiş və görünməyəcəkdir. Bu isə ayın, günəşin və yıldızların seyrinə bənzər bir qanundur" ("Açıq söz" qəzeti, 1916, № 86).

O, digər xalqların təcrübəsindən istifadə etməyi məsləhət görür. Məsələn, Rusiyanın qərb mahallarını və Finlandiya kəndlərini nümunə gətirir. Onlardakı kimi şirkətlər, istehlak cəmiyyətləri (camaat dükanları) qurmağı tövsiyə edir. Onun fikrincə, bu şirkətlərin kəndlərə böyük köməyi dəyə bilər: məktəblər tikilər, telefon xəttləri çəkilər, kəndin bu və ya digər ehtiyacları ödənər. "Rusiya qərb mahallarının əksəriyyotində və Finlandiyada köylülər məhsullarından külli mənfəət götürmək üçün şirkətlər, istehlak cəmiyyətləri (camaat dükanları) təşkil edirlər. Gündəlik südlərini, yağlarını həp kəndi şirkətlərinə verib qaba alırlar, hər evdən

“bir az” yığılmış olan yağ və süd yüz min putları aşır, bir çox yerlərə ixrac edilir və gözə görüncək mənfəət götürülür. Bu ümum mənfəətdən şirkətin daxili işlərinə, köylərdə məktəblər təsisinə, telefon və kinematoqraflar açılmasına da sərf olunur” (“Açıq söz” qəzeti, 1916, № 86).

Gördüyümüz kimi, müəllif burada kəndin abadlaşdırılmasını, mədəniyyətə qovuşmasını ön plana çəkir. Bundan ötrü təbiidir ki, çoxlu maddi vəsait tələb olunur. Bəs bu maddi vəsait haradan alınmalıdır? Kəndlilərin birgə səyi ilə yaradılmış şirkətlərdən, yəni kooperativlərdən. O, kooperativ fikrini ardıcıl surətdə təbliğ edir, məziyyətlərindən danışır. Hətta kooperativ hərəkatının tarixinə nəzər salır. O göstərir ki, ilk kooperativi 1844-cü ildə İngiltərədə Roçdel şəhərinin fəhlələri yaratmışlar. Hüseyn Mirzənin fikrincə, həyat mübarizədir, odur ki, qəflət yuxusundan ayılmaq və mübarizə aparmaq lazımdır. “Tənbəl” millətlərin aqibəti faciə ilə nəticələnir. Onlar milli mənliklərini itirir və son anda tarix səhnəsindən düşürlər. “Hazırkı əsr uyğu va qəflət əsri deyildir. Mübarizeyi-həyat bizləri də başqa millətlərə “boyunduruq” yoldaşı etmiş. Müvazinəyi saklamaz tənbəl öküzlər gibi hərəkət “dərsək, daima “vurulasaq”, söküləcək və unudulacağız. Unudulub da “bənlikimizi” qaib edəcək, məhv olacaqız” (“Açıq söz” qəzeti, 1916, № 87).

Hüseyn Mirzə yazır ki, elm və sənaye inkişaf etdikcə, millətlər arasındakı iqtisadi münasibətlər də inkişaf edir, millətlər bir-birindən asılı olur. Həyat şəraiti dəyişir, tələbat artır və ehtiyac çoxadır. Gördüyümüz kimi, müəllifin elm və sənayenin inkişafına baxışı maraqlıdır. Elm və sənayenin inkişafı onun nəzərində yalnız iqtisadi deyil, həm də ictimai məna daşıyır. Bu inkişaf millətlər arasında bir növ körpü rolunu oynayır. Lakin bununla yanaşı tələbat və ehtiyac da artır. Bəs bu tələbat nə cür ödənilməlidir? Əlbəttə, müstəhlikin cəmiyyətlərinin köməyi ilə. Müstəhlikin cəmiyyətləri də kəndin mədəniləşməsinə və irəliləməsinə kömək edə bilər. “Elm, fənn və sənaye tərəqqi etdikcə millətlər arasındakı iqtisadi münasibətlər sıxlaşır, şəraiti-həyatiyyə dəyişilir, tələbat artır və ehtiyac da çoxalır. Müstəhlikin cəmiyyətləri isə bu ehtiyaca qarşı əvvəlinci bir silah olub da yüz minlərcə möhtacların əlindən yapışır, onları fəlakətdən qurtarırlar” (“Açıq söz” qəzeti, 1916, № 103).

Ömər Faiq “Milli məsələlərimizin vəqtimi?” silsilə məqalələrində sosial tərəqqi probleminə toxunur və bu problemi müxtəlif səmtlərdən tədqiq edir. O, hər şeydən əvvəl sosial tərəqqidə mətbuatın rolunu yüksək qiymətləndirir. Onu millətin güzgüsü adlandırır. Ömər Faiq öz fikrini bu cür ifadə edir: “Biz elə sanırıq ki, hər millətin mətbuatı o millətin ən parlaq güzgüsüdür ki, oraya baxdıqca insan üstündə olan ləkələri, çirkinlikləri, qüsurları qaldırmağa və özünü daha təmiz, daha gözəl etməyə çalışar” (“Açıq söz” qəzeti, 1915, № 31).

Onun fikrincə, mətbuat millətin həyatında islahedici qüvvə kimi çıxış etməlidir. Millətin qarşısında duran bu və ya digər məsələ mətbuat səhnfələrində müzakirə edilməlidir. Şübhəsiz ki, o millətin inkişafı, irəli getməsi də bu məsələlərin həllindən asılıdır. Lakin Ömər Faiq işin bir cəhətini də yada salır. Bu

da ondan ibarətdir ki, çarizmin əsarəti altında yaşayan millətin ixtiyarı özündə olmadığından onun arzularının həyata keçməsi hökumətin əlindədir. Hökumət eşitməsə də, onun mütərəqqi rus inkişafiyyəti eşidəcək və hər şeydən agah olacaqdır. "Millətin ehtiyacını, "millət came"inin minbərləri olan mətbuat səhifələrində müzakirə edəlim. İstədiklərimizi hökumətə olmasa da, adil hökumətin, ədalətli qanunun vazei olan mütərəqqi rus sinfinə olsun bildirəlim" ("Açıq söz" qəzeti, 1915, № 31).

Ömər Faiq mənsub olduğu xalqa qarşı çar Rusiyasının yeritdiyi ayrı-seçkilik siyasətinə də öz etiraz səsini ucaldır. Bu siyasətin nəticəsində xalqın arzu və istəkləri nəzərə alınmır, inkişafın qarşısına sədd çəkilir. Halbuki Qafqaz türkləri rus taxt-tacına sədaqətlərini dəfələrlə sübut etmişlər. Lakin çar hökuməti bütün bunları görmür, yaxud da görmək istəmir. Bax, Ömər Faiqin hökumətə etibar etməməyinin bir səbəbi də budur. "Hökumətimiz osmanlı türk hökumətilə dəva edir, öz təbəəsi olan türklərlə yox. Həm oylə bir təbəə ki, imdi degil, yüz illərcə öz sədaqətini, öz vəfapərəst adətini sözlə deyil, yeri gələndə, qan və qılınc ilə də bildirmiş və bildirməkdədir. Bizim gibi saf ürəkli bir millətə xəyanət isnad etməyin özü xəyanətdir, cinayətdir". (yenə orada).

Müəllif daha sonra qeyd edir ki, təkcə məhkum millətlər deyil, hakim millətlər də tərəqqi naminə müxtəlif tədbirlərə əl atırlar. Bununla hökuməti gücləndirmək istəyirlər. Lakin bundan ötrü bir şərtə də əməl etmək lazımdır. Millətlər hüquqca bərabər olmalıdırlar. Əks halda ziddiyyət əmələ gələr və ölkə çaxnaşmaya düşər. Nəticədə isə inkişafın qarşısı alınar və ölkə irəli gedə bilməz.

Qafqaz müsəlmanları hüquqsuzluq içində boğulub gedir, onların hətta ən adi maarif ehtiyacları ödənilmir. Qafqaz müsəlmanları hüquqsuzluq içində boğulduqları halda digər xalqlara maarif sahəsində bol-bol hüquqlar verilir. "Qafqazda ən ziyadə maarif ehtiyacı, hüquqsuzluq bəlası içində boğulan bizik. Umulur ki, bir əsrə yaxın zamandır qonşularımıza verilən həqq və musaidə "bu gün" olsun bizdən əsirgənməz, bizə çox görülməz" ("Açıq söz" qəzeti, 1915, № 44).

Mütləqiyyət azərbaycanlılara mədəniyyətini inkişaf etdirməyə belə imkan vermir. Hər hansı təşəbbüsü beşiyindəcə boğur. "İnsaf edilsin, zamanın böylə bir vəqtində 25—30 milyon biz Rusiya türklərinin milli mədəniyyətimiz adına hansı bir idarəmiz, hansı bir təşkilatımız var?" (yenə orada).

Ömər Faiq maarif məsələsinə böyük əhəmiyyət verir, onu hətta millətin ölüm-dirim məsələsi adlandırır. Şübhəsiz ki, bu, maarif məsələsinə müəllif tərəfindən verilən yüksək qiymət idi. Onun fikrincə, azərbaycanlılar maarif sahəsində geridə qalır. Qarşıda həlli gözlənilən çoxlu problem yığılıb qalmışdır. Bu problemləri həll etmək isə bir-iki nəfərin iqtidarında deyildir. "Maarif müdirinin yapılacağı da şəksiz tək-tək şəxslərə müraciət edib rəy toplamaq və bu nöqsan yol ilə ehtiyacımızı yarımyamalaq tutub işə bir tövr sərəncam verməkdir". ("Açıq söz" qəzeti, 1915, № 54).

Tək-tək adamlara müraciət edib fikirlərini öyrənməklə dərdə əlac etmək olmaz. Həmin adamlar hökumət məmurlarıdırsa, ümumi işə xeyir vermək əvəzinə ziyan vuracaqlar. "Yoxsa tək-tək şəxslərin, xüsusilə hökumət məmurlarının rəy və əlacları bizim yaralarımızı sağaltmaqdan ziyadə bərbad eliyəcəyi aşkardır" ("Açıq söz" qəzeti, 1915, № 54).

Hacı İbrahim Qasımovun "Bizdə milliyyət" məqaləsi sosial tərəqqi problemi ilə bağlı hədsiz maraq doğurur. İlk növbədə ona görə ki, o, millətin tərəqqisini dini bayramlara olan münasibətlərlə əlaqələndirməyə çalışır. Məsələn, mövlud gününü yada salır. Mövlud günündə nə bir yığıncaq və nə bir toplanış olmuşdur. Mövlud günü isə, bildiyimiz kimi, sırf dini bayramdır. Yəni müsəlmanların müqəddəs günüdür. O, müsəlmanların bayramını xaçpərəstlərin bayramı ilə müqayisə edir. Milad bayramında yolka qurulur, yəni il təntənə ilə qarşılanır, hamının üz-gözündən sevinc yağır. "Sair bayramlarda yolka alınır, sairlərinin təzə illəri şərafətlə vistreçat edilir, dəstə-dəstə güllər alınır, hədiyyə edilir. Bəs niyə bu qeyrətli cavanlar özlərinin əziz və müqəddəs mövlud bayramlarını saxlamırlar?" ("İqbal" qəzeti, 1914, № 547).

Xaçpərəstlərin dini bayramı ilə müsəlmanların dini bayramına fərqli münasibət, təbii ki, dövlətin yeritdiyi dini ayrı-seçkilik siyasətinin nəticəsi idi. Lakin Hacı İbrahim Qasımov ya bunu görmürdü, ya da məlum səbəbə görə özünü görməməzliyə vururdu. Hacı İbrahim Qasımov bunun səbəbini azərbaycanlıların milli mənliyinin hələ təşəkkül tapmamasında görürdü. Müəllif din və milliyyətə fərq qoymurdu, ona görə də dini bayramları qeyd etməyin səbəbini milli mənliyin aşağı səviyyəsi ilə izah edirdi. "Hasil bunlardan açıq-açığına aşkar olur ki, bizlərdə hənuz milliyyətin nə olduğunu düşünən, milliyyətin şan və şərəfini mülahizə edən çox az və hətta yox kimidir" (yenə orada).

Mədinəli M.Əbülfəz adlı bir nəfər "Cavanlarımızda hissiyyat" məqaləsində dili milli tərəqqinin başlıca amili hesab edir. Heç bir millət dilsiz tərəqqi edə bilməz. Dil həm də mədəniyyətin təməlidir. Elm, sənət, ədəbiyyat, xülasə, ictimai şüur ona istinad edir. Dil olmasaydı, bəşəriyyət irəli bir addım da ata bilməzdi. "Dil bir millətin ruhu və şan və tərəqqiyyati-təcəlli edəcəyi bir səhnədir. Və kəndini digər millətlərə tanıtmaq üçün ən böyük vasitədir. Dillər olmasaydı, insanlarda fikri-ictima, hissi-təməddün vücud bulmazdı. Nə fənn və sənətin əsərləri, nə də elm və hikmətin izləri tapılmazdı. Bəlkə daima dağınıq və hər zaman vəhşət içində yaşarlardı". ("İqbal" qəzeti, 1914, № 555).

Böyükağa Talıblı milli tərəqqini təmin etməkdən ötrü irəli bir neçə şərt sürür. Onun fikrincə, milli tərəqqini ayrı-ayrı şəxslər müəyyən edir. Həmin şəxs və ya şəxslər mənsub olduğu millətin ədəbiyyatını və tarixini bilməli, onu tanımalı və sevməlidir. Bu vasitə ilə millətin ehtiyacını öyrənmək və dərdinə əlac etmək mümkündür: "Fəqət yuxarıda zikr olunan gibi millətini sevmək üçün şəxs gərək onu tanısın və millətini yaxşı tanımaq üçün şəxs gərək öz ədəbiyyatını və öz

tarixini bilsin. Zira ancaq bu vasitə ilə millətin keçmiş halını, məişətini, yerini, dəyərini görər, dərdini, dərmanını anlar" ("Açıq söz" qəzeti, 1915, № 36).

Sənətulla İbrahimov "Milli məsələlər qarşısında bu günkü mövqeimiz" məqaləsində sosial tərəqqi probleminə özünəməxsus tərzdə yanaşmışdır. Hər şeydən əvvəl sosial tərəqqi problemi onun nəzəri mühakimələrində milli tərəqqi ilə qovuşmuşdur. Onun fikrincə, milli tərəqqi ilk növbədə maarif məsələsinin həllindən asılıdır. Maarif məsələsini həll etməkdən ötrü isə milli məktəblər və mədrəsələr yaradılmalıdır. Ana dilinə xüsusi diqqət verilməlidir. Darülmüəllimin açılmalıdır. Bununla yanaşı digər təkliflər də irəli sürülür. Məsələn, o, ruhani rəhbərlərin camaat tərəfindən seçilməsinə tərəfdar çıxır. Sonra dini bayramların istirahət günü elan olunmasını söyləyir. Göründüyü kimi, onda dini ehtiyaclarla milli ehtiyaclar vəhdət təşkil edir. Başqa sözlə desək, din və milliyyət bir nöqtədə qovuşur. Sənətulla İbrahimov bunubla kifayətlənməyərək hüquq sahəsində də bir sıra güzəştlərə nail olmaq istəyir, millətin hüququnun genişləndirilməsini tələb edir. Sənətulla İbrahimovun təklifləri aşağıdakılardan ibarətdir: "1) ibtidan təhsil zamanı ana dilinin yeri, 2) milli məktəb və mədrəsələrin səlahiyyəti və mahiyyəti, 3) ruhani idarəsinin islahatı, 4) darülmüəllimin açılması, 5) müsəlmanların bayram günləri və cümə günü istirahət günü olması, 6) müsəlmanlardan dəva vəkili (prisajnı poverennı) təyin etmək haqqındakı məhdudiyyətin götürülməsi". ("İqbal" qəzeti, 1914, № 617).

1914—1917-ci illərdə Azərbaycanda maarif məsələsinin həllində xeyriyyə cəmiyyətlərinin də rolu böyük idi. Onlar şagirdlərin təlim və tərbiyəsinə vəsait buraxır, əyin-başlarına paltar alırdılar. "Nəşri-maarif", "Nicat", "Səadət", "Şəfa" cəmiyyətlərinin fəaliyyətini xüsusilə qeydetmək lazımdır. Bu xeyriyyə cəmiyyətlərinin başlıca vəzifəsi Azərbaycanda maarif məsələsinin həllindən ibarət idi. Mətbuat xeyriyyə cəmiyyətlərinin fəaliyyətini ətraflı şəkildə işıqlandırırdı. Məsələn, "Yeni iqbal" qəzetində H. T. imzası ilə yazılan "Şəfa" cəmiyyətinin son qərarına dair" məqaləsində deyilirdi: "Şəfa" maarif cəmiyyəti uşaqların yalnız təlim və tərbiyəsinə iktifa etməyib onların libaslarının, kitablarını və müəllimlərə məxsus olan sair ləvazimatını verməkdən geri durmamışdır" ("Yeni iqbal" qəzeti, 1917, № 522).

Bu məsələdə Hüseyn Cavidin də mövqeyi maraqlı idi. O, cəhalətin düşməni idi. Gələcəyin ümidini elmdə, savadda görmüşdür. Biliyi nur işığına bənzətmişdir. Əgər savadın, biliyin varsa, irəli gedəcəksən, yoxsa cəhalətdə qalacaqsan, inkişaf edə bilməyəcəksən.

Azərbaycanda çıxan məzhəkə məcmuələri də millətin tərəqqisi uğrunda mübarizə aparırdılar. "Molla Nəsrəddin", "Lələk", "Babayi-Əmir", "Zənbur" və digər məcmuələr inkişafa mane olan qüvvələri satiranın acı dili ilə qamçılayır və onların əsl simasını açıb xalqa göstərirdilər. Məzhəkə jurnalları ilk növbədə maarif məsələsinə böyük əhəmiyyət verirdilər:

Yarəbbi! Qıl zəmanədə viranə məktəbi
Etmə nəsib bircə müsəlmana məktəbi.
(“Babayi-Əmir” məcmuəsi, 1916, № 10)

Qəyyur Əyyar imzası ilə yazılan “Arzu” şerində incə yumorla mühafizəkarın həyata baxışı ciddi şəkildə tənqid atəşinə tutulur. Yəni elmin, savadın qarşısını alan, inkşiafa mane olan məhz bu cür adamlardır. Bu cür düşünənlərdir. “Babayi-Əmir” məcmuəsinin səhifəsində çap olunmuş daha bir şerdə deyilir:

Hər tayfa bu dəhrdə əmr eyləsə rahət,
Qismət yaranub milləti-islama əziyyət.
Beş günlük olan yerdə nə lazım mədəniyyət.
İnsan mədəni olsada, virandı bu aləm,
Möminlərə bir guşeyi-zindandı bu aləm.
(“Babayi-Əmir” məcmuəsi, 1916, №3)

Şer “Bu aləm” adlanır. Məzhəkə jurnallarına xas olaraq burada da şairin ləqəbi yazılmışdır: hərdəm-xəyal. Hərdəmxəyal satirasında ciddi məsələlər qaldırır. Ancaq o, milliyyət və din anlayışlarını qarışdırır. Bu da ki o dövrə xas bir anlaşılmazlıq idi. Sonrasa mədəniyyətin lazımsızlığından, sadə adamların arasında geniş yayılmış “beş günlük dünya”dan danışır. O, “insana nə mədəniyyət lazımdır, nə də maarif. İnsan dünyaya gəlib ki, kef etsin, gününü eyş-işrətlə keçirsin”, — deyə düşünənlərə öz satirasında gülür.

“Babayi-Əmir” məcmuəsi, ümumiyyətlə, maarif məsələsinə bayaq dediyimiz kimi böyük əhəmiyyət verirdi. Demək olar ki, bütün saylarında elmə, biliyə, təlim-tərbiyəyə qarşı çıxanları tənqid edirdi. Maarifin xalqın tərəqqisində nə qədər mühüm rol oynadığını xalqa çatdırmağa çalışırdı. Məsələn, “Ol!” şerində məktəblərin açılması münasibətilə yazırdı:

Cəhl içrə dolan sübhü-məsa elmdən ar et,
Asudə ikən kəndini bin dərdə düçar et.
(“Babayi-Əmir” məcmuəsi, 1916, № 33)

Bu baxımdan “Ləklək” məcmuəsinin fəaliyyəti də diqqəti cəlb edir. Məcmuənin səhifələrində tez-tez maariflə bağlı ciddi məsələlər qaldırılırdı. Maarifin xalqın inkişafı üçün nə qədər zəruri olduğu göstərilirdi. Burada da mühafizəkarlar, elmin və təhsilin düşmənləri incə yumorla tənqid edilirdi:

Amandır elm, məktəbdən demə bir söz mənə, oğlum
Zərərdən başqa şey yok ta gələ ondan sənə, oğlum
(“Ləklək” məcmuəsi, 1914, № 2)

“Ləkləkin səlamı” şerində isə məktəb hətta tərəqqi ilə bərabər tutulur. Müəllifin fikrincə, məktəb peyğəmbər deyil ki, məzhəb gətirsin. Məktəb elm, bilik, savad öyrədir. Milləti irəli aparır;

“Molla Nəsrəddin” məcmuəsi daha ciddi məsələlər qaldırır. O, ziyalıların milli simalarını itirdiyini, xalqına bir xeyir vermədiyini tənqid edir:

Türkcə məcmuə, qazet heç oxumaz intiligent
Əlini lilli sular ilə yumaz intiligent.
(“Molla Nəsrəddin” məcmuəsi, 1914, № 11)

Şerin “Kefsiz” kimi imzalanması səbəbsiz deyildir. Burada xalqın dərdi, kədəri toplanmışdır. Ziyalılarımızın mövqeyi şairi dərin düşüncələrə salır. Kefini pozur. Gördüyümüz kimi, məcmuə gülə-gülə ağladır. Camaatı güldürə-güldürə səhifələrində kəskin məsələlər qaldırır.

# NƏTİCƏ

Beləliklə, tədqiqatımızı yekunlaşdırmalı olsaq deməliyik ki, Azərbaycan ziyalıları 1914—fevral 1917-ci illərdə azadlıq və mədəniyyət məsələlərinə daha çox diqqət vermişlər. Əgər azadlıq və mədəniyyət anlayışlarını xırdalasaq, aşağıdakı mənzərə alınar:

| | | | |
|---|---|---|---|
| AZADLIQ | MİLLİ | MƏDƏNİYYƏT | MAARİF |
| | DİNİ | | DİL |

Yuxarıdakı sxemdən göründüyü kimi, azadlıqdan yazanlar, əsasən iki məsələyə toxunurdular: milli azadlıq və dini azadlıq (vicdan azadlığı). Milli azadlığın alovlu carçısı Məhəmməd Əmin Rəsulzadə idi. M. Ə. Rəsulzadə milli azadlığı, milli istiqlalı yalnız yorulmadan təbliğ etmirdi, həm də bəşər mədəniyyəti, ictimai inkişaf baxımından fikrini əsaslandırır, istiqlalın labüdlüyünü sübuta yetirməyə çalışırdı. O, çox böyük və uzagörən nəzəriyyəşünas idi. Təbiidir ki, Məhəmməd Əminin millətpərvərliyi imperiyanın sadiq keşikçilərini—siyasi jandarmeriyanı narahat edirdi, ona görə də Məhəmməd Əminin fikirlərini senzor vasitəsi ilə cilovlamağa çalışırdılar. Hətta onu həbs etməkdən belə çəkinməmişdilər. Başqa sözlə desək, Məhəmməd Əminə qarşı fiziki və psixoloji təzyiq üsulundan istifadə edirdilər.

M. Ə. Rəsulzadə dini azadlıq (vicdan azadlığı) məsələsinə də toxunub imperiyanın dini ayrı-seçkilik siyasətinə qarşı çıxırdı. Dini azadlıq məsələsinə digər Azərbaycan ziyalıları da, o cümlədən Ömər Faiq və başqaları da toxunurdu.

Mədəniyyət sahəsində isə iki xətt aydın görünürdü: maarif və dil. Azərbaycan ziyalılarının demək olar ki, hamısı maarifçiliyin fəal təbliğatçıları idilər. Başlıca məqsəd milli məktəblərin yaranması idi. Bu məktəblərdə milli dil və dünyəvi elmlər tədris olunmalıydı.

Azərbaycan ziyalıları dil məsələsinə türk dünyası miqyasında baxırdılar. Bəziləri ("Şəlalə"çilər, "Füyuzat"çılar) türk dilinin İstanbul şivəsini əsas götürürdülər, qeyriləri isə (M. Ə. Rəsulzadə, M. C. Məmmədquluzadə, Ö. F. Nemanzadə və başqaları) Azərbaycan türklərinin şivəsi əsasında yaranmış bədii dili qəbul etdirməyə səy edirdilər.

Lakin maraqlıdır ki, Hüseyn Mirzə Camalov onlardan fərqli olaraq cəmiyyətin iqtisadi həyatına daha çox diqqət yetirirdi. Onun fikrincə, kəndlilər ilk növbədə-əkinçilik mədəniyyətinə yiyələnməli, müasir texniki vasitələrdən mümkün qədər geniş istifadə etməli idi. O, xüsusilə də müasir texnologiyaya, zavod və fabriklərin maddi bazasının elmin son nailiyyətləri hesabına dəyişməsinə böyük əhəmiyyət verirdi.

Nəhayət, bizim fikrimizcə, araşdırdığımız dövrün başlıca cəhəti bu idi ki, Azərbaycan inkişaf fikrində millilik, türkçülük məsələsi qoyulurdu. Əgər əvvəllər bu millətə "müsəlman", "farsdan dönmə", "tatar" və s. kimi qondarma adlar verirdilərsə, indi həmin millətin övladları mənsub olduqları millətin əsl adını şüurlara yeritmək istəyirdilər. Bu millətin ixtiyarı özündə olmadığına görə başına istənilən oyunu açırdılar, adını qəsdən dolaşdırırdılar. Bütün bunlar çar Rusiyasının müstəmləkəçilik siyasətindən, digər millətləri, məhkum millətləri çapıb talamaq, milli varlığını əzmək siyasətindən doğurdu. Çarizm hər şeydən əvvəl məhkum millətlərin maariflənməsindən, savadlanmasından, ələlxüsus da milli ruhlu, mütərəqqi baxışlı, uzaqgörən övladlarından oddan qorxan kimi qorxurdu və müxtəlif yollarla, müxtəlif hiylə və kələkbazlıqlarla bunun qarşısına sipər çəkməyə çalışırdı.

Cəsarətlə demək olar ki, tədqiq etdiyimiz dövrün ən başlıca xüsusiyyət və əhəmiyyəti millilik, türkçülük anlayışının ortaya qoyulması idi. Bu, artıq istiqlala doğru atılan ilk addım idi.

# MÜNDƏRİCAT

Ön söz
I fəsil. Sosial azadlıq problemi
II fəsil. Maarif və mədəniyyətin sosial tərəqqiyə təsiri.
Nəticə

Назим Заман оглы Джафаров
ИЗ ИСТОРИИ НАЦИОНАЛЬНО – ОБЩЕСТВЕННОЙ МЫСЛИ
(1914 – февраль 1917)
(на азербайджанском языке)

Bədii redaktoru F. Fərəcov
Texniki redaktoru z. Nəcəfova
Korrektorları V. Musayeva, M, Sasani

İB № 5880
Yığılmağa verilmiş 03. 01. 92. Çapa. imzalanmış 19. II. 92. Ədəbi qarn
Yüksək çap üsulu ilə. Formatı 84X108$^1/_{32}$. Mətbəə kağızı № 1 Şərti çap vərəqi 4,20.
Şərti rəngli surəti 4,2. Uçot nəşr vərəqi 4,45. Tirajı 300 (sifariş -371-
Qiymati müqavilə ilə.
Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi. Azərbaycan Dövlət Nəşriyyatı,
Bakı, —370005, Hüsü Hacıyev küçəsi, № 4. “Qızıl Şərq” mətbəəsi, Bakı, Həzi Aslanov
küçəsi, № 80.

Государтвенной комитет Азербайджанской Республики по печати
Азербайджанское государственной издательство «Азернешр».
Баку – 370005, ул. Гуси Гаджиева,4.
Типография «Гызыл Шарг». Баку, ул. Ази Асланова, 80.